# BİZ ÖZ PRİNSİPİAL MÖVQEYİMİZİ BUNDAN SONRA DA NÜMAYİŞ ETDİRƏCƏYİK!


UNİVERSİTETDƏ TİBB KOLLECİ KOLLEKTİVİ İLƏ GÖRÜŞ
səhifə-2-də

"GƏNCLƏRİN DİNİ SAVADLILIĞININ ARTIRILMASI MÖVZUSUNDA" SEMİNAR
səhifə-3-də

"MÜASİR MƏRHƏLƏDƏ MAGİSTR HAZIRLIĞI: PRİORİTETLƏR, HƏDƏFLƏR" MÖVZUSUNDA SEMİNAR
səhifə-4-də

XALQA VƏ DÖVLƏTƏ ŞƏRƏFLİ XİDMƏT MİSSİYASI
səhifə-8-də

XARİCİ DİLLƏR FAKÜLTƏSİ-DÜNYA STANDARTLARINA UYĞUN TƏHSİL
səhifə-11-də


NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR

*HEYDƏR ƏLİYEV*




# YENİ FİKİR

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

4 may 2021-ci il, №4 (38)


## AZƏRBAYCAN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ARASINDA İLK REGİONAL MƏNTİQ OLİMPİADASI

Naxçıvan Dövlət Universitetində ilk dəfə olaraq regional məntiq olimpiadası keçirilib. Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsindən sonra Məntiq olimpiadasının videoçarxı nümayiş etdirilib. Olimpiadanı giriş sözüylə açan universitetin rektoru Elbrus İsayev Azərbaycan ali təhsil müəssisələri arasında ilk dəfə təşkil edilən olimpiadanı yüksək qiymətləndirib. Qeyd edilib ki, düzgün təfəkkür haqqında elm kimi götürülən məntiq elmi həmçinin qazanılmış təcrübə və dərketmə vasitəsilə həqiqətin əldə edilməsi elmi də adlandırılır. Bildirilib ki, məntiq olimpiadası ilə muxtar respublikamızda olimpiada hərəkatını başlatmaq, tələbələrin elmə yönləndirilməsinə, eləcə də bilik və bacarıqlarının artırılmasına xidmət etmək əsas missiyamızdır. Məntiqi biliklərin formalaşdırılması və inkişafına xidmət edən bu cür bilik yarışlarının keçirilməsinin tələbələrin dünyagörüşünə də əsaslı təsir edəcəyi vurğulanıb. Magistratura və dövlət qulluğuna hazırlaşanların məntiqi biliklərinin yoxlanılması nəzərə alınmaqla keçirilən olimpiadanın gənclərin gələcək perspektivlərində əhəmiyyəti önə çəkilib. Rektor yarışda iştirak edən hər üç ali təhsil müəssisəsi tələbələrinə uğurlar arzulayıb.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov, Naxçıvan Universitetinin rektoru Nurlana Əliyeva maraqlı layihənin təşkilatçısı olduqlarına görə universitet rəhbərliyinə öz minnətdarlıqlarını bildirib və olimpiada iştirakçılarına uğurlar arzulayıblar.

Sözləri universitetin Azərbaycan dili və ədəbiyyatı kafedrasının dosenti Xanəli Kərimliyə, musiqisi isə İncəsənət fakültəsi Xalq çalğı alətləri kafedrasının müəllimi Polad Vəliyə məxsus Olimpiada himninin sədaları altında Olimpiada bayrağı gətirilib.

Elm və innovasiyalar bölməsinin müdiri Rza Məmmədov olimpiada haqda məlumat verib. Qeyd edilib ki, tələbələrin həm məntiqi biliklərinin inkişafına, həm də dünyagörüşünə əsaslı şəkildə təsir edəcək olimpiadanın devizi "Elm, dostluq və sağlam rəqabət" dir.



Olimpiadanın açılış mərasimində elm haqda bədii qiraət edilib və İncəsənət fakültəsi müəllim və tələbələrinin ifasında musiqilər səsləndirilib.

İki mərhələdə təşkil edilən olimpiadaya 3 ali təhsil müəssisəsindən 250-ə yaxın tələbə onlayn olaraq müraciət edib. Onlardan 110 nəfəri qaydalar üzrə yarışda iştirak hüququ qazanıb. Elektron formatda təşkil olunan yarışın birinci mərhələsində tələbələrə 50 sual ünvanlanıb. İlk mərhələ üçün vaxt limiti 1 saat 30 dəqiqə müəyyənləşdirilib.

Yarışın ikinci mərhələsində hər bir universitetdən ən yüksək nəticə göstərmiş 5 nəfər həmin ali təhsil ocağını komanda olaraq təmsil etmək hüququ qazanıb. Şifahi-elektron formatda təşkil olunan II mərhələdə 30 sual olmaqla hər suala 1 dəqiqə vaxt verilib.

Olimpiadanın final mərhələsində komandalara 30 sual ünvanlanıb. Doğru və tez cavab verən komanda mərhələnin qalibi olub.

Naxçıvan Dövlət Universiteti komandası olimpiadanın qalibi olub. Naxçıvan Müəllimlər İnstitutu II, Naxçıvan Universiteti isə III yerləri bölüşüblər. Qaliblərə diplom və medallar təqdim edilib. I yerin qalibi isə kubok və pul mükafatı ilə təltif edilib.

Qeyd edək ki, hər iki mərhələdə üç ali təhsil müəssisəsindən müşahidəçilər iştirak edib və yarışın nəticələrini qiymətləndiriblər.

Sonda sözləri şair Zaur Vediliyə, musiqisi isə İncəsənət fakültəsi Xalq çalğı alətləri kafedrasının müəllimi Polad Vəliyə məxsus "Zəfər bayramı" mahnısı fakültə müəllimlərinin ifasında səsləndirilib.



## UNİVERSİTETİN QOŞULDUĞU ERASMUS + LMQ SANTE LAYİHƏSİNİN İLK KONFRANSI

Naxçıvan Dövlət Universitetində Erasmus + LMQ SANTE layihəsinin Beynəlxalq pilot qrupunun onlayn konfransı keçirilib. Layihənin ilk iclasında görüləcək işlər haqda məlumatlar verilib. Konfransada layihəyə tərəfdaş olan hər bir universitet qısa təqdimatlarla çıxış edib.

Qeyd edək ki, "Rusiya Federasiyası, Qazaxıstan və Azərbaycanda Səhiyyədə strateji keyfiyyət menecmenti, riskin idarə olunması üzrə açıq və distant təhsil formatında peşə bakalavrı, peşə magistri hazırlığı" mövzusunda layihənin müddəti 3 ildir. Naxçıvan Dövlət Universitetinin də qoşulduğu layihənin məqsədi səhiyyə maarifinin yüksəldilməsi, səhiyyə sisteminin inkişafı və ixtisaslı tibbi kadrların hazırlanması, onların tibbi bacarıqlarının inkişaf etdirilməsindən ibarətdir. Başqa sözlə, layihə təlim-tədris proqramlarını inkişaf etdirmək və təlimdə innovasiyaların tətbiqinə nail olmaq üsullarını qarşısına məqsəd qoyur.

Məlumat üçün onu da bildirək ki, partnyor ölkələrin səhiyyə və təhsil nazirliklərinin dəstəklədiyi layihənin təşəbbüskarı Yunanıstanın Qərbi Attika Universiteti, regional koordinatoru isə Azərbaycan Texniki Universitetidir. Layihədə Avropa İttifaqından Afina Universiteti, Nice Universiteti, Cluj Universiteti, Rusiya Federasiyasından 8 universitet, Qazaxıstandan isə 6 universitet iştirak edir. Layihədə ölkəmiz, həmçinin Seçenov adına Moskva Tibb Universitetinin filialı və Onkologiya mərkəzi ilə təmsil olunur.

## "ALTERNATİV TİBB METODUNUN TƏTBİQİ MƏSƏLƏLƏRİ" MÖVZUSUNDA RESPUBLİKA ELMİ KONFRANSI

Naxçıvan Dövlət Universiteti Beynəlxalq münasibətlər və hüquq fakültəsində "Alternativ tibb metodunun tətbiqi məsələləri" mövzusunda respublika elmi konfransı keçirilib. Universitetin rektoru Elbrus İsayev ənənəvi tibb əsasında dayanan alternativ müalicə metodlarının qədim tarixə malik olduğunu bildirib. Universitetin xəstəxanasında da hazırda bu üsulla müalicə metodlarının tətbiq edildiyi diqqətə çatdırılıb.

"Xroniki qeyri-infeksion xəstəliklərin inteqrativ təbabətlə müalicəsi" adlı çıxışında Azərbaycan Tibb Universitetinin professoru, tibb elmləri doktoru Fikriyyə İbrahimli qeyd edib ki, inteqrativ təbabət insan orqanizminin bütöv bir sistem olduğunu və bütün proseslərlə əlaqəli olduğunu deyir. Bildirilib ki, dünyanın 38 ölkəsində tətbiq olunan bu müalicə üsulu diaqnoz və simptomları deyil, bütövlükdə insanı müalicə edir.

"Covid 19: Azərbaycanın antiviral bitkiləri" adlı çıxışında - AMEA Botanika İnstitutunun Etnobotanika laboratoriyasının müdiri, biologiya üzrə elmlər doktoru, professor Səyyarə İbadullayeva ölkəmizin zəngin bitki örtüyünə malik olduğunu bildirib. Müasir dövrdə 1500-ə qədər dərman bitkisinin olduğunu diqqətə çatdıran professor vurğulayıb ki, bu dərman bitkilərinin 60 növü isə antiviral xüsusiyyətə malikdir.



AMEA Genetik Ehtiyatlar İnstitutu, biologiya üzrə fəlsəfə doktoru, dosent Sədrəddin Qurbanov "Kəskin respirator virus infeksiyalarının fitoterapiyası" adlı çıxışında bildirib ki, yoluxucu virus xəstəliklərinin böyük bir qrupunu özündə birləşdirən kəskin respirator virus infeksiyaları zamanı, əsasən tənəffüs sistemi üzvlərinin selikli qişaları zədələnir. Vurğulanıb ki, kəskin respirator virus infeksiyaları yer üzərində ən çox yayılan və epidemiyaya meylli xəstəliklərdəndir. Bu gün dünyada pandemiya kimi yayılan koronavirus infeksiyası da respirator virus infeksiyalarının bir növüdür.

"Hirudoterapiya və onun effektivliyi" adlı çıxışında universitetin "Ümumi təbabət və kliniki fənlər" kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Elmar Rzayev vurğulayıb ki, tibbi zəlilər ilə icra olunan müalicə üsulu hirudoterapiya adlanır. Diqqətə çatdırılıb ki, bəzi xəstəliklər zamanı hətta ənənəvi təbabətdən daha yaxşı nəticə verən bu üsulla ürək-damar, uroloji, ginekoloji, dəri, mədə-bağırsaq sistemi və. s xəstəlikləri müalicə etmək mümkündür. Həkim onu da diqqətə çatdırıb ki, hal-hazırda universitet xəstəxanasında zəli ilə müalicə kabinəsi fəaliyyətə başlayıb və artıq 35 nəfər bu üsulla müalicə olunub.

Konfrans "Fitoterapiya ilə müalicə metodları", "Ümumi təbabət" adlı iki bölmədə davam edib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# UNİVERSİTETİN “ENACTUS” KOMANDASI ÖLKƏMİZİN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ARASINDA KEÇİRİLƏN MÜSABİQƏNİN QALİBİ OLUB

Azərbaycan Gənclər Fondu, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı və Enactus Azərbaycanın təşkilatçılığı ilə "Enactus Onlayn Sahibkarlıq" müsabiqəsi keçirilib. Ölkəmizin 19 ali təhsil müəssisəsinin komandası iştirak etdiyi müsabiqə Zoom platforması vasitəsilə onlayn şəkildə baş tutub. Komandalar onlara ayrılan vaxt çərçivəsində öz layihələrini video formatda təqdim edib. Münsiflər heyətinin qərarı ilə Naxçıvan Dövlət Universiteti “ENACTUS” komandasının təqdim etdiyi layihə müsabiqənin qalibi olub. Dövlət Gömrük Komitəsinin Akademiyası II, Azərbaycan Tibb Universitetinin komandası isə III yerə layiq görülüb.

Qeyd edək ki, layihənin məqsədi sənayə müəssisələrində tullantıları nisbətən azaltmaq və bununla da hədəf auditoriyası və komanda üçün gəlir əldə olunmasını təmin etməkdir. Layihə müəllifləri belə hesab edirlər ki, bəzi hallarda sənaye müəssisələri üçün tullantı hesab olunan maddələr digər bir sahədə istifadə oluna bilən xammal ola bilər. Muxtar respublikada kifayət qədər sənayə müəssisələrinin olduğunu nəzərə alaraq bu tullantılardan səmərli istifadə etmək qərarına gələn komanda iki illik fəaliyyətləri ərzində layihəyə 480 saat




vaxt sərf etməklə sənətkarlar üçün yeni iqtisadi imkanlar yaratdı. İlkin mərhələdə 70 sənətkarın cəb edildiyi mərhələdə ümumi dəyəri 6800 manat olan 4021 ədəd əl işinin satışı reallaşdırıldı.

Məlumat üçün onu da bildirək ki, fəaliyyətinin ilk ilindən başlayaraq komanda innovasiyalı təhsil proqramlarının inkişafı, azad sahibkarlıq fəaliyyətinin öyrədilməsi, sosial məqsədlərin reallaşdırılması istiqamətində tələbələrin vahid komanda kimi fəaliyyətini koordinasiya edir. Dünyanın ən qabaqcıl ali təhsil müəssisələrinin qoşulduğu ENACTUS layihələri tələbələrin həm təfəkkürünün formalaşmasına və iş dünyası ilə universitet əlaqələrinin inkişafına şərait yaradır. Tələbələrin innovativ düşüncələrinin qiymətləndirildiyi 2019-cu il 3 aprel tarixli Sərəncamı ilə təməli qoyulan “Startap Naxçıvan” hərəkatı da universitetdə peşəkar mütəxəssis hazırlığına, tələbə-gənclərdə innovativ ideyaların üzə çıxarılmasına xidmət edir. Layihələrin dəyərləndirilməsi və tətbiqi üzrə ali təhsil ocağında yeni yaradılan Texnoparkın fəaliyyəti isə yeni elmtutumlu texnologiyaların işlənməsi və tətbiqi, qlobal bazara çıxarılması, layihələrin inteqrasiyası nano üzrə ixtisaslaşdırılmış kadrların hazırlanması sahəsinə böyük töhfələr verəcəkdir.




# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN REKTORU TƏHSİL ALDIĞI MƏKTƏBDƏ NÜMUNƏVİ DƏRS KEÇİB



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin orta təhsil aldığı məktəbdə nümunəvi dərsi keçirilib. Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbin IX a sinif şagirdləri üçün “Azərbaycan tarixi” fənninin tədrisini təşkil edən rektor Qarabağ və Naxçıvan xanlığının tarixindən danışıb. Tarixi faktlarla Azərbaycanın qədim yurd yeri, əzəli və əbədi torpaqları olan – Qarabağımızın tarixindən ətraflı məlumat verilib. Vurğulanıb ki, Azərbaycan Ordusunun şücaəti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin sərkərdəlik məharəti ilə torpaqlarımızın qısa müddətdə – 44 gündə düşmən işğalından azad edilməsi xalqımızda böyük sevinc və qürur hissi yaşatdı. II Qarabağ müharibəsində qazandığımız qələbənin mənəvi tərəflərinə diqqət çəkən rektor qeyd edib ki, Biz nahaq yerə qan axıtmamışıq, biz itirdiyimiz, bizdən alınan torpaqları, soydaşlarımızın zorla qovulduğu torpaqları geri qaytarmışıq. Artıq Vətən müharibəsi zəfərlə yekunlaşıb, düşmən diz çöküb və Azərbaycanın ərazi bütövlüyü bərpa edilib. Rektor vurğulayıb ki, həqiqətən də Azərbaycan öz torpaqlarının işğaldan azad edilməsi üçün qazandığı tarixi Qələbə əslində, erməni faşizminin iç-üzünün açılması və bəşəriyyət üçün nə dərəcədə təhlükəli bir cərəyan olduğunu bütün dünyaya göstərmək yolunda ən uğurlu addım sayıla bilər. Şagirdlərin suallarını cavablandıran Elbrus İsayev ixtisasından asılı olmayaraq hər kəsi keçmişinə dərindən bələd olmaq üçün öz tarixini öyrənməyə və bədnam qonşularımızın xalqımıza yaşatdığı çətin sınaqlardan dərs almağa çağırıb.

Rektor müəllifi olduğu Böyük İpək yolunun xalqların, ölkələrin tarixi, mədəni-iqtisadi həyatında oynadığı roldan və bu yol üzərində yerləşən Azərbaycanın qədim və orta əsrlər dövründə ticarət və diplomatik əlaqələrindən bəhs edən “Böyük İpək yolu və Naxçıvan” (2012), şagirdlər üçün yararlı ola biləcək əlavə dərs vəsaitlərini məktəbin kitabxanasına hədiyyə edib. Həmçinin, universitetin “Elmi əsərlər” jurnalını da şagirdlərə hədiyyə edən rektor vurğulayıb ki, şagirdlər öz müəllimləri ilə birgə yazdığı məqalələri həmin jurnalda dərc etdirə bilər.

Qeyd edək ki, Elbrus İsayevin orta məktəb müəllimi kimi də təcrübəsi var. Belə ki, 2000-2005-cü illərdə O, Naxçıvan şəhər 11 saylı orta məktəbdə tarix müəllimi kimi fəaliyyət göstərib.



# TƏLƏBƏLƏRƏ VƏ BİR QRUP İŞÇİLƏRƏ BAYRAM SOVQATI TƏQDİM EDİLİB

Naxçıvan Dövlət Universitetində əcnəbi və Azərbaycanın digər rayonlarından olan tələbələrə müqəddəs Ramazan ayı münasibətilə ərzaq payı təqdim olunub. Universitetin rektoru Elbrus İsayev bəşər övladını xeyirxahlığa, birliyə, mənəvi kamilliyə dəvət edən, öz mahiyyəti ilə insanların ruhunu təzələyən Ramazan ayının dünya müsəlmanlarının ən əziz ayı olduğunu bildirib. Qeyd edilib ki, universitetdə təhsil alan xarici və digər rayonlardan olan tələbələr hər zaman dövlətimizin diqqət və qayğısını öz üzərlərində hiss edirlər. Bayramlarda və əlamətdar günlərdə onlar hər zaman xatırlanır. Rektor milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsi kimi xarakterizə olunan müqəddəs Ramazan ayı münasibətilə müəllim və tələbələri təbrik edib, hər kəsə bol ruzi və bərəkət arzulayıb.

Qeyd edək ki, bu aksiya universitetin 1548 nəfərini təşkil edib.

# UNİVERSİTETDƏ TİBB KOLLECİ KOLLEKTİVİ İLƏ GÖRÜŞ



Tibb Kollecinin müəllim-tələbə kollektivi Naxçıvan Dövlət Universitetində olub. Universitetin Tibb fakültəsində kadr hazırlığı vəziyyəti və maddi-texniki baza ilə tanışlıqdan sonra fakültədə “Naxçıvan Muxtar Respublikasında tibbi kadr hazırlığında Tibb fakültəsinin və Tibb Kollecinin rolu” mövzusunda tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev ixtisaslı kadrların hazırlanması üçün ilk dəfə keçirilən görüşün əhəmiyyətindən söz açaraq bildirib ki, görüşün əsas məqsədi orta ixtisas təhsilini bitirən tələbələrə gələcəkdə ali təhsil seçimi zamanı kömək etməkdir. Qeyd edilib ki, belə görüşlərin keçirilməsi tələbələrdə ali təhsil ocağı haqda geniş təsəvvür yaradır. Vurğulanıb ki, 20 il əvvəl əsası qoyulan fakültənin fəaliyyətinin hal-hazırda günün tələbləri səviyyəsində qurulması məsuliyyətimizi daha da artırır. Rektor həmçinin əlavə edib ki, tələbələrin təcrübə keçməsində Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan xəstəxanaların mühüm rolu vardır. Bu da öz növbəsində ixtisaslı tibbi kadrların hazırlanmasına xidmət edir. Tədbirdə eyni zamanda diqqətə çatdırılıb ki, fakültəni bitirən məzunlar hazırda dünyanın bir çox inkişaf etmiş ölkələrində öz fəaliyyətlərini davam etdirir və muxtar respublikamızı layiqincə təmsil edirlər.

Naxçıvan Muxtar Respublikasının Səhiyyə Naziri Niyazi Novruzov öz çıxışında Naxçıvan səhiyyəsinin inkişafından danışıb. Bildirilib ki, bu gün səhiyyə sahəsinə göstərilən yüksək qayğı nəticəsində muxtar respublikanın şəhər, rayon və kəndlərində ən müasir standartlara cavab verən xəstəxana, həkim ambulatoriyası, feldşer-mama məntəqələri əhaliyə keyfiyyətli tibbi xidməti təmin edir. Bütün bunlarla yanaşı kadr hazırlığı da daim diqqətdə olan məsələlərdəndir. Nazir vurğulayıb ki, bu istiqamətdə aparılan ardıcıl işlər nəticəsində təhsil ocaqları və səhiyyə müəssisələrinin əməkdaşlığı yüksək səviyyədə qurulub.

Tədbirdə Tibb kollecinin direktoru Sona Məmmədova muxtar respublikada orta tibbi kadrların hazırlığında Naxçıvan Tibb Kollecinin rolu mövzusunda çıxış edib, təşkil edilən görüşün əhəmiyyətdən danışaraq öz minnətdarlığını bildirib.

Fakültənin dekanı, bilogiya üzrə fəlsəfə doktoru Elsevər Əsədov muxtar respublikada tibbi kadrların hazırlığında Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin rolu mövzusunda çıxış edib. Qeyd edilib ki, fakültədə yaradılan müasir şəraitin nəticəsində hazırda burada 6 ixtisas üzrə kadr hazırlığı aparılır. 2021-2022-ci tədris ili üzrə ilk dəfə olaraq “Hərbi tibb” ixtisası üzrə kadr hazırlığının həyata keçirilməsindən danışan Elsevər Əsədov bildirib ki, bu ixtisas üzrə kadrların hazırlanması gələcəkdə hərbi tibb işçilərinin yetişməsinə öz töhfəsini verəcək.

Tədbirin sonunda fakültə haqqında videoçarxa baxış olub.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***



# İNGİLİS DİLLİ “İQTİSADİYYAT” İXTİSASINDA TƏDRİS UĞURLA DAVAM ETDİRİLİR

Naxçıvan Dövlət Universiteti “İqtisadiyyat və idarəetmə” fakültəsində tədrisi ingilis dilində olan “İqtisadiyyat” ixtisasının tələbələri üçün dəyirmi masa təşkil edilib. Tədbiri giriş sözüylə açan universitetin rektoru Elbrus İsayev növbəti ixtisasların da tədrisinin ingilis dilində olmasına zəmin yaradan bu ixtisasın açılmasını ali təhsil ocağında uğurlu bir başlanğıc hesab edib. Qeyd edilib ki, bu cür ixtisasların açılması ilə universitet məzunlarının karyera imkanları dəyərləndiriləcək və xarici tələbələrin universitetdə təhsil almaq imkanları daha da artacaq. Bildirilib ki, fakültənin nəzdində yaradılmış müstəqil iqtisadi kitabxana fonduna ingillisdilli ixtisas ədəbiyyatları daxil edilib və ixtisaslar zəruri ədəbiyyatlarla təmin olunub. Amma buna baxmayaraq gələcəkdə kitabxananın zənginləşdirilməsi də əsas hədəfimizdir, deyən rektor lazımlı ədəbiyyatların mütəxəssislər tərəfindən yazılması ilə bərabər tərcümə olunmasını da məqsədəuyğun hesab edib. Diqqətə çatdırılıb ki, hazırda muxtar respublika iqtisadiyyatına dair kitab həm bu sahə üzrə, həm də ingilis dili bacarıqlarına malik mütəxəssislərin səyi nəticəsində ərsəyə gələcək.

Sonra İngilis dilinə tərcümə edilmiş “Sənayeləşmiş Naxçıvan” filmi izlənilib.

Fakültənin müəllimi Elşən Nəsirov muxtar respublika iqtisadiyyatının çoxşaxəli fəaliyyəti haqda çıxış edib.

Dəyirmi masa tələbələrin “Mənim iqtisadi düşüncələrim” adlı mövzusu üzrə öz fikirlərinin müzakirəsi ilə davam edib. Tədbirdə müəllim və tələbələrin sualları da aydın cavablandırılıb.

Qeyd edək ki, müzakirə iştirakçılarının əksəriyyəti “İqtisadiyyat” ixtisası üzrə ingilis dilində təhsil alan I kurs tələbələri olublar. Tələbələr iqtisadiyyata dair düşüncələrini maraqlı, əhatəli, aydın şəkildə və ingilis dili bacarıqlarından məharətlə faydalanaraq təqdim ediblər.

Məlumat üçün onu da bildirək ki, dəyirma masada əcnəbi tələbələr də fəallıq göstəriblər. Xarici tələbələr öz ölkələri ilə muxtar respublika iqtisadiyyatının fərqli cəhətlərinə toxunublar.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# II QARABAĞ MÜHARİBƏSİ QAZİLƏRİYLƏ GÖRÜŞ

Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutu tələbələrinin hazırladığı "Günümüzün qəhrəmanları" adlı tədbirdə II Qarabağ müharibəsinin qaziləri də iştirak edib. İnstitutun akt zanlında keçirilən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Zəfər tarixini özündə əks etdirən videçarx nümayiş olunub.



Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov tədbiri giriş sözüylə açaraq 44 Günlük vətən müharibəsində qazandığımız qələbənin Ali Baş Komandan İlham Əliyevin uğurlu və uzaqgörən siyasəti, müzəffər Azərbaycan ordusunun qəhrəmanlığı və xalqın güc birliyi sayəsində əldə olunduğunu xüsusi fəxr hissi ilə vurğulayıb. Rektor tələbələrin əməyini yüksək qiymətləndirib, birgə layihələrin əhəmiyyətindən söz açıb. Qeyd edilib ki, muxtar respublikada şəhidlərin xatirəsinə yüksək ehtiram, qazilərimizə göstərilən xüsusi dövlət qayğısı gənclərin bu istiqamətdə təşkil etdiyi tədbirlərin əsas başlanğıc meyarıdır.

Universitetin rektoru Elbrus İsayev Azərbaycanın 44 günlük Vətən müharibəsini dünya tarixində tayı-bərabəri olmayan bir müharibə kimi dəyərləndirib. Bildirilib ki, bu tarixi qələbə təkcə Azərbaycan xalqının deyil, bütün türk dünyasının qələbəsidir, xalqımızın şanlı tarixidir. Hər iki ali təhsil müəssisələri tələbələrinin şəxsi təşəbbüsü sayəsində təşkil edilən tədbiri yüksək qiymətləndirən rektor vurğulayıb ki, bu cür tədbirlərin təşkili göstərir ki, gənclər muxtar respublikada həyata keçirilən nümunəvi vətənpərvərlik tərbiyəsini layiqincə mənimsəyiblər. Rektor diqqətə çatdırıb ki, torpaqlarımızın bütövlüyü uğrunda canından keçən igidlərimiz heç vaxt unudulmayacaq, onların əməlləri gələcək nəsillərə nümunə göstəriləcək.

Qazilərimiz Nurlan Quliyev və Pənah Mahmudovun döyüş yolu haqda slayd təqdim edilib. Hər iki qazimiz öz çıxışında gənclərə vətənə məhəbbət, düşmənə nifrət hislərini ifadə edib, qalib ölkənin ordusunda döyüşməkdən fəxr duyduqlarını dilə gətiriblər. Ailə vəziyyəti subay olan qazilərimiz "Kaş şəhid olan ailəli hərbçilərimizin yerinə biz şəhid olardıq" ifadəsi onların həm vətənpərvər, həm də dostluqda, yoldaşlıqda sədaqətli olduqlarının ən təsirli ifadəsi kimi tədbirin ən təsirli məqamları kimi yadda qalıb.

Hər iki ali təhsil ocağının tələbələri vətən, Qarabağ, zəfər mövzularına və ən uca məqam olan şəhidlik zirvəsi haqda ədəbi-bədii kompozisiya nümayiş etdirib, şeirləri bədii qiraət ediblər.

Qazilər gənclərin suallarını cavablandırdıqdan sonra Naxçıvan Dövlət Universiteti "Rəngkarlıq" ixtisası üzrə II kurs tələbəsi Jalə Cəfərli, Naxçıvan Müəllimlər İnstitutu "Təsviri incəsənət müəllimliyi" ixtisası üzrə I kurs tələbəsi Təranə Ziyadova çəkdikləri portretləri vətən müharibəsi iştirakçılarına təqdim ediblər.

# ELMİ KİTABXANANIN YARANMASI GÜNÜ QEYD EDİLİB



Naxçıvan Dövlət Universiteti Elmi Kitabxanasınının yaranması günü münasibətilə "Kitablardan pıçıltılar" adlı tədbir keçirilib. Ali təhsil ocağının İncəsənət fakültəsində təşkil edilən tədbirdə giriş sözüylə çıxış edən universitetin rektoru Elbrus İsayev 1968-ci aprel ayının 23-də fəaliyyətə başlayan kitabxananın keçdiyi tarixi inkişaf yoluna nəzər salıb. Rektor 2004-cü ildə universitet kitabxanası üçün Avropa standartlarına uyğun yeni beşmərtəbəli binanın inşa edilməsini muxtar respublikada təhsilə, elmə göstərilən yüksək diqqət və qayğının bəhrəsi kimi dəyərləndirib. Bildirilib ki, muxtar respublika rəhbərinin qayğısı sayəsində kitabxananın fondu zənginləşdirilib, maddi-texniki bazası ən müasir tələbələr səviyyəsində qurulub. Qeyd edilib ki, kitabxanada elmi-kütləvi tədbirlər, kitab sərgiləri, qısamüddətli və daimi sərgilər, həmçinin kitab təqdimatları və müzakirələri təşkil olunur. Müntəzəm oxucu kontingentinin cəlb olunması istiqamətində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri cənab Vasif Talıbovun 2017-ci il 28 avqust tarixli sərəncamı ilə "Oxunması zəruri olan kitablar"ın mütəmadi olaraq müzakirə olunduğu dəyirmi masaların əhəmiyyəti vurğulanıb. Müəllim və tələbələrin kitabxana ilə əlaqələrinin daha da gücləndirilməsi istiqamətində konkret tapşırıqlar verən rektor kitabxananın kitab fondunun zənginləşdirilməsi istiqamətində öz tövsiyyələrini diqqətə çatdırıb. Elbrus İsayev kitabxana əməkdaşlarını əlamətdar gün münasibətilə təbrik edib, məhsuldar və yaradıcı fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra Elmi Kitabxananın fəaliyyətini özündə əks etdirən videoçarx nümayiş olunub.

Tədbir Elmi Kitabxana və Tələbə Teatr Studiyasının birgə hazırladığı "Oxunması zəruri olan kitablar" silsiləsinə dair kitablardan etdiyi bədii qiraət nümunələri, əsərlərdən göstərilən ədəbi-bədii kompozisiya ilə daha yaddaqalan olub.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# "ƏN YAXŞI FAKÜLTƏ GƏNCLƏR TƏŞKİLATI" MÜSABİQƏSİ

Ali təhsil ocağının tələbələri Gənclər mərkəzində "Ən yaxşı fakültə gənclər təşkilatı" müsabiqəsi çərçivəsində fakültələrarası "Xəmsə" milli intellektual oyununda iştirak ediblər. Oyunun mahiyyəti haqqında məlumat verən Tələbə Gənclər təşkilatının sədri, "Hüquq fənləri" kafedrasının müəllimi Əziz Qasımov bu kimi tədbir və oyunların gənclərin intellektual düşüncələrinin artırılmasında mühüm rol oynadığını diqqətə çatdırıb. Vurğulanıb ki, belə müsabiqələrin keçirilməsi gənclərin elmi biliklərinin artırılması və onların asudə vaxtlarının səmərəli keçirilməsi baxımından əhəmiyyətlidir.



Yarışın sonunda "İqtisadiyyat və idarəetmə" fakültəsi qalib olub. "Beynəlxalq münasibətlər və hüquq" fakültəsi II, "Tarix-filologiya" fakültələri isə III yerə çıxıb.

Qeyd edək ki, intellektual oyundan əlavə "Ən yaxşı fakültə gənclər təşkilatı" müsabiqəsi çərçivəsində "Fakültənin tanıtımı", "Universitetimiz tələbənin gözündə" fotomüsabiqəsi və "Bizim fakültəmiz" esse yazı müsabiqəsi keçiriləcək. Sonda yarışın nəticələrinə görə ən yaxşı fakültə gənclər təşkilatı müəyyən ediləcək.

**Etibar Dərbəndəliyev**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***



# "GƏNCLƏRİN DİNİ SAVADLILIĞININ ARTIRILMASI MÖVZUSUNDA" SEMİNAR

Ali təhsil ocağında "Gənclərin dini savadlılığının artırılması mövzusunda" tədbir keçirilib. Tədbiri giriş sözü ilə universitetin rektoru Elbrus İsayev açaraq qeyd edib ki, gənclərin dini düşüncələrinin formalaşması və inkişafı baxımından bu kimi tədbirlərin xüsusi əhəmiyyəti vardır. Vurğulanıb ki, muxtar respublikada tarixi-mədəni irsin, eləcə də İslam dəyərlərinin layiqincə qorunub yaşadılmasına xüsusi diqqət yetirilir. Bildirilib ki, dinin qoyduğu tələbləri yerinə yetirmək, din qanunlarından istifadə etməklə davranış və xarakterini formalaşdırmaq, ruhumuzun saflığı naminə dinin qarşımıza qoyduğu tələblərə əməl etmək hər kəsin etməli olduğu vəzifələrdir.

Dini Qurumlarla İş Üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev "Din-dövlət münasibətləri, fərqli inanclar və baxışlar" adlı çıxışında qeyd edib ki, din-siyasət münasibətləri dialektik və qarşılıqlıdır: hər biri digərini şəkillləndirməklə eyni zamanda digərindən təsirlənməkdədir. Dünyada mövcud olan dinlərdən ən sonuncusu və mükəmməlinin İslam dini olduğunu diqqətə çəkən agentliyin direktoru bildirib ki, İslam dini VII əsrin əvvəlində Ərəbistan yarımadasının mərkəzində - Məkkə və Mədinə şəhərlərində təşəkkül tapıb və tezliklə dünyanın böyük hissəsinə yayılıb. Vurğulanıb ki, gənclərin əxlaqi və mənəvi keyfiyyətlərinin artırılması üçün dinin düzgün təbliği önəmlidir. Milyard yarımdan çox insanın etiqad etdiyi islam dininin Müqəddəs Kitabı "Qurani- Kərim" ərəb ədəbi dilinin ən möhtəşəm abidəsi və səmavi kitabların ən sonuncusu və mükəmməlidir. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında din elmi şəkildə öyrənilir və təbliğ olunur. Dini dəyərlərin olduğu kimi təbliğinə xidmət edən və onun mahiyyətini açan kitablar nəşr edilir. Vüqar Babayev tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, bu gün muxtar respublikada kifayət qədər məscid, dini abidələr vardır. Sovet hakimiyyəti zamanı Naxçıvan Muxtar Respublikasında 78 məscid fəaliyyət göstərirdisə, muxtariyyətdən sonra bu say 213-ə qalxıb. Bundan əlavə 25-dən çox pir və ibadətgahlar da dinə etiqad edənlərin ziyarət yerinə çevrilib. Vüqar Babayev gəncləri dini yanlış şəkildə təbliğ edən insanlardan uzaq olmağa və dini elmi şəkildə dərk edib öyrənməyə çağırıb. Tələbələrin suallarını cavablandıran Agentliyin direktoru dinə dair müxtəlif ədəbiyyatları universitetin Elmi Kitabxanasına hədiyyə edib.

Oxunması zəruri olan ədəbiyyatlardan - "Mister Hemferin xatirələri" əsərinin mövzusu, mahiyyəti və gənclərin dini savadlılığının artırılmasında rolundan danışan universitetin Ümumi işlər üzrə prorektoru Xəyal Camalov əsərin gənc nəsil üçün faydalı cəhətlərinə toxunub və hər kəsi bu əsəri oxuyub ondan nəticə çıxarmağa səsləyib.

**Etibar Dərbəndəliyev**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# TİBB FAKÜLTƏSİNİN TƏLƏBƏLƏRİ İSTEHSALAT TƏCRÜBƏSİNDƏ OLUBLAR



Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin Əczaçılıq, Baytarlıq üzrə IV, Stomatologiya ixtisası üzrə V kurs tələbələrinin istehsalat təcrübələrinin başlanğıc konfransı keçirilib. Tədbiri giriş sözü ilə açan universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov qeyd edib ki, Tibb, İctimai səhiyyə, Müalicə işi, Tibbi profilaktika, Əczaçılıq, Stomatologiya ixtisasları üzrə kadr hazırlığı aparılan fakültədə artıq 2021- 2022-ci tədris ilindən etibarən ilk dəfə olaraq Hərbi tibb ixtisasına qəbul həyata keçiriləcək. Tibb fakültəsində tələbələrin ixtisaslı kadr kimi yetişməsi üçün yaradılan lazımi şəraitin mövcudluğundan danışan prorektor tələbələrin muxtar respublikanın səhiyyə müəssisələrində keçdikləri təcrübənin onların gələcək peşə vərdişlərində faydalı olacağını diqqətə çatdırıb.

"Bir həkimin yetişməsi üçün əsas açar onun praktik bilgisidir"- deyən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirinin müavini Samrat Gəncəyeva gələcəyin həkim kadrlarının yetişməsində universitetinin rolunu yüksək qiymətləndirib, muxtar respublikada səhiyyəyə göstərilən yüksək dövlət qayğısından danışıb.

Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidmətinin rəis müavini Məhəmməd Hüseynov qida təhlükəsizliyinin təmin olunmasında baytarlıq təbabətinin mühüm roluna diqqət çəkərək Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 17 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı"nın xüsusi əhəmiyyətə malik olduğunu bildirib. Xidmətin rəis müavini qeyd edib ki, Dövlət Baytarlıq Xidməti himayəsində olan tələbələrlə keçirilən görüşlər onların gələcək peşə təcrübəsində mühüm əhəmiyyətə malikdir.

Sonra istehsalat təcrübəsi dövründə görüləcək işlər haqda aidiyyatı ixtisaslar üzrə fakültə dekanlarının çıxışları dinlənilib.

Sonda tələbələrin sualları cavablandırılıb, mövzu ilə bağlı təkliflər dəyərləndirilib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# “MÜASİR MƏRHƏLƏDƏ MAGİSTR HAZIRLIĞI: PRİORİTETLƏR, HƏDƏFLƏR” MÖVZUSUNDA SEMİNAR

Ali təhsil ocağının Magistratura mərkəzində “Müasir mərhələdə magistr hazırlığı: Prioritetlər, hədəflər” mövzusunda seminar keçirilib. Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev qeyd edib ki, universitetdə magistratura təhsilinə verilən xüsusi önəmin nəticəsidir ki, son illərdə bunun üçün münbit şərait və möhkəm maddi texniki baza formalaşdırılıb. Yaradılan şəraitin nəticəsində magistraturada 45 ixtisas və 76 ixtisaslaşma üzrə qəbul aparılır. Diqqətə çatdırılıb ki, 2020-2021-ci ilin qəbulunda magistraturaya 248 plan yerinə qarşı 208 nəfər qəbul olunub ki, bu da son 10 ilin ən yüksək nəticəsi hesab olunur. Dissertasiyalarda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə geniş yer verilməsinin önəmini diqqətə çəkən rektor seçilən mövzuların doğma yurdun tarixini, mədəniyyətini, incəsənətini əks etdirməsinin əsas hədəf meyarlarından biri olduğunu deyib.

Magistratura mərkəzinin direktoru Etibar Məmmədov “Magistr hazırlığı və günün tələbləri” mövzusunda çıxış edərək vurğulayıb ki, magistratura – ali təhsilin ikinci səviyyəsinin tələblərinə uyğun olaraq, yüksək ixtisaslı, sərbəst yaradıcılıq fəaliyyəti göstərə biləcək mütəxəssislərin hazırlığını təmin edən təhsil prosesidir. Bildirilib ki, ali təhsil ocağında şöbə kimi fəaliyyətə başlayan magistraturaya ilk qəbul 1997-ci ildə aparılıb və 7 ixtisaslaşma üzrə 27 nəfər magistraturaya qəbul olunub. Vurğulanıb ki, iki ildir magistraturaya qəbul bir mərhələdə həyata keçirilir, bununla da bura qəbul olunan tələbələrin daha asanlıqla təhsilin növbəti pilləsinə daxil olmaq imkanları təmin edilir. Mərkəzin direktoru onu da qeyd edib ki, bu il fevral ayında keçirilən qəbulun nəticələrinə görə təkcə bakalavr mərhələsini bu il bitirəcək məzunların 154 nəfəri müsabiqə şərtlərini ödəyib. İyun ayında təkrar qəbulun da aparılacağını, eləcə də əvvəlki illərdə məzun olmuş bakalavrların qəbulda iştirakını da nəzərə alsaq, bu il universitet üzrə magistratura səviyyəsinə qəbulda yüksək nəticə olacağını proqnozlaşdırmaq olar.



“Azərbaycan dili və ədəbiyyatı” kafedrasının dosenti Arif Ağalarov “Magistr təhsilinə marağın artırılması yolları” mövzusunda çıxışında diqqətə çatdırıb ki, magistratura təhsili ixtisaslaşmalar üzrə hər hansı ixtisas sahəsinin elmi-tədqiqat və ya peşəkar məqsədlər üçün daha dərindən öyrənilməsini nəzərdə tutur və məzunlara peşəkar fəaliyyətlə, elmi tədqiqat və elmi-pedaqoji işlərlə məşğul olmaq hüququ verir.

Sonda “Beynəlxalq münasibətlər və diplomatiya ixtisaslaşması üzrə II kurs magistrant Aysu Cavadlının “Magistratura təhsilində qazandığımız təcrübələr və perspektivlər” “İngilis dili” ixtisaslaşması üzrə I kurs magistrant Lalə Rzayevanın isə “Magistratura təhsilinin gələcək karyeramıza təsiri” mövzuları üzrə çıxışları dinlənilib.




# TƏLƏBƏLƏR ONLAYN KURSDA İŞTİRAK EDƏRƏK SERTİFİKAT ƏLDƏ EDİBLƏR

Naxçıvan Dövlət Universiteti “İnformatika” kafedrasının müəllimi Səriyyə Qasımovanın rəhbərliyi ilə “Riyaziyyat-İnformatika” müəllimliyi ixtisasının IV kurs tələbələri “Alison” onlayn kurs platformasında iştirak ediblər. “Python proqramlaşdırma dilinə giriş” adlı kursda iştirak edən tələbələr keçirilən onlayn imtahanda 80%-dən yuxarı nəticə göstərərək rəqəmsal sertifikat əldə ediblər.

Qeyd edək ki, müxtəlif sahələr üzrə kurslar təşkil edən platforma ödənişsiz olaraq fəaliyyət göstərir. Kursu uğurla keçən hər kəs sonda rəqəmsal sertifikat əldə edir.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# UNİVERSİTETİN “QARABAĞ” KOMANDASI “TARİXƏ EKSKURSİYA” LAYİHƏSİNİN QALİBİ OLUB

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və “Gənclərin İntellektual İnkişaf Mərkəzi” İctimai Birliyinin birgə təşkilatçılığı ilə Naxçıvan Tibb Kollecində gənclərarası bilik yarışı təşkil edilib. “Tarixə ekskursiya” layihəsi çərçivəsində “Nə? Harada? Nə zaman?” intellektual yarışda gənclər öz bilik və bacarıqlarını sınayıblar.



Qeyd edək ki, layihənin məqsədi Azərbaycanın digər bölgələrindən olan və muxtar respublikada təhsil alan tələbələrin Naxçıvanda yerləşən muzeylərə ekskursiyasını təşkil etmək və gəzinti bitdikdən sonra topladıqları məlumatların yoxlanılması məqsədilə intellektual oyun keçirməkdən ibarət olub. Heydər Əliyev Muzeyi, Xalça, Cəmşid Naxçıvanski, Milli Dəyərlər və Ədəbiyyat muzeylərini ziyarət edən gənclər muzeylərin yaranma tarixi, aid olduğu şəxsiyyətlərin həyat və fəaliyyəti, nümayiş olunan eksponatları haqqında ətraflı məlumat alıblar.

Oyun üçün tərtib olunan suallar ekskursiyalarda verilən məlumatlarla bağlı olub. İntellekt yarışında ali və orta ixtisas təhsili müəssisələrini təmsil edən 5 komanda mübarizə aparıb. Hər komandanın heyətində 5 oyunçu olub. İki turdan ibarət yarışda mövzu ilə bağlı 24 sual səsləndirilib. Oyunda topladıqları xal və ümumi reytinq göstəricisi bərabər olduğundan üstünlüyə malik iki komanda üçün daha bir neçə sual əlavə edilib. Nəticədə, Naxçıvan Dövlət Universitetinin “Qarabağ” komandası yarışın qalibi olub. “Naxçıvan” Universitetinin “İstiqlal” və Naxçıvan Texniki Kollecinin “Zirvə” komandaları isə II, III yerləri bölüşüblər. Sonda ilk üçlükdə qərarlaşan komandalara və üzvlərinə diplom, fəxri fərman və hədiyyələr təqdim olunub.




# ATALAR SÖZLƏRİNİN İNGİLİS DİLİNDƏ QARŞILIQLARI MÜZAKİRƏ EDİLİB

Naxçıvan Dövlət Universiteti “İngilis dili və tərcümə” kafedrasında “Oxunması zəruri olan kitablar” silsiləsindən Azərbaycan xalq ədəbiyyatı nümunələrindən olan Atalar sözləri müzakirə edilib. Tədbiri giriş sözü ilə açan universitetin “İngilis dili və tərcümə” kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent İlhamə Məmmədova atalar sözlərinin ictimai həyatımızdakı rolundan bəhs edib. Ana dilimizdə olan atalar sözlərinin ingilis dili ilə müqayisə və düzgün tərcüməsinin önəmindən söz açıb.

Kafedranın filologiya üzrə fəlsəfə doktoru, dosent Elnaz Əliyeva Tədris prosesində atalar sözü və məsələlərdən istifadə yolları haqqında məlumat verib. Qeyd edilib ki, Azərbaycan şifahi xalq ədəbiyyatının ən qədim və zəngin növlərindən biri də atalar sözləri və məsəllərdir. Xalq müdrikliyinin, xalq zəkasının, xalqın həyat təcrübəsinin bədii ifadəsi olan atalar sözlərinin tərcüməsinə daim diqqət yetirilməli olduğu vurğulanıb.

“Atalar sözlərində ziddiyyətlər” mövzusunda kafedranın müəllimi Tehranə Xudaverdiyeva gündəlik həyatda istifadə edilən, amma ziddiyyətli olan atalar sözlərinin yaranma şəraiti haqda çıxış edib. İngilis dilinin tədrisində atalar sözlərindən istifadə və tərcümə prosesində qarşıya çıxan problemlər müzakirə edilib.

Sonra “Mədəniyyətimizin bir parçası olan Azərbaycan atalar sözlərinin ingilis dilində qarşılıqlarını bilirikmi” adlı bilik yarışması keçirilib. Müsabiqədə tələbələrin iştirakı ilə atalar sözlərinin qarşılıqları axtarılıb.

“Verilmiş kateqoriyalar üzrə ən azı 5 atalar sözü “müsabiqəsi keçirilib. Vətən, elm, təhsil və müxtəlif kateqoriyalar üzrə keçirilən müsabiqədə tələbələr fəal iştirak edib. İngilis dili və tərcümə ixtisası üzrə IV kurs tələbəsi Ümid Əhmədov müsabiqədə daha fəal iştirakı ilə seçildiyi üçün kitabla təltif olunub.

**Yunis Allahverdiyev**
***Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi***

# ADA UNİVERSİTETİNİN MÜƏLLİMİ AYGÜN MƏMMƏDOVA İNGİLİS DİLİNDƏ SEMİNAR KEÇİB

Ali təhsil ocağında ADA Universitetinin “İnsan və peşəkar inkişaf” (Human and professional development)” bölməsinin müəllimi Aygün Məmmədovanın seminarı təşkil edilib. İngilis dili və tərcümə kafedrasının müəllim və tələbələri üçün təşkil olunan seminarda Aygün Məmmədova fəaliyyət göstərdiyi ali təhsil ocağı haqda məlumat verərək qeyd edib ki, 2006-cı ilin martında fəaliyyətə başlayan və Azərbaycan Diplomatik Akademiyası adı ilə Azərbaycan Xarici İşlər Nazirliyinin nəzdində qurulan ali təhsil ocağı Azərbaycan Respublikası Prezidentinin 13 yanvar 2014-cü il tarixli Sərəncamı ilə ADA Universiteti adlandırılıb. Vurğulanıb ki, əsas məqsədi diplomatiya, ictimai münasibətlər, biznes, informasiya texnologiyaları və sistem mühəndisliyi üzrə qlobal liderlər hazırlamaq olan universitet 2009-cu ildən magistr pilləsi, 2011-ci ildən bakalavr pilləsində ali təhsil verir. Sonra müəllim və tələbələr üçün “Effektiv ünsiyyətin təşkili qaydaları” mövzusunda seminar keçirilib. İngilis dilində təşkil olunmuş seminar-diskusiyada natiq mövzuyla bağlı ətraflı məlumat verib. Verbal və qeyri verbal ünsiyyət növləri haqda danışan müəllim qeyd edib ki, verbal ünsiyyət nitq vasitəsilə, qeyri-qerbal ünsiyyət isə emosiyalar vasitəsilə baş tutur. Danışıqlarda ünsiyyətin təsirli və səmərəli olması üçün bir neçə əsas məqama diqqət yetirilib. Vurğulanıb ki, ancaq qarşılıqlı anlaşma şəklində baş tutan ünsiyyətdən gözlənilən nəticəni əldə etmək olar. Effektiv ünsiyyət qurmağın qaydalarından danışan Aygün Məmmədova yaxşı bir natiq olmaq üçün yaxşı bir dinləyici də olmağın da vacibliyini diqqətə çatdırıb. Həmçinin, müəllim və tələbələrin mövzu ilə əlaqədar sualları da cavablandırılıb.



Qeyd edək ki, ADA universitetinin əməkdaşı olan Aygün Məmmədova Naxçıvan şəhər 11 №-li orta məktəbin məzunu olub.

# “DİPLOMAT” KOMANDASI “XƏMSƏ” MİLLİ İNTELLEKTUAL OYUNU ÜZRƏ ÖLKƏ ÇEMPİONATINDA FİNALA YÜKSƏLİB

Bakı şəhərində dahi şairimiz “Nizami Gəncəvi İli”nə həsr edilmiş gənclər arası “Xəmsə” Milli İntellektual Oyunu üzrə XIII Azərbaycan çempionatı keçirilib. Aprelin 5-dən 8-ə qədər davam edən növbəti çempionat Gənclərin İntellektual İnkişaf Mərkəzi tərəfindən təşkil edilib.

Yarışda Naxçıvan Muxtar Respublikasını layiqincə təmsil edən “Diplomat” komandası qrup oyunları və yarımfinal mərhələsini uğurla tamamlayaraq finala yüksəlib. Mükafatçılar sırasına düşməyi bacaran komandamız həlledici mərhələdə də uğurla çıxış edərək aktivinə 4900 xal yazdırıb.

Çempionatı ikinci sırada tamamlayan “Diplomat” komandası Abşeronun “Golden” komandasından geri qalıb. “Diamond are forever” isə yarışın üçüncüsü olub.

Qeyd edək ki, komandamızı Naxçıvan Dövlət Universitetinin tələbələri Qulu Əlisoy, Əli Əliyev, Fərid Hacıyev, Zamin İbrahimov və Naxçıvan Universiteti “İdarəetmə” fakültəsinin dekan müavini Tural Məmmədzadə təmsil ediblər.




Məlumat üçün onu da bildirək ki, “Diplomat” komandası intellektual yarışda hər zaman muxtar respublikanı uğurla təmsil edib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## “NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFI REGİONAL DÖVLƏT PROQRAMLARININ İCRASI MÜSTƏVİSİNDƏ (2004-2018-Cİ İLLƏR)” DƏRS VƏSAİTİNİN TƏQDİMATI

Naxçıvan Dövlət Universiteti Elmi Kitabxanasında “Dünya iqtisadiyyatı və menecment” kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru Cavadxan Qasımovun “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı regional Dövlət proqramlarının icrası müstəvisində (2004-2018-ci illər)” adlı dərs vəsaitinin təqdimat mərasimi



keçirilib. Tədbiri giriş sözü ilə açan universitetin Elm və innovasiyalar bölməsinin müdiri Rza Məmmədov ölkə başçısının məqsədyönlü və düşünülmüş siyasəti nəticəsində regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının təsdiqi və icrası istiqamətində muxtar respublikanın yüksək templə inkişaf strategiyasını dərs vəsaitində təqdim edən müəllifin elmi və araşdırmaçılıq fəaliyyətini yüksək qiymətləndirib və ona yaradıcılıq uğurları arzulayıb.

“Dünya iqtisadiyyatı və menecment kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru dosent Ceyhun Mahmudov qeyd edib ki, dərs vəsaitində 2004-cü ildən uğurla icra olunan regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları dövründə muxtar respublikada əldə olunan çoxşaxəli perspektivlərdən söhbət açılıb, geniş tədqiqat obyektinə cəlb olunub. Əsərin tamamlanmasında statistik göstəricilər əsasında təhlillər aparılıb, elmi cəhətdən əsaslandırılmaqla, müəllif tərəfindən şəkillər, sxemlər və cədvəllər tərtib olunub. Giriş və 9 fəsildən ibarət dərs vəsaitində muxtar respublikanın sosial-iqtisadi inkişafı və milli iqtisadi quruculuq prosesləri və müxtəlif sahələr üzrə inkişaf perspektivləri araşdırılıb.

İqtisadiyyat və İdarəetmə fakültəsinin dekanı, iqtisad üzrə fəlsəfə doktoru, dosent Əşrəf Ələkbərov bildirib ki, modern milli iqtisadiyyat üçün aktual olan anlayışların izahı təqdim olunan dərs vəsaiti tələbələr, magistrant, dissertant, doktorantlar ibarət gənc tədqiqatçılar və digər maraqlananlar tərəfindən istifadə oluna bilər.

Mühasibat uçotu və maliyyə kafedrasının müdiri, iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov vurğulayıb ki, hazırlanan dərs vəsaitində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı, ona şərait yaradan, mahiyyət verən, onu şərtləndirən amillərdən söz açılıb. Bu sahədə dövlətin uğurlu iqtisadi siyasətindən, hüquqi-iqtisadi tənzimləmə vasitələrindən və digər stimullaşdırıcı mexanizmlərin çevik təsirindən məlumat verilib.

“Menecment” ixtisası üzrə IV kurs tələbəsi Sinan Bağırov və digər tələbələr dərs vəsaiti ilə bağlı fikirlərini bölüşüblər.

Sonda müəllif universitetdə yaradıcılıqla məşğul olan hər bir ziyalı üçün mövcud olan şərait üçün öz minnətdarlığını ifadə edib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## ELMİ KİTABXANADA NİKOLO MAKİAVELLİNİN “HÖKMDAR” ƏSƏRİ MÜZAKİRƏ EDİLİB



Naxçıvan Dövlət Universiteti Elmi Kitabxanasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil edilən italyan yazıçısı Nikolo Makiavellinin “Hökmdar” əsərinin müzakirəsi keçirilib. Tədbiri giriş sözü ilə açan YAP Universitet Şəhərciyi Ərazi ilk təşkilatının sədri, “Beynəlxalq münasibətlər” kafedrasının baş müəllimi Arzu Abdullayev “Hökmdar” əsərinin müəllifini şahidi olduğu tarixi hadisələrin geniş tədqiqatçısı kimi qiymətləndirib. Bildirilib ki, XV əsrdə qələmə alınan, 26 fəsildən ibarət olan əsər bütün dövrlərin və bütün xalqların siyasətçiləri üçün əsl dərs vəsaiti olub. Dərin ideya və fikirlərə görə dünya mədəniyyət xəzinəsinə daxil edilən əsərdə müəllif səxavət və qənaət, qəddarlıq və mərhəmət, məhəbbət və nifrət, habelə digər bu kimi anlayışları diqqətlə təhlil edib.

“Azərbaycan tarixi” kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Elçin Zamanov qeyd edib ki, müvafiq sərəncam üzrə müzakirəsi keçirilən kitablar gənc nəslin dünyagörüşünün zənginləşdirilməsi, vətənpərvərlik hisslərinin gücləndirilməsi, intellektual səviyyələrinin yüksəldilməsi və asudə vaxtlarının səmərəli təşkili baxımından mühüm əhəmiyyətə malikdir. Vurğulanıb ki, “Hökmdar” əsəri İntibah dövrünün florensiyalı dövlət xadimi Nikolo Makiavellinin ən mühüm və ən mübahisəli əsəridir.

Tədbir iştirakçıların əsərlə bağlı müzakirəsi ilə davam edib.

## “ƏN YAXŞI ŞEİR QİRAƏTÇİSİ” VƏ “ƏN YAXŞI ŞEİR MÜƏLLİFİ” MÜSABİQƏSİ

Naxçıvan Dövlət Universiteti Elmi Kitabxanasında tələbələr arasında vətənpərvərlik mövzusunda “Ən yaxşı şeir qiraətçisi” və “Ən yaxşı şeir müəllifi” nominasiyaları üzrə müsabiqə keçirilib. Tədbiri giriş sözü ilə açan universitetin “Elm və innovasiyalar” bölməsinin müdiri Rza Məmmədov bu kimi müsabiqələrin keçirilməsinin istedadlı gənclərin üzə çıxarılmasında mühüm rola malik olduğunu qeyd edib. Belə tədbirlərin keçirilməsinin ənənə halını almasının vacibliyindən də bəhs edilib.

Elmi Kitabxananın direktoru Fariz Əhmədov, universitetin baş hüquqşünası Cəbrayıl Həsənzadə, “Azərbaycan dili və ədəbiyyatı” kafedrasının dosenti Xanəli Kərimli, həmin kafedranın filologiya üzrə fəlsəfə doktoru Seyfəddin Eyvazov, “Teatr və mədəniyyətşünaslıq” kafedrasının müdiri, dosent Gülxarə Əhmədovanın münsifliyi ilə keçirilən müsabiqədə müxtəlif ixtisaslardan 17 tələbə iştirak edib. Hər nominasiya üzrə üç yer müəyyənləşdirilib.



“Ən yaxşı şeir qiraətçisi” nominasiyası üzrə müsabiqədə “Aktyor sənəti” ixtisası üzrə I kurs tələbəsi Xəlil Hüseynov qalib olub, “Musiqi müəllimliyi” ixtisası üzrə I kurs tələbəsi Aişə Əliyeva II, “Coğrafiya müəllimliyi” ixtisası üzrə IV kurs tələbəsi Aynur İbrahimova isə III yerə layiq görülüb.

“Ən yaxşı şeir müəllifi” nominasiyası üzrə müsabiqədə isə əcnəbi tələbələrin “Hazırlıq” kursunun “Tibb” ixtisası üzrə tələbəsi Tan Osman Memet I yeri qazanıb. “Azərbaycan dili və ədəbiyyat müəllimliyi” ixtisası üzrə II kurs tələbəsi Zibeydə Əlizadə II, “Riyaziyyat və informatika müəllimliyi” ixtisasının II kurs tələbəsi Roza Hüseynova isə III yerə çıxıblar.

**Çinarə İsmayılova**
***Elmi Kitabxananın baş kitabxanaçısı***



## “TƏLİM VƏ TƏDRİSDƏ SÜNİ İNTELLEKT” MÖVZUSU MÜZAKİRƏ EDİLİB

Ali təhsil ocağının Fizika-riyaziyyat fakültəsində “Təlim və tədrisdə süni intellekt” mövzusuna həsr olunmuş elmi-nəzəri seminar keçirilib. Seminarı giriş sözüylə açan universitetin Elm və innovasiyalar şöbəsinin müdiri, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Məftun İsmayılov qeyd edib ki, süni intellekt intellektual maşın yaratmağı, xüsusən yalnız insanlara məxsul olduğu düşünülən yaradıcı fəaliyyətlə məşğul ola bilən intellektual proqram yaratmağı özünə məqsəd götürmüş elm və texnologiyadır. Bu elm həmçinin insan intellektinin araşdırılması kimi başa düşülür.

İnformatika kafedrasının müəllimi Səriyyə Qasımova “Təlim və tədrisdə süni intellekt” adlı çıxışında bildirib ki, süni intellekt bir elm kimi praktik və nəzəri hissələrdən ibarətdir. Praktik cəhətdən “Süni intellekt” problemi bir tərəfdən informatikaya və hesablama riyaziyyatına, digər tərəfdən isə neyrofiziologiyaya və psixologiyaya aid edilir. Vurğulanıb ki, robotexnika sahəsi və süni intellekt elmi bir-biri ilə sıx əlaqədardır. Robotexnikada süni intellektdən istifadə edib intellektual robotların yaradılması süni intellekt elminin yeni bir sahəsini yaradır. Həmçinin diqqətə çatdırılıb ki, ən məşhur süni intellektlər- Pepper-Yapon şirkəti olan Aldebaran Robotics və Softbank Mobile tərəfindən 2015-ci ildən satışa çıxarılıb. Bu humanoid robotun digər robotlardan fərqi odur ki, onun emosiyaları var. Pepper ətraf aləmi 3D kameralar vasitəsilə təhlil edə bilir, boyu 1.2 metr, kilosu isə 28 kilodur. O, insanların mimikaları ilə onların əhval-ruhiyyəsini başa düşə bilir. Həmçinin o, öz-özünü öyrədə bilən robotdur və lazım olan cavabları axtarmaq üçün internetə çıxışı var. Pepper hətta onu itələdikdə belə öz müvazinətini saxlaya bilir, insan toxunuşlarını hiss etmək üçün onda sensor qurğuları vardır. Elmi-nəzəri seminarda süni intellektin təsir etdiyi bir çox sahələrə də aydınlıq gətirilib.

Seminar müəllim və tələbələrin sualları və müzakirələr şəklində davam edib.

**Sevda Qənbərova**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

## “TARİXİ ŞƏXSİYYƏTLƏR VƏ BƏDİİ OBRAZLARIN KOMPONENTİ” ADLI DƏYİRMİ MASA



Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında “Tarixi şəxsiyyətlər və bədii obrazların komponenti” adlı dəyirmi masa keçirilib. Tədbirdə giriş sözü ilə çıxış edən “Beynəlxalq münasibətlər” kafedrasının baş müəllimi, Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk partiya təşkilatının sədri Arzu Abdullayev diqqətə çatdırıb ki, son zamanlar Elmi Kitabxanada mahiyyətcə dərin və aktual olan, tələbələr tərəfindən maraqla qarşılanan mövzularda tədbirlərə geniş yer verilir.

Arzu Abdullayev tarixin müəyyən dövrlərində müxtəlif tarixi proseslərə təsir etmək imkanına malik olan bir çox dahi şəxsiyyətlərin fəaliyyətindən söz açaraq, XX əsrin görkəmli dünya siyasətçiləri arasında əvəzedilməz yeri olan Heydər Əliyevin tarixi obrazı və fəaliyyəti haqqında müfəssəl məlumatları diqqətə çatdırıb.

Tədbirdə məruzəçi qismində çıxış edən “Azərbaycan dili və ədəbiyyatı” kafedrasının müəllimi Əli Həşimli vurğulayıb ki, dahi şəxsiyyətlərin Azərbaycan ədəbiyyatına gətirilməsinin tarixi o qədər də qədim deyil. N.Nərimanov, M.S.Ordubadi, S.Vurğun, Y.V.Çəmənzəminli, Fərman Kərimzadə,Ə.Cəfərzadə, S.Rüstəmxanlı, Aqil Abbas kimi ustadların yaradıcılığında xalqımızın tarixində mənfi, ya da müsbət rolu olan şəxsiyyətlərin obrazları canlandırılıb, povestlərə, cild-cild romanlara çevrilib.

Elmi kitabxananın direktoru Fariz Əhmədov çıxışında bildirib ki, ulu öndər Heydər Əliyevin obrazı Azərbaycan xalqının qəlbində və təxəyyülündə əbədi iz buraxmışdır. O cümlədən, şairlər, yazıçılar, publisistlər, dramaturqlar, ədiblər xalqın ümummilli liderinin, xilaskarının tarixi və bədii obrazını yaratmağa çalışmışlar.

Dəyirmi masa ətrafında yer alan tələbələrin diqqətinə çatdırılıb ki, Heydər Əliyev obrazı bir sıra memuar nəsri nümunələrində - Anarın "Unudulmaz görüşlər", Elçinin "Tarixlə üzüzə dayanmış adam", Mövlud Süleymanlının "Qırx ilin yeddi görüşü", İsa Hüseynovun "Həyatımdan səhifələr", Vidadi Babanlının "Unutmadığım günlər", Hafiz Paşayevin "Bir səfirin manifesti", Səyyad Aranın "Heydər Əliyevin Amerika fəthi" əsərlərində bu və ya digər profildən, ulu öndərlə görüşlərdən doğan canlı təəssürat əsasında əksini tapmışdır.

Sonda tələbələri maraqlandıran suallar cavlandırılaraq tədbirə yekun vurulub.

**Fariz Əhmədov**
***Elmi kitabxananın direktoru***

# UNİVERSİTETİN ƏCNƏBİ TƏLƏBƏLƏRİ NİZAMİ GƏNCƏVİNİN 880 İLLİK YUBİLEYİNİ QEYD EDİBLƏR

Ali təhsil ocağının İncəsənət fakültəsində əcnəbi tələbələrin təşkilatçılığı ilə "Nizami hər sözü demiş birinci" adlı ədəbi - bədii tədbir keçirilib. Tədbirdə "Nizami Gəncəvi – 880" adlı sənədli film nümayiş olunub. Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev xarici tələbələrin bu kimi tədbirlərdə iştirakını yüksək qiymətləndirib, belə tədbirlərin davamlı olmasını arzulayıb. Bildirilib ki, ali təhsil ocağında təhsil alan hər bir əcnəbi tələbə təhsillə bərabər, ictimai işlərdə fəallıq nümayiş etdirməli və mədəni-kütləvi tədbirlərdə iştirak etməlidir.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov şair haqda məlumat verərək qeyd edib ki, Nizami Gəncəvi dahi şair olmaqla bərabər dövrünün məşhur həkimi, elm adamı olub. O, həmçinin, dünya dinlərinə bələd olduğu üçün Şeyx adlandırılıb, dünyəvi elmlərə ustalıqla yiyələnib. Qeyd edilib ki, əsərlərində hər zaman qadına yüksək qiymət verən dahi şair nəinki Şərq aləmində, həmçinin, Qərb aləmində də tanınır, öyrənilir. Nizami Gəncəvinin bir neçə qəzəlini qiraət edən Ramiz Qasımov xarici tələbələri ölkəmizin sahib olduğu mədəni irsimizdən bəhrələnməyə çağırıb.



Sonra xarici tələbələrin Nizami Gəncəvinin əsərlərindən hazırladığı bədii qiraət nümunələrindən hazırladıqları videoçarx nümayiş olunub.

Sonda xarici tələbələr Nizami Gəncəvinin şeir, qəzəllərini bədii qiraət edib, şairin poemalardan hissələri səhnələşdiriblər.

Tələbələrin tədbirdə iştirakını yüksək qiymətləndirən rektor onları təşəkkürnamə ilə təltif edib.



# "TORPAQLARIN MÜNBİTLİYİNİN QORUNMASI VƏ BƏRPASI" MÖVZUSUNDA TƏDBİR KEÇİRİLİB

Ali təhsil ocağının Memarlıq və mühəndislik fakültəsində Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin təşkilatçılığı ilə "Torpaqların münbitliyinin qorunması və bərpası" mövzusunda tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan universitetin "Meliorasiya və geodeziya" kafedrasının müdiri, memarlıq üzrə fəlsəfə doktoru, dosent Qadir Əliyev qeyd edib ki, hamilik çərçivəsində keçirilən görüşlər universitetdə artıq ənənə halını alıb.

Su ehtiyatlarından istifadə şöbəsinin müdiri Səttar Nəsirov "Torpaqların münbitliyinin qorunması və bərpası sahəsində həyata keçirilən tədbirlərin əhəmiyyəti" haqda çıxış edib. Qeyd olunub ki, muxtar respublika kənd təsərrüfatının inkişaf etdirilməsinin əsas yollarından biri də suvarma məsələləridir. Sudan düzgün, səmərəli və qənaətlə istifadə olunması günün əsas tələbidir. Diqqətə çatdırılıb ki, bu gün su mənbələrinin istifadəsi, mühafizəsi və bərpası sahəsində bir çox işlər həyata keçirilir, dövlət proqramları hazırlanır. 2012-ci ildən həyata keçirilən " Naxçıvan Muxtar Respublikasında Selə Qarşı Tədbirlər, Suvarılan Ərazilərin Modernləşdirilməsi və Genişləndirilməsi" layihəsi çərçivəsində görülən işləri nümunə göstərmək olar.

Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi Sevinc Tağıyeva "Son illərdə muxtar respublikaya və irriqasiya sistemlərinin qurulması və inkişafı" mövzusunda tələbələrə ətraflı məlumat verərək qeyd edib ki, meliorasiya və su təsərrüfatı respublikamızın iqtisadiyyatında, sosial iqtisadi inkişafında, əhalinin ekoloji cəhətdən təmiz və dayanıqlı ərzaq məhsulları ilə etibarlı təminatında mühüm rol oynayır. Həmçinin, bu kimi tədbirlər əhalinin işlə təmin olunması üçün də əlverişlidir. 2021-ci il 13 mart tarixində Ali Məclis Sədrinin Sərəncamı ilə "2021-2025- ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət proqramı"nın təsdiq edilməsi muxtar respublikada meliorasiya və su təsərrüfatı sahəsinin davamlı inkişafına təminat verir.

Sonra tələbələrin sualları cavablandırılıb və onlara bukletlər paylanılıb.

# BEYNƏLXALQ ABİDƏLƏR VƏ TARİXİ YERLƏR GÜNÜ QEYD EDİLİB

Ali təhsil ocağının Tarix–filologiya fakültəsində "18 aprel Beynəlxalq abidələr və tarixi yerlər günüdür" mövzusunda tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan fakültənin dekanı, tarix üzrə fəlsəfə



doktoru, dosent Rəsul Bağırov qeyd edib ki, bu əlamətdar gün UNESCO tərəfindən 1983- cü ildə təsis olunub. Vurğulanıb ki, göstərilən yüksək dövlət qayğısı sayəsində ölkəmizdə taixi abidələrin tədqiqi, mühafizəsi və bərpası, mədəniyyət nümunələrinin beynəlxalq aləmdə təbliği istiqamətində böyük işlər görülür.

"Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq" kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru Məmməd Əliyev Azərbaycan Respublikasında tarixi-mədəni irsimizin qorunub yaşadılmasından danışıb. Bildirilib ki, 2005-ci ilin 6 dekabr tarixli Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin imzaladığı sərəncamla muxtar respublikanın tarixi abidələri siyahıya alınıb və passportlaşdırılıb. Belə ki, sənədləşdirilən 1162 abidənin 57-si dünya, 495-i ölkə, 665-i yerli əhəmiyyətli statusa malikdir. Vurğulanıb ki, hər il fakültədən məzun olan "Muzeyşünaslıq" ixtisasının tələbələri muxtar respublikanın bu sahəyə olan kadr potensialını təmin edir.

Kafedranın müəllimi, Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisi Zenfira Seyidova tələbələrə Möminə Xatun türbəsi haqqında məlumat verib. Vurğulanıb ki, türbə məşhur Azərbaycan memarı Əcəmi Naxçıvaninin şah əsəri və Naxçıvan-Marağa memarlıq məktəbinin ən dəyərli abidələrindən biridir. Naxçıvan şəhərinin tarixi mərkəzində — Atabəylər Memarlıq Kompleksinin tərkibində yerləşir. Möminə xatun türbəsi həmin kompleksdən dövrümüzə çatmış yeganə abidədir. Vurğulanıb ki, Əcəmi Naxçıvaninin dövrümüzə çatmış ən gözəl əsəri olan Möminə xatun türbəsi bu gün də orta əsrlər Naxçıvan şəhərinin əzəmətini əks etdirir.

"Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq" kafedrasının müəllimi Nərmin Orucova tarixi abidələrimizin təbliğində gənclərin rolundan danışıb.

# KRİMİNALİSTİKA SAHƏSİ XARİCİ ƏDƏBİYYAT NÜMUNƏLƏRİ İLƏ ZƏNGİNLƏŞDİRİLİR

Ali təhsil ocağının Beynəlxalq münasibətlər və hüquq fakültəsində "Kriminalistika sahəsində xarici ədəbiyyat nümunələri"nin təqdimat mərasimi keçirilib. Tədbiri giriş sözü ilə açan fakültənin dekanı, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yusif Hüseynov tələbələrin intellektual düşüncələrinin artırılması baxımından bu kimi tədbirlərin mahiyyətini yüksək qiymətləndirib. Qeyd edilib ki, fakültədə yeni yaradılan "Kriminalistika" laboratoriyası gələcəkdə peşəkar ixtisaslı kadrlar yetişdirməyə şərait yaradacaq.



"Hüquq fənləri" kafedrasının baş müəllimi Elman Abbasov Kriminalistika sahəsində xarici ədəbiyyat nümunələrini ətraflı şərh etmək yolu ilə tələbələrə tanıdıb. Vurğulanıb ki, kriminalistika Cinayət Qanunvericiliyi ilə müəyyən edilmiş üsul, vasitə və prosedurlarla izlərin aşkarlanması, götürülməsi və qablaşdırılmasını həyata keçirən elm sahəsidir. Kriminalistik ekspertizanın aparılması düzgün metod və üsullardan istifadə edildikdə, hadisə yeri dəqiq müəyinə edildikdə baş vermiş cinayət hadisəsinin isti izlərlə aşkarlanması labüd olur. Qeyd edilib ki yeni yaradılan kriminalistika laboratoriyasında tələbələrə barmaq izləri (daktiloskopik), ayaq izlərinin, ballistik cisimciklərin götürülməsi əyani şəkildə göstərilir və öyrədilir.

"Hüquq fənləri" kafedrasının müəllimi Emin Əliyev tələbələrin xarici ədəbiyyat nümunələrinə münasibəti və bu ədəbiyyatlardan necə istifadə etmələri haqda məlumat verib. 50-yə yaxın xarici ədəbiyyat nümunələrindən məqsədyönlü istifadə qaydaları tələbələrə aydın izah edilib.

Sonda tələbə və müəllimlərin təklifləri dəyərləndirilib, sualları cavablandırılıb.

*Səhifəni hazırladı:* ***Etibar Dərbəndəliyev*** ***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***



# "MOLLA NƏSRƏDDİN"İN 115 İLLİK YUBİLEYİ QEYD OLUNUB



"Baxın "Molla Nəsrəddin"ə. Bu cəridə nə gözəl cəridədir. Nə qədər ağıl, zəka, məharət və zövq göstərir. Nəinki biz müsəlmanlar, bəlkə ən mədəni, ən mütərəqqi tayfalar belə cəridələri ilə fəxr edirlər". Azərbaycan türkcəsində satirik-yumoristik jurnal olan "Molla Nəsrəddin" jurnalı haqda bu fikirlər ali təhsil ocağının Tarix- filologiya fakültəsində "Molla Nəsrəddin"- 115 adlı elmi – nəzəri konfransda səsləndirilib.

Tədbirdə giriş sözü ilə çıxış edən universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov Azərbaycanın ədəbiyyat tarixində əvəzsiz xidmətləri olan görkəmli yazıçı və ictimai xadim Cəlil Məmmədquluzadənin yaradıcılığından, onun təşəbbüsü, naşirliyi ilə dərc edilən "Molla Nəsrəddin" jurnalının milli mətbuatımızın inkişafında yeri və rolundan danışıb. Vurğulanıb ki, 2006-cı ildə jurnalın nəşrə başlamasının 100 illiyinin dövlət səviyyəsində qeyd olunması, 2009-cu ildə C. Məmmədquluzadənin 140, 2019-cu ildə 150 illik yubileylərinin keçirilməsi ölkə prezidenti İlham Əliyevin imzaladığı Sərəncamlar məhz ulu öndərin uğurlu siyasətinin davamlı təzahürüdür. Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikasında Mirzə Cəlilin və digər mollanəsrəddinçilərin xatirəsi uca tutulur, ehtiramla yad edilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017- ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Oxunması zəruri olan kitablar"ın siyahısına görkəmli ədibin "Hekayələri"nin də daxil edilməsi bu qayğının bariz nümunəsidir.

"Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru İman Cəfərov jurnalın 1906-cı ilin aprel ayından nəşrə başladığını, 1906-1918-ci illərdə Tiflisdə, 1920-1921-ci illərdə Təbrizdə, 1922-1931-ci illərdə isə Bakıda nəşr olunduğunu söyləyib. Bildirilib ki, Molla Nəsrəddinçilər məqalələrini "türkün ana dilində", sadə danışıq tərzində, xalqın anlayacağı, başa düşəcəyi dildə yazıblar. C.Məmmədquluzadənin öz dili ilə desək "Molla Nəsrəddin"i təbiət özü yaratdı, zəmanə özü yaratdı".

Sonda "Jurnalistika" və "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisası tələbələri "Sizi deyib gəlmişəm" məqaləsini, "Ölülər" pyesindən İsgəndərin monoloqunu, "Millət necə tarac olur olsun, nə işim var?!" satirik şeirini, "Azərbaycan" məqaləsini və Mirzə Ələkbər Sabirin "Bir dəstə gül", "Ey fələk zülmün əyandır" Bəhri-təvilini səsləndiriblər.

## TƏLƏBƏ TEATR STUDİYASI NİZAMİ GƏNCƏVİNİN "XEYİR VƏ ŞƏR" TAMAŞASINI SƏHNƏLƏŞDİRİB



Naxçıvan Dövlət Universiteti Tələbə Teatr Studiyası Nizami Gəncəvinin 880 illik yubileyinə həsr edilmiş "Xeyir və Şər" tamaşasını nümayiş etdirib.

Tamaşa 4 şəkilli pyes əsasında 1 pərdədə səhnələşdirilib. Quruluşçu rejissor Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Gülxarə Əhmədova, Elmi məsləhətçi və səhnələşdirmə Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidov, Tamaşanın rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılov, musiqi tərtibatı İncəsənət fakültəsinin I kurs tələbəsi Qorxmaz Qoçəlizadə, səhnə tərtibatçıları isə fakültənin III kurs tələbəsi Sadiq Əliyev və Gəray Məmmədovdur.

Qeyd edək ki, Bəhram şah rolunda "Musiqi müəllimliyi" ixtisası üzrə IV kurs türkiyəli tələbə Emre Erik çıxış edib. Xeyir rolunu "Aktyor sənəti" ixtisası üzrə I kurs tələbəsi Xəlil Hüseynov və Şər rolunu isə həmin ixtisas üzrə I kurs tələbə Nurlan Qafarzadə oynayıb. "Aktyor sənəti" ixtisası üzrə tələbələrin üstünlük təşkil etdiyi tamaşada Rəngkarlıq, Bəstəkarlıq, Musiqi müəllimliyi və Müalicə işi ixtisasının tələbələri də yer alıb.

Sonda universitetin rektoru Elbrus İsayev tamaşanı yüksək qiymətləndirərək uzun zaman sonra Tələbə Teatr Studiyasının uğurlu nəticəsi kimi dəyərləndirib. Qeyd olunub ki, çox qısa olmasına baxmayaraq dərin məzmunu və xarakterlərin bitkinliyinə görə ibrətamiz hekayə əsasında səhnələşdirilən "Xeyir və Şər" Nizami ilinə verilən bir töhfədir. Rektor tamaşada qardaş ölkədən iştirak edən tələbələrin də fəaliyyətini yüksək qiymətləndirib. Bildirilib ki, universitetdə oxuyan hər bir tələbə mədəni-mühitə inteqrasiya olmalıdır. Rektor tamaşanın səhnələşdirilməsində iştirak edən hər kəsi təbrik edib, onlara yaradıcılıq uğurları arzulayıb.



## XALÇA VƏ TİKMƏ NÜMUNƏLƏRİNDƏN İBARƏT SƏRGİ

Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsində "Təsviri incəsənət müəllimliyi" ixtisası üzrə II kurs tələbələri ilə birgə kafedranın baş müəllimi Siddiqə Hacıyevanın ərsəyə gətirdikləri xalça və tikmə nümunələrindən ibarət sərgi təşkil edilib. Sərgidə giriş sözüylə çıxış edən universitetin rektoru Elbrus İsayev ilk dəfə olaraq təşkil edilən sərgini "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" çərçivəsində görülən işlər istiqamətində mühüm töhvə kimi dəyərləndirib. Qeyd edilib ki, ali təhsil ocağının "Texnologiya mərkəzi"ndə, İncəsənət fakültəsində təşkil edilən dərnəklərdə tələbələrin müxtəlif peşə vərdişlərinə cəlb olunması, həmçinin müvafiq ixtisaslar üzrə təcrübi bacarıqlarının qiymətləndirilməsi bizi sevindirir. Artıq universitetdə əl işlərinin nümayiş olunmasının ənənə halı aldığını diqqətə çatdıran rektor sərgidə əməyi olan müəllim və tələbələri təbrik edib, onlara yaradıcılıq uğurları arzulayıb.

Fakültənin dekanı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılov bildirib ki, tələbələr bu gün sərgilənən əl işlərini həm dərs prosesində, həm də Siddiqə müəllimin rəhbərliyi altında təşkil edilən dərnəkdə yaradıblar. Vurğulanıb ki, bugünkü sərginin fakültədə mütəmadi olaraq təşkil edilən sərgilərdən fərqi ondadır ki, tələbələr ilk dəfə olaraq xalçaçılığa dair əl işlərini nümayiş etdirirlər.

Təsviri incəsənət kafedrasının baş müəllimi Siddiqə Hacıyeva qeyd edib ki, sərgidə 50-yə yaxın dekorativ əl işləri, tikmələr, rəsm nümunələri nümayiş olunur. Naxçıvan xalçaları, xovlu, xovsuz xalçalar, şəddə, vərni, kilim, cecim, duz torbası və. s. növdə sərgilən əl işlərində xalçaçılıqda işlədilən ornamentlər öz əksini tapıb. Hər ornamentin özünün mənasına görə fərqləndiyini diqqətə çəkən xalçaçı rəssam vurğulayıb ki, naxışlarda əbədi həyat, güclük, birlik, müqəddəslik öz əksini tapıb.

Sonra müəllim və tələbələrin sərgi ilə bağlı fikirləri səsləndirilib, tapşırıq və tövsiyyələr dəyərləndirilib.

Sərgi tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Qeyd edək ki, sərgidə həmçinin Siddiqə Hacıyevanın müəllifi olduğu muxtar respublikanın xalçaçılıq xəritəsi yaradılıb. Orijinal üslubda yaradılan xəritədə Naxçıvanın rayonlarının özünəməxsus xalça ornamentləri öz əksini tapıb. Həmçinin, sərgidə milli ornamentlərin əks olunduğu kulinariya nümunələri də yer alıb.

## KONSERVATORİYADA "MUĞAM AXŞAMI"



Naxçıvan Dövlət Universiteti Konservatoriyasında ilk dəfə "Muğam axşamı" keçirilib. Konsertdə universitetin İncəsənət fakültəsi müəllim və tələbələri Azərbaycan Xalq musiqisinin incisi olan muğamlar, təsniflər, xalq və bəstəkar mahnılarını ifa ediblər. Muğam konsertini tarda "Musiqi təlimi" kafedrasının baş müəllimi Azərbaycan Respublikasının Əməkdar artisti Zeynalabdin Babayev, kamançada "Xalq Çalğı Alətləri" kafedrasının baş müəllimi, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Aqib Seyidov, "Xalq çalğı alətləri" ixtisası üzrə I kurs tələbələri Zəkiyyə Abbasova kanonda, Əfsun Məmmədov udda, həmin ixtisas üzrə II kurs tələbəsi Munis Əlisoy isə nağarada müşayiət ediblər. Konsertdə ritmik muğam "Heyratı", Segah təsnifi "Könül açdım", Xalq mahnılarından "Gəl-gəl, ay aman", "Aman təklik əlindən", "İsmi pünhan" "Çoban qızı" və klassik bəstəkarlardan Səid Rüstəmovun "A ceyran sevgilim" və Əlibaba Məmmədovun "Vətən yaxşıdır" musiqiləri ifa edilib.

Tamaşaçılara xoş ovqat bəxş edən sənət sahibləri sonra Şəfiqə Axundovanın bəstəkarı olduğu "Mehriban olaq" mahnısını birgə səsləndiriblər.

Yaradıcı insanları təbrik edən Naxçıvan Dövlət Filarmoniyasının solisti, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Zülfüqar Mahmudov konsertdə öz sözünü musiqi ilə deyib.

Sonda ali təhsil ocağında təşkil edilən konserti yüksək qiymətləndirən universitetin rektoru Elbrus İsayev istedad sahibi olan hər kəsi təbrik edib. Qeyd edilib ki, Azərbaycan muğamının bəşər mədəniyyətinin nadir inciləri ilə bir sırada YUNESKO-nun Dünya irs siyahısına daxil edilməsi isə bütövlükdə onun nə dərəcədə bənzərsiz sənət növü olduğunu bir daha təsdiqləyir.



## "XALQ ÇALĞI ALƏTLƏRİ" KAFEDRASININ HESABAT KONSERTİ

Ali təhsil ocağının "Xalq Çalğı Alətləri" kafedrasında hesabat konserti keçirilib. Konsertdə xalq və bəstəkar mahnıları ifa edilib. Müəllim və tələbələrin ifasında səsləndirilən konsertin bədii rəhbəri sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aynurə Quliyeva olub. Konsertdə Şəfiqə Axundovanın "Həsrətindən", Süleyman Əsgərovun "Şalaxo", Səid Rüstəmovun "Qaytağı", Vasif Adıgözəlovun "Xoşum gəlir", Tofiq Bakıxanovun "Görüş yeri", Cahangir Cahangirovun bəstəkarı olduqları "Lirik mahnı" musiqiləri tədbir iştirakçıları tərəfindən maraqla dinlənilib. Fakültənin müəllim və tələbələrindən ibarət "Misri saz çalanlar" ansamblının ifasında "Koroğlu Dubeytisi,Cəngi Koroğlu" mahnısı səsləndirilib.

"Xalq Çalğı Alətləri" kafedrasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aynurə Quliyeva kafedranın fəaliyyəti haqda danışıb. Qeyd edilib ki, Xalq çalğı alətləri kafedrası 2008-ci ildə "İfaçılıq" kafedrasının bazası əsasında yaradılıb.

Hesabat konserti ilə bağlı öz fikirlərini, təkliflərini səsləndirən müəllimlər tələbələrə uğurlar arzulayıblar.

Sonda universitetin rektoru Elbrus İsayev konsertlə bağlı xoş təəssüratlarını bölüşüb. Tələbələrin öz müəllimləriylə birgə çıxışı yüksək qiymətləndirilib. Konservatoriyanın bütün tədbirlərdə yüksək fəaliyyətini qiymətləndirən rektor müəllim və tələbələri təbrik edib, konsertdə fəal iştirak edən hər kəsə öz təşəkkürünü bildirib.

**Etibar Dərbəndəliyev**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

## İDMAN KOMPLEKSİNDƏ BASKETBOL ÜZRƏ İCTİMAİ HAKİMLƏR HAZIRLANIR



Naxçıvan Muxtar Respublikasında basketbol üzrə ictimai hakimləri hazırlamaq məqsədilə seminar təşkil edilib. Universitetin rektoru Elbrus İsayev qeyd edib ki, ölkəmizdə digər sahələrin uğurlu inkişafı ilə yanaşı, basketbol idman növünə də xüsusi önəm verilir. Universitetin idman sahəsindəki uğurlarından bəhs edən rektor qazanılan nailiyyətlərin ölkədə və muxtar respublikada idmanın inkişafına, gənclərin mənəvi fiziki cəhətdən sağlam yetişməsinə göstərilən diqqət və qayğının nəticəsi kimi qiymətləndirib. Rektor basketbol idman növünə olan marağı artırmaq, bu idman növünün kütləviliyinə nail olmaq məqsədi daşıyan seminarların mühüm əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb.

Universitetin "İdman klubu"-nun sədri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Məhəmmədəli Rəhimov bildirib ki, universitetdə 15 idman növü üzrə məşğələlər fəaliyyət göstərir ki, bu məşğələlərdə hər gün yüzlərlə tələbə idmanın muxtəlif növləri ilə məşğul olur. Vurğulanıb ki, idmanın muxtəlif növləri üzrə idman hakimlərinin hazırlanması da diqqət mərkəzindədir. Voleybol, futbol və cüdo güləşi üzrə seminarlar keçirildiyini diqqətə çəkən klubun sədri qeyd edib ki, artıq basketbol idman növü üzrə də seminar uğurla başa çatıb. Məhəmmədəli Rəhimov bildirib ki, Məşqçilik, Bədən tərbiyəsi və idman, Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi ixtisası tələbələrinin qatıldığı seminarda 15 tələbə iştirak edib. Seminarı respublika dərəcəli hakim Füzuli Salmanov aparıb. Diqqətə çatdırılıb ki, tələbələr mart ayında 2 həftə ərzində seminar keçib, təcrübi peşə bacarıqlarına sahib olublar.

Sonra nəzəri biliklərin təcrübədə yoxlanılması məqsədilə iki komanda arasında yoldaşlıq görüşü keçirilib və seminarda iştirak edən "Məşqçilik" ixtisası üzrə I kurs tələbəsi Əlişan Rəhimov və Qumru Musalı oyunun hakimliyini ediblər.

Qeyd edək ki, hakimlər üçün keçirilən seminarın təcrübi cəhətdən faydalılığını yoxlamaq məqsədilə tələbələr aprel ayının 27-dən etibarən keçiriləcək XV universiada proqramına daxil olan basketbol yarışlarını idarə edəcəklər.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## XV UNİVERSİADANIN AÇILIŞ MƏRASİMİ

Ali təhsil ocağının İdman Kompleksində XV İdman Universiadası təşkil edilib. Universitetin fakültə komandaları "Orkestr alətləri və dirijorluq" kafedrasının "Nəfəs alətləri" orkestrinin səsləndirdiyi musiqi sədaları altında zala giriş edib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Universitetin rektoru Elbrus İsayev tədbiri giriş sözü ilə açaraq bildirib ki, gənc nəslin sağlam yetişməsi və idmana marağın artırılması məqsədilə universitetdə mütəmadi olaraq müxtəlif idman oyunları, yarışlar təşkil edilir. Rektor həmçinin bildirib ki, "Nəfəs alətləri" orkestrinin idaman yarışlarında çıxışı yeniliklərdən biridir.

Tədbirdə "Bədən tərbiyəsi" kafedrasının dosenti, İdman klubunun sədri Məmmədəli Rəhimov bildirib ki, universitetdə davamlı olaraq iki ildən bir universiadalar təşkil edilir. Həmçinin vurğulanıb ki, universiada basketbol, voleybol, tennis, stolüstü tennis və digər müxtəlif idman növlərindən ibarət olacaq. Diqqətə çatdırılıb ki, bu il universiadaya yeni təsis edilmiş atıcılıq idman növü də əlavə edilib.



Tədbirdə eyni zamanda universitetin Bədən tərbiyəsi və idman ixtisası üzrə II kurs tələbəsi, karate üzrə dünya ikincisi, Avropa çempionatı üzrə üçüncüsü olan Aslan İsmayılov yarışda qazandığı uğurlardan bəhs edib, komandalara uğurlar arzulayıb.

Müxtəlif idman növləri üzrə nümunəvi çıxışlar göstərildikdən sonra fakültələrarası basketbol yarışına start verilib.

# XALQA VƏ DÖVLƏTƏ ŞƏRƏFLİ XİDMƏT MİSSİYASI

Bu, bir həqiqətdir ki, şəxsiyyətləri tarix yetişdirir. İsbata ehtiyacı olmayan digər həqiqət isə ondan ibarətdir ki, şəxsiyyətlər də öz növbəsində tarix yaradırlar. Bu asılılığın unikallığı ondadır ki, tarix özünün mürəkkəb çağlarını yaşayarkən böyük şəxsiyyətlər doğulur, onlar isə tarixə borclu qalmır. Missiyaları Xilaskarlıq olur. Tarixin, dövlətin və millətin xilaskarı missiyası. Bu xilaskarlıq missiyasını müasir Azərbaycan dövlətçiliyi tarixində ümummilli lider Heydər Əliyev yerinə yetirmişdir. Həyatının mənasını xalqa və dövlətə xidmətdə görən ulu öndər bu müqəddəs amal uğrunda ən çətin maneələrə, problemlərə mərdliklə sinə gərdi. Ulu öndər ilk növbədə Azərbaycanın itirilmiş dövlətçiliyini bərpa etdi, ölkəni xaos vəziyyətindən çıxardı, vətəndaş müharibəsinin qarşısını aldı, ölkədə milli barışığa nail oldu, bütün sahələrdə dinamik inkişaf tendensiyalarının əsasını qoydu. Azərbaycanda siyasi sabitlik və inkişaf dövrü başlandı.

***Naxçıvandan başlanan xilaskarlıq missiyası***

Ulu öndər Azərbaycan xalqının və dövlətinin xilas missiyasına Naxçıvandan başladı. Ulu öndərin 1990-cı ilin ortalarında, Naxçıvanın çətin vaxtlarında bura qayıtması bu qədim Azərbaycan torpağını təhlükələrdən sovuşdurdu. Ən əsası, bu qayıdışla Azərbaycanda müstəqillik uğrunda mübarizə özünün yeni mərhələsinə qədəm qoydu, imperiya qüvvələri ilə mübarizə daha da genişləndi. Xalqımızın dahi oğlunun alovlandırdığı istiqlal mücadiləsi milli dirçəliş prosesinin bütün Azərbaycanda aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. SSRİ hökumətinin hələ fəaliyyətdə olduğu dövrdə Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözlərinin çıxarılması zamanın dahisi Heydər Əliyevin sarsılmaz siyasi iradəsinin və böyük uzaqgörənliyinin nəticəsində mümkün oldu. Eyni zamanda, həmin sessiyada dahi rəhbərin təklifi ilə Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi adlandırılması da sadəcə sözün redaktəsi deyildi. Bu, dünyada Sovet İttifaqı kimi tanınan, siyasi sistemini sovetlər üstündə quran möhtəşəm bir ölkənin siyasi strukturunda dəyişiklik edilməsi demək idi. Bütün bunlar yalnız və yalnız Naxçıvan Muxtar Respublika Ali Məclisinin sessiyasına sədrlik edən ulu öndərin həm böyük siyasi iradəsinin, yüksək azərbaycançılıq idealının, həm də qeyri-adi cəsarətinin sayəsində həyata keçirilmişdi.

Ötən əsrin 90-cı illərinin əvvəlindən etibarən ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər də bir daha təsdiqlədi ki, müstəqilliyin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. Ölkədə 1991-1993-cü illərdə hakimiyyətdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi maneəyə çevrilməklə yanaşı, daxili böhranın, vətəndaş itaətsizliyinin, xaos və anarxiyanın yaranmasına rəvac vermişdi. Belə ağır şəraitdə respublikanın tərəqqipərvər qüvvələri, mütərəqqi ruhlu ziyalıları çıxış yolunu ulu öndər Heydər Əliyev kimi müdrik şəxsiyyətin hakimiyyətə gəlməsində görür, hər cür riskə rəğmən, bu istəklərini açıq ifadə etməkdən çəkinmirdilər. Həmin illərdə obyektiv səbəblərdən Naxçıvana gedə bilməyənlər isə muxtar respublikanın Ali Məclisinin Sədri Heydər Əliyevin ünvanına saysız-hesabsız müraciətlər, teleqramlar göndərərək xalqı düşdüyü bəlalardan qurtarmağı xahiş edirdilər. Azərbaycanın düçar ola biləcəyi fəlakətlərin qarşısının vaxtında alınması məqsədilə sağlam qüvvələrin ulu öndər Heydər Əliyevin ətrafında birləşmək niyyəti yalnız bir qrup ziyalının deyil, respublikamızın bütün bölgələrində, şəhər və kəndlərində ayrı-ayrı vətəndaşlar, müxtəlif sosial qruplar arasında geniş zəmanda başlanmışdı. İlk dövrlərdə kortəbii, dağınıq fəaliyyət getdikcə daha mütəşəkkil xarakter almış və yeni partiyanın yaradılması üçün dahi liderə yazılı müraciət edilməsi zərurətini doğurmuşdu.

Xalqın rəyini ifadə edən bir qrup ziyalı ümummilli liderə müraciətində ölkəni anarxiya mühitindən çıxarıb aydın sabaha doğru aparacaq, müstəqilliyimizi əbədi və yenilməz edəcək, millətimizi bir bayraq, eyni amal ətrafında birləşdirəcək, milli həmrəyliyə, vətəndaş cəmiyyətinə qovuşduracaq siyasi partiyanın yaradılmasına yardımçı olmağı xahiş edirdilər. Müraciəti imzalayanlar yaxşı bilirdilər ki, yeni müstəqillik qazanmış ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət Heydər Əliyevdir. Vətənpərvər Azərbaycan ziyalılarının həmin müraciəti sonralar çağdaş tariximizə məşhur "91-lərin müraciəti" adı ilə daxil oldu. Bu tarixi müraciət, əslində, bütün Azərbaycan vətəndaşlarının istəyi, arzusu, haqlı tələbi idi. Xalqının taleyinə heç zaman biganə qalmayan, respublikanın dağılmasına dözməyən ulu öndər ziyalıların müraciətinə müsbət cavab verdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində iştirak etməyə hazıram".

Nəhayət, 1992-ci il noyabrın 21-də müstəqil Azərbaycanın çağdaş dövlətçilik tarixində yeni səhifə açan əlamətdar hadisə baş verdi. Naxçıvanda 550-yə yaxın nümayəndənin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis qurultayı keçirildi, ulu öndər Heydər Əliyev yekdilliklə təşkilata sədr seçildi. Müstəqilliyə yenicə qovuşmuş respublikada milli mənafe və dövlətçilik maraqlarının təmsilçisi olmaq kimi müqəddəs amalı özünün siyasi idealı, əsas strateji xətti seçən Yeni Azərbaycan Partiyasının yaranması tarixi zərurətdən, o illərdə mövcud olmuş ideoloji-siyasi durumun doğurduğu milli tələbatdan irəli gəlirdi. Yeni Azərbaycan Partiyasının qısa müddətdə cəmiyyətdə həlledici çoxluq tərəfindən ölkəni idarə etməyə qadir alternativsiz qüvvə kimi qəbul olunması da məhz ulu öndər Heydər Əliyevin fenomenal liderlik və idarəçilik keyfiyyətləri ilə şərtlənirdi. Qarşıda isə ulu öndəri daha çətin, eyni zamanda, şərəfli bir missiya gözləyirdi...

***Qurtuluşdan intibaha doğru***

1993-cü il iyun ayının 9-da xalqın təkidi ilə Bakıya qayıdan ulu öndər təbiətin ona bəxş etdiyi fövqəlidarəçilik keyfiyyətlərindən məharətlə bəhrələnərək ölkəni vətəndaş qarşıdurmasından, müstəqilliyimizi itirmək təhlükəsindən qurtardı, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil oldu. İyunun 15-də ulu öndər Heydər Əliyevin



Azərbaycan Ali Sovetinin Sədri seçilməsi isə ölkədəki kütləvi inamsızlıq, hərc-mərclik mühitinin aradan qalxmasına, siyasi gərginliyin tədricən azalmasına, sözün həqiqi mənasında xalqın böyük fəlakətlərdən qurtulmasına real zəmin yaratdı. Məhz bu xilaskar missiyanın nəticəsi kimi Azərbaycan xalqı 1993-cü ilin oktyabrında Yeni Azərbaycan Partiyasının sədri Heydər Əliyevə etimad göstərərək onu özünün layiqli rəhbəri seçdi, bununla da ölkəmiz davamlı və dönməz inkişaf yoluna qədəm qoydu. Prezident seçilən Heydər Əliyev 1993-cü il oktyabrın 10-da keçirilmiş andiçmə mərasimində "Belə bir yüksək və məsuliyyətli vəzifəni üzərimə götürərkən birinci növbədə Azərbaycan zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edib. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm" deyərək müstəqil Azərbaycanın milli inkişaf strategiyasını irəli sürərək onun həyata keçirilməsinə başladı.

Ölkədə xalqın iradəsi ilə baş vermiş qanuni hakimiyyət dəyişikliyi nəticəsində Yeni Azərbaycan Partiyasının iqtidar partiyasına çevrilməsi dövlətin müstəqilliyinin praktik müstəvidə möhkəmləndirilməsi üçün real əsaslar yaratdı. Ulu öndər Heydər Əliyevin Prezident seçiləndən sonra müstəqil Azərbaycan dövlətinin hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi sürətləndi. Ulu öndər ilk növbədə ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparmalı oldu - qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm tədbirlər həyata keçirilməyə başlandı.

***Beynəlxalq aləmdə etibarlı tərəfdaş, lider dövlət***

Ulu Öndərin müəyyənləşdirdiyi balanslaşdırılmış xarici siyasət kursunun ölkə rəhbəri tərəfindən uğurla davam etdirilməsinin nəticəsində dünyanın ən fərqli geosiyasi qütbləri ilə münasibətlər qorunmuş, beynəlxalq güc mərkəzlərindən gələn təzyiqlər nəinki uğurla neytrallaşdırılmış, həm də toqquşan maraqlar uzlaşdırılaraq Azərbaycan sabitliyin hökm sürdüyü əməkdaşlıq məkanına çevrilmişdir. Ermənistan istisna edilməklə Azərbaycanın heç bir region ölkəsi ilə problemləri yoxdur, bütün dövlətlərlə bərabərhüquqlu ikitərəfli, üçtərəfli formatlarda tərəfdaşlıq münasibətləri var. BMT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa İttifaqı, Avropa Parlamenti, Qoşulmama Hərəkatı, ISESCO, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, NATO Parlament Assambleyası və digər beynəlxalq və regional təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən, Ermənistanın işğalçılıq siyasətini pisləyən çoxsaylı qərar və qətnamələr qəbul etmişlər. Məhz beynəlxalq müstəvidə aparılan bu ölçüyəgəlməz fəaliyyətin nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü hərbi-siyasi yolla həll etmək üçün ciddi hüquqi baza yaratmışdır. Prezident işğaldan azad olunmuş Ağdama səfəri zamanı etdiyi çıxışda demişdir: "Bizim beynəlxalq nüfuzumuz kifayət qədər yüksəkdir və bu, münaqişənin həlli üçün xüsusi rol oynamışdır".

***İnkişaf məqsədimizdir. İslahatların yeni dalğası***

Prezident İlham Əliyev 2018-ci il aprelin 18-də andiçmə mərasimində islahatların yeni dalğasını anons etmiş, ölkənin ictimai-siyasi-mədəni həyatının hər bir sahəsini əhatə edən çoxşaxəli islahatların yeni mərhələsi başlanmışdır. Dövlətimizin başçısı islahatlar modelini yığcam olaraq belə ifadə etmişdir: "Biz məqsədyönlü, düşünülmüş addımlar atırıq ki, ölkəmizin inkişafına yeni təkan verək, hələ də həll olunmamış problemləri həll edək, nöqsanları, xoşagəlməz halları, çatışmayan məqamları aradan götürək və bunu edirik".

Bu gün hakimiyyətin bütün qollarında-qanunverici, icraedici və məhkəmə hakimiyyətlərində islahatlar gedir, prosesi asanlaşdırmaq məqsədilə yeni hüquqi aktlar qəbul edilir, heç bir dövlət orqanı yenilənmə, islahat kursundan kənarda qalmır. Qanunverici hakimiyyətin islahatlar kursu ilə ayaqlaşması üçün hakim Yeni Azərbaycan Partiyası Mili Məclisin buraxılaraq seçkilərin vaxtının qabağa çəkilməsi təşəbbüsü ilə çıxış etmiş, islahatlara yeni sürət qazandırmışdır. 2020-ci il fevralın 9-da keçirilmiş parlament seçkilərində bütün siyasi qüvvələrin, siyasi partiyaların maneəsiz iştirakına şərait yaradılması sayəsində Milli Məclisin yeni tərkibdə, çoxpartiyalılığa əsaslanmaqla yenidən formalaşması islahatlara çox mühüm bir töhfədir. Həmin vaxt ölkədə rəsmən mövcud olan 55 siyasi partiyadan 20-si seçkilərdə iştirak etmişdir.

***Uğurlu diplomatiyadan zəfər meydanına***

Ötən il sentyabr ayının sonlarından Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu ədalətin bərpa olunması üçün müqəddəs tarixi savaşa başlamışdır. Danışıqları pozmaqla, Azərbaycana qarşı müxtəlif təxribatlar törətməklə Ermənistan özü bu tarixi müəyyənləşdirdi. İkinci Qarabağ müharibəsinin 44-cü günü, noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən imzalanmış üçtərəfli Bəyanat münaqişənin həlli istiqamətində son nöqtə oldu. Prezident İlham Əliyev dəfələrlə bildirib ki, məqsəd qan tökmək və ərazi qəsb etmək deyil, düşməni ədalətli sülhə məcbur etməkdir. Adətən, uğurlu döyüşlər uğurlu diplomatik danışıqlarla yekunlaşır. Azərbaycan diplomatiyasının belə danışıqlar aparmağa qadir olduğunun noyabrın 10-da bir daha şahid olduq. Cəmiyyətimiz "Heç bir təhdid, heç bir hədə, heç bir təzyiq mənim iradəmə təsir edə bilməz. Bizim siyasətimizin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və onun maraqlarıdır", - deyən Müzəffər Ali Baş Komandanın ətrafında six birləşdi. Bu inam, bu həmrəylik də Qələbəmizlə nəticələndi. Daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşməyimiz bəzi mənfur xarici dairələrin öz çirkin planlarını həyata keçirmələrinə imkan vermədi. Azərbaycanın gücü milli birlikdədir, dini, etnik, regional, siyasi və sosial mənsubiyyətindən asılı olmayaq bütün Azərbaycan xalqı birlik, həmrəylik göstərib Vətən naminə, Qələbə naminə Müzəffər Ali Baş Komandanın ətrafında yumruq kimi birləşdi. Nəticədə Müzəffər Ali Baş Komandamızın rəhbərliyi ilə hər günü, hər saatı, hər anı qızıl hərflərlə yazılmış tarixə çevrilən 44 gün tarixi qələbəmizi şərtləndirdi.

***Yeni Azərbaycan Partiyası yeni inkişaf mərhələsinin təcəssümünə çevrilir***

Ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, yarandığı gündən xalqın partiyasına çevrilən, keçdiyi 29 ilə yaxın şərəfli yolda Azərbayacanın qazandığı uğurların bələdçisi kimi çıxış edən Yeni Azərbaycan Partiyasının VII qurultayının keçirildiyi zamana diqqət yetirsək, bir daha bu reallığı böyük inam və qürur hissi ilə qeyd edə bilərik ki, Azərbaycanın 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Qələbəsinin yaratdığı yeni reallıqlar bütün sahələrdə, o cümlədən siyasi sistemin təkmilləşdirilməsində yeni mərhələyə yol açıb. Dövlətimizin başçısının da vurğuladığı kimi, ümummilli məsələlərdə heç bir fərqli fikir ola bilməz. Ümumi məsələlər Qarabağ məsələsidir. Ümumi məsələlər siyasi partiyaların fəaliyyətidir, demokratiyanın inkişafıdır, iqtisadi azadlıqların bərqərar olmasıdır, ölkəmizin gücləmnəsidir. Bu gün bu siyasi dialoq aparılır. Ölkəmizin gələcək siyasi sisteminin təkmilləşməsi üçün bunun böyük əhəmiyyəti var. Cənab İlham Əliyev qurultayda bu barədə demişdir: "Yeni Azərbaycan Partiyasının nümayəndələrini də, üzvlərini də buna fikir verməyə çağırıram ki, bizim ölkə daxilində heç bir siyasi qurumla heç bir problemimiz yoxdur". 6 siyasi partiyanın Yeni Azərbaycan Partiyasına qoşulması da Yeni Azərbaycan Partiyasının siyasi mövqeyinin daha da güclənməsinə xidmət edən uğurlu bir addımdır. Çünki Yeni Azərbaycan Partiyasının ideoloji prinsipləri milli həmrəyliyə və inkişafa xidmət edir. Yeni Azərbaycan Partiyası ölkəmizdə milli həmrəyliyin yeni inkişaf mərhələsinin təcəssümünə çevrilir.

Yeni Azərbaycan Partiyasının 5 mart 2021-ci il tarixdə keçirilən VII qurultayında Prezident İlham Əliyevin proqram xarakterli, müasir dövrün, 44 günlük İkinci Qarabağ müharibəsində Qələbimizin yaratdığı yeni reallıqları özündə əks etdirən nitqi bütün partiya üzvləri üçün yeni vəzifələr müəyyənləşdirdi. Bu əminlik ifadə edildi ki, gələn il partiyanın 30 illik yubileyi qeyd olunacaq. Partiya yenilənmiş formatda daha fəal olacaq, ölkə qarşısında duran problemləri daha fəal icra edəcək: "Həyat dəyişir, zəmanə dəyişir. Bir daha demək istəyirəm ki, biz ən müasir təcrübəni Azərbaycanda bütün sahələrdə tətbiq etməliyik, o cümlədən siyasi islahatlar sahəsində. Əminəm ki, partiyanın rəhbər orqanlarında təmsil olunan üzvləri fəal olacaqlar, partiyamızın fəaliyyətində öz rolunu oynayacaqlar, ümumi işimizə öz töhfəsini verəcəklər ki, partiyamız bundan sonra da ölkəmizin aparıcı siyasi qüvvəsi olaraq qalsın. Mən buna şübhə etmirəm." Prezidentin qeyd etdiyi kimi, partiyamızın VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisədir. Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Partiyamızın böyük ənənələri var. Yeni Azərbaycan Partiyası bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində dayanacaq.

***Ulu öndər siyasi xəttinə sədaqət, inkişafın NAXÇIVAN nümunəsi***

Bu gün ölkəmizin, o cümlədən muxtar respublikamızın sosial-iqtisadi, elmi və mədəni həyatında əldə edilən böyük nailiyyətlərin əsasında fəal yaradıcı gücə malik olan ulu öndərin milli dövlətçilik konsepsiyası, inkişafın Heydər Əliyev modeli dayanır. Naxçıvan Muxtar Respublikasında sosial həyatın bütün sahələrində analoqu olmayan uğurların qazanılmasında bir başlıca səbəb vardır: o da ulu öndərimizin yoluna sadiqlik və bu yolun davam etdirilməsidir. Bütün bunlar həm də nümunəvi vətənpərvərliyin, dövlətçiliyə dərin sədaqətin, sabitliyin, sosial-iqtisadi yüksəlişin təmin edilməsinin, ən əsası isə rəhbər qayğısının nəticəsidir.

Müasir Naxçıvanımız bu gün tərəqqi və inkişafın ən yüksək zirvəsindədir. Bu zirvədən baxdıqda insan iradəsinin, zəhmətinin nəyə qadir olduğu aydın görünür. Artıq naxçıvanlıları nə ərzaq və enerji qıtlığı, nə blokada çətinlikləri, nə də düşmən təhlükəsi qorxudur. Bu gün muxtar respublikada əhalinin həyat səviyyəsi getdikcə yüksəlir, insanların torpağa bağlılığı, yurd sevgisi artır, yaşayış məntəqələri müasirləşir, əsas ərzaq məhsullarına olan tələbat yerli istehsal hesabına ödənilir, torpaqlarımız güclü və nizami ordu hissələri tərəfindən qorunur, Naxçıvan şəhəri zirvə görüşlərinə, beynəlxalq tədbirlərə, idman yarışlarına ev sahibliyi edir...

Ölkə rəhbəri Cənab İlham Əliyev Muxtar Respublikamızda gedən inkişafı yüksək qiymətləndirərək demişdir: "Naxçıvan Muxtar Respublikasının inkişafı daim diqqət mərkəzindədir. Respublikada gedən abadlıq-quruculuq işləri məni çox sevindirir. Naxçıvan son illər ərzində böyük dərəcədə inkişaf etmişdir, həm sosial sahədə, iqtisadi sahədə, sənaye potensialının möhkəmləndirilməsi istiqamətində böyük addımlar atılmışdır. Bu, çox sevindiricidir. Xüsusilə nəzərə alsaq ki, Naxçıvan uzun illər ərzində mühasirə şəraitində yaşayır, üç tərəfdən düşmənlə əhatə olunub. Buna baxmayaraq, respublika yaşayır, güclənir və böyük inkişaf yolunu davam etdirir".

Bəli bu gün Muxtar Respublikanın inkişafının mükəmməl modeli yaradılmışdır. Bu model isə dövlət müstəqilliyimizin və davamlı inkişafın qarantı olan ümummilli lider siyasi xəttinə sonsuz sədaqət və xalqa xidmət prinsipləri üzərində qurulmuşdur.

Uğurlu strateji kurs həm ölkəmizin milli maraqlarının qorunmasında, həm də regional sabitliyin, təhlükəsizlik və inkişafın təmin olunmasında öz əksini tapır. Bu isə həm beynəlxalq təşkilatlar, həm də ayrı-ayrı ölkələr, o cümlədən dünya siyasətində güc mərkəzi kimi çıxış edən milli dövlətlər tərəfindən yüksək qiymətləndirilir. Digər tərəfdən, bölgədə sabitləşdirici aktor kimi çıxış edən Azərbaycanın regional və qlobal təhlükəsizliyə müstəsna töhfələr verməsi ölkəmizin beynəlxalq dialoq məkanı olaraq seçilməsini şərtləndirib. Prezident İlham Əliyev hər zaman qeyd edir ki, Azərbaycan qarşıdurma, rəqabət məkanı deyil, tərəfdaşlıq və əməkdaşlıq məkanıdır. Xarici siyasətimizin strateji əsaslarından biri olan bu ideya, onun konstruktiv məzmunu və real siyasi proseslərdə özünü doğrultması beynəlxalq münasibətlərin hazırkı mürəkkəb mərhələsində Azərbaycanı strateji tərəfdaşlıq üçün cazibə mərkəzinə çevirir. Şübhəsiz ki, Azərbaycanın cazibə mərkəzinə çevrilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müstəqil xarici siyasət kursunun dünyanın güc mərkəzləri tərəfindən hörmətlə qarşılanması və qəbul edilməsinin əyani təsdiqidir.

Beləliklə, Azərbaycan yeni reallıq formalaşdırmaqla özünə mühüm strateji perspektiv təmin edib. Hazırda Azərbaycan regionun lider və qalib ölkəsi kimi Prezident, Müzəffər Ali Baş Komandan və qətiyyətli Lider cənab İlham Əliyevin rəhbərliyi ilə öz yeni gələcəyini inşa edir.

**Arzu Abdullayev**
***Yeni Azərbaycan Partiyası Universitet ərazi ilk təşkilatının sədri "Beynəlxalq münasibətlər" kafedrasının baş müəllimi***

60 illik Yubiley

# DOSENT AYGÜN SULTANOVANIN 60 İLLİK YUBİLEYİ QEYD EDİLİB

Naxçıvan Dövlət Universiteti "Ümumi və nəzəri fizika" kafedrasının dosenti, fizika üzrə fəlsəfə doktoru Aygün Sultanovanın 60 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Tədbiri giriş sözüylə açan universitetin rektoru Elbrus İsayev qeyd edib ki, çox səvindirici haldır ki, bu gün yubileyinə toplaşdığımız Aygün Sultanova səmərəli elmi-pedaqoji fəaliyyəti ilə seçilən, məsuliyyəti və intizamı ilə dərs dediyi tələbələrə örnək olan bir ziyalı xanımdır. Rektor həqiqi mənada şərəfli bir müəllim ömrü yaşayan Aygün Sultanovanı yubileyi münasibətilə təbrik edib, ona cansağlığı, bundan sonrakı elmi fəaliyyətində uğurlar arzulayıb. Yubiliyara Naxçıvan Dövlət Universitetinin Fəxri Fərmanı və hədiyyə təqdim edilib.

"Ümumi və nəzəri fizika" kafedrasının müdiri, fizika üzrə fəlsəfə doktoru, dosent Fərman Qocayev yubilyar haqda danışaraq bildirib ki, Aygün müəllim artıq 38 ildir ki, ali təhsil ocağında çalışır. 1983-cü ildən laborant kimi fəaliyyətə başlayan Aygün Sultanova 1996-cı ildə müəllim, 2002-ci ildə baş müəllim, 2007-ci ildə isə dosent elmi dərəcəsini alıb. Vurğulanıb ki, mətbuat və televiziyada müntəzəm çıxış edən Aygün müəllim, həmçinin 34 elmi məqalə və 1 dərsliyin müəllifidir.



Fizika-riyaziyyat fakültəsinin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Orxan Cəfərov müəllimi Aygün Sultanova haqda xatirələrini bölüşüb.

"İnformatika" kafedrasının müdiri, baş müəllim Könül Məmmədova müəllimin elmi-pedaqoji fəaliyyətini yüksək qiymətləndirib, hüdudsuz elm yolunda tükənməz enerji arzulayıb.

Fakültənin müəllimləri Aygün Sultanova haqda xoş sözlər səsləndirib, arzularını ifadə ediblər.

Sonda yubiliyar keçirilən bu tədbiri yüksək qiymətləndirərək ona verilən ali dəyər üçün öz minnətdarlığını ifadə edib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# XXI ƏSRİN YENİ KİTAB FORMATI- ELEKTRON DƏRSLİKLƏR

Təhsil sisteminin sürətli informasiyalaşdırılması prosesi təhsildə elektron dərsliklərin isti-fadəsinə həm geniş imkanlar açmış, həm də zərurət yaratmışdır. Elektron dərsliklər öyrənənlərə təhsil prosesində fəal iştirak etmək, onların öyrənmə prosesini fərdiləşdirmək, yeni bilik əldə et-mək və öz imkanlarını qiymətləndirmək imkanı verir. Elektron dərslik həmçinin böyük həcmdə tədris və təlim materiallarını əhatə edərək yeni tədris metodlarının inkişafına təkan verməklə ənənəvi öyrənmə formalarını zənginləşdirir. Zaman keçdikcə cəmiyyətdə, ictimaiyyətdə olduğu kimi tədris sahəsində də zəruri keyfiyyət dəyişiklikləri baş verir. Yaşadığımız pandemiya səbəbindən həyatın bütün sahələrində olduğu kimi, təhsil sahəsində də fəaliyyətin yalnız texnologiyalardan istifadə sayəsində davam etdirilməsi zərurəti artıq yeni dünya formatına uyğunlaşmağı diktə edir. Hesab edirik ki, ali və orta məktəblər üçün hazırlanan dərsliklərin formatını da dəyişməyin vaxtı çatmışdır. Fikrimizcə, artıq ali məktəblərdə metodik, dərs vəsaitləri və dərsliklərin hazırlanmasında elektron və interaktiv formatlara da keçməyin vaxtıdır. Bu gün informasiya və rabitə texnologiyalarının istifadəsi sahəsində aparıcı istiqamətlərdən biri təlim fəaliyyətində kompüter texnologiyalarından effektiv istifadə edilməsidir. Bu fəaliyyətin həyata keçirilməsində əsas məsələ təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına imkan yaradan elektron dərs resurslarının yaradılması və mövcud mənbələ-rin modernləşdirilməsindən ibarətdir.

Hazırda həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilmiş informasiya texnologiyaları bir çox elm sahələri kimi, biologiya elmində də böyük kəşflərə, nailiyyətlərə gətirib çıxarmışdır. Biologiyada gen mühəndisliyi sahəsində aparılan işlər informasiya texnologiyalarının günü-müzdəki dəyərini qiymətləndirməyə imkan verir. Tədqiqatlar göstərir ki, təhsilin modern-ləşdirilməsinin əsas məqsədi ona yeni keyfiyyət qazandırıb yeni nəticələr almaqdır. İKT əsasında yeni təhsil mühitinin formalaşdırılması və biologiyanın tədrisində onun metodik əsasının aydınlaşdırılması yeni nəsil müəllimlərin hazırlanmasında peşəkarlığın atırılmasına hesablanmışdır. Elektron təhsil resurslarının didaktik imkanlarının analizi informasiya təlim mühitinin həyata keçirilməsi probleminin həllinə istiqamətlənmişdir. Elektron cihazların köməyi ilə istifadə olunan dərs materiallarına elektron dərs resursları deyilir. Elektron dərsliklərin üstünlükləri onların müxtəlif istifadə formatlarıdır – onlayn və ya offlayn rejimdə; kompüter, planşet, mobil telefon vasitəsilə dərsliklərin istifadə imkanının olması; əyani vəsaitlərin mövcudluğu - qrafika, animasiya, interaktiv fəaliyyət və digər multimedia xüsusiyyətləri; böyük həcmli məlumatların saxlanması; mətnlər üzərində qeydlərin aparılması mümkünlüyü; rahat istifadə – axtarış sisteminin mövcudluğu; mobillik – hər yerdə və hər zaman. Elektron dərsliklərin üstünlükləri onların müxtəlif istifadə formatlarıdır – onlayn və ya offlayn rejimdə; kompüter, planşet, mobil telefon vasitəsilə dərsliklərin istifadə imkanının olması; əyani vəsaitlərin mövcudluğu - qrafika, animasiya, interaktiv fəaliyyət və digər multimedia xüsusiyyətləri; böyük həcmli məlumatların saxlanması; mətnlər üzərində qeydlərin aparılması mümkünlüyü; rahat istifadə – axtarış sisteminin mövcudluğu; mobillik – hər yerdə və hər zaman. Elektron dərsliklər istifadəçilərin təhsil prosesində fəal iştirak etmək, onların öyrənmə prosesini fərdiləşdirmək üçün optimal şərait yaradır.

Dünyada çoxdan təsdiqini tapmış onlayn və offlayn universitetlərin yaradılması, kadr potensialı ilə təmin olunması problemləri artıq qarşıda həllini gözləyən aktual problemlərə çevrilmişdir. 2014-cü ildə Cənubi Koreya universitetləri ilə tanışlığımız universitetlərdə gələcəyin kadrlarını yetişdirməkdə gecikməməyi öyrətdi. Bunun üçün müxtəlif beynəlxalq səviyyəli kurs və treyninqlərdə iştirak edilməsi perspektivləri dəyərləndirilmélidir.

Düşünürük ki, fənlər üzrə elektron kitabların hazırlanması eyni zamanda bir neçə kitabın bir arada istifadəsinə, anında istənilən məlumatın təkrar edilməsinə imkan yaradar. Xüsusilə, biologiya fənlərinin tədrisi və öyrənilməsi zamanı bu cür E-bookların istifadəsi yüksək səmərə verər. Artıq interaktiv, elektron dərs və metodik vəsaitlərin, dərsliklərin tərtibi zamanı bu faktorlar nəzərə alınmalıdır. Belə olduqda təbiətşünaslıqdan tutmuş, ümumi biologiyaya qədər elm sahəsini təşkil edən bu cür elektron kitablarda öyrənənlər istənilən bioloji fakt və hadisəni təkrar öyrənə, yaxud müqayisə edə bilmək imkanına malik olacaqdır. Yaxın gələcəkdə elektron kitabların tədris sahəsinə geniş şəkildə daxil olacağına inanırıq. Çünki, bütün bu imkanlar təd-ris prosesinə qazandıran YTT (yeni təlim texnologiyaları) səmərəsini get-gedə artırmaqda və zərurətə çevirməkdədir. Ənənəvi kağız kitablarla elektron kitabları müqayisə etsək: «1.Elektron kitabda mətndə axtarış, böyük istinadlara keçid, qeyd və seçmə təsvir edilə bilər; 2.Bir qurğuda 1000-dən artıq kitab saxlanıla bilər; 3.Kiçik həcm və ölçüyə malik olduğu üçün daşınması asandır; 4.Şriftin formasını və ölçüsünü dəyişmək mümkündür; 5.Animasiyalı şəkillərə, multi-mediyalı təqdimatlara baxmağa imkan verir; 6.Elektron kitabın kağız kitabdan baha olmasına baxmayaraq, elektron mətn kağız mətndən xeyli ucuzdur; 7.Daxili proqramlar, nitq sintezator-ları, mətni səsləndirməyə imkan verir və s. Elektron kitabların digər özəlliyi isə oxucunu dinləyiciyə çevirmək xüsusiyyətidir ki, bu da müxtəlif variantlarda öyrənənin işini yüngülləşdir-məyə xidmət edir. Bu vasitə ilə XXI əsr insanını daha çox elmi və bədii ədəbiyyatların oxunma-sına istiqamətləndirmək mümkündür. Həqiqətən də internetdən, elektron resurslardan istifadə edənlər üçün elektron kitablar daha cəlbedici hesab olunur.

Məlumdur ki, Elektron Təhsil Resursları (ETR) – tədris məzmunlu elektron formadır və onları səsləndirmək üçün müxtəlif elektron mexanizm və maşınlardan istifadə edilir. ETR-lər adi dərslikdən fərqlənir və interaktivliyi isə şagirdin müstəqil işləməsini təmin edir. ETR - mətn, tekstoqrafik və multimediaya ayrılır. Elektron resursların müxtəlif istifadə formaları keçi-ləcək materialın həm mətn variantını, həm eyni zamanda mətn və diaqram, şəkil, cədvəl şəklində, həm də multimediali təqdimat kimi, illüstrasiyalar, səsli, tərkibində video, animasiya, audio, məzmun və interaktiv üsullardan istifadəsinə imkan yaradır. Təlim məqsədlərinin yerinə yetiril-məsində vacib şərti təlimin məzmununun uyğun olmasının təmin edilməsi və yeni standartların qəbul olunması, informasiya texnologiyalarının öyrənilməsinə geniş yer verilməsidir. Təlim texnologiyalarının durmadan təkmilləşməsi tədris prosesinə hər keçən gün yeni imkanlar yaradır. Yaxın illərdə kütləvi informasiyanın daşıyacağına inandığımız «Elektron kitab və ya E-book - 16 Mb elektron kitab fləş-yaddaşın köməyi ilə 3200 mətn səhifəsini və ya 10-a qədər orta həcmli kitabı yaddaşda saxlamağa qadirdir. Microsoft Word mətn redaktorlarında yaradılan DOC formatında, HTML və ya ZIP, RAR, ARJ mətnləri HTML dilinin vasitəsilə müxtəlif freym strukturların yaradılması, mətn və şəkillərin formalaşdırılması, siyahı və cədvəl strukturlarının təşkil edilməsi, şərh və istinadların daxil edilməsi əsasında yaradılır. İKT-nin sürətlə inkişaf etdiyi bir dövrdə hər bir müəllim daha da keyfiyyətli, səmərəli dərs təşkil etmək üçün texnologiyalardan istifadəyə üstünlük verməlidir. Eyni zamanda elektron dərslərin gerçəkləşməsi bir çox layihələrin yaranmasına səbəb olmuşdur. Buna misal olaraq qeyd edə bilərik ki, hal-hazırda elektron kitabxanalar, elektron test sistemi, elektron təhsil və s. elektron xidmətlər bu günki təhsil sistemimizin əsasını təşkil edir. Bu dərslər vasitəsilə uşaqlarda informasiyanın əhatəsi daha da genişlənir və əlçatmaz obyektlər öyrənənlərin canlı müşahidəsinə çevrilir. Elektron tədris vasitələrindən istifadə zamanı sinfə gətirilə bilməyən, yaxud tapıl-mayan əyani vəsaitləri asanlıqla izləmək mümkündür. Mənfi cəhətlərindən biri isə isə tez-tez hazır materiallardan istifadə edildikdə yaradıcı təxəyyülün inkişafını ləngitməsidir. Bu baxımdan dərs prosesinin təşkilində mövzuya uyğun metod və üsulların seçilməsi, dəyişdirilməsi, əyani vəsaitlərdən istifadə, interaktiv rejimin yaradılması vasib şərtlərdəndir.



Elektron, yoxsa ənənəvi kitab? İnternetin geniş imkanları artıq ənənəvi kitablara da təsir göstərmişdir. Belə ki, müasir dövrdə internetin zəngin informasiya ehtiyatları ilə yanaşı, kağız kitabları əvəzləyən elektron formatda kitabların, elektron kitabxana və ensiklopediyaların mey-dana gəlməsi həyatın bütün sahələrinə təsir etməkdədir. Xüsusən də yeni nəslin adi kitablardan daha çox elektron kitablara üstünlük verməsi internetin müəyyən qədər kitabların yerinə keçəsəyi ehtimalını artırır. Hazırda planşet və digər mobil cihazlardan elektron kitab oxu-yanların sayı kitabxanalarda kitab axtaranlardan çoxdur.

Bəs elektron kitablar həqiqətən də ənənəvi kitabları əvəz edə bilərmi? Və nə üçün gənclər elektron kitablara daha çox üstünlük verirlər? Əksəriyyət belə hesab edir ki, məhsul olaraq elek-tron və kağız kitabın fərqi yoxdur. Lakin elektron kitablar daha rahat və münasibdir. Əlbəttə za-man keçdikcə elektron cihazlarla kitab oxunması rahat olduğundan bəziləri üçün kağız kitabları əvəzləyəcəyi mümkündür. Bəzi tədqiqatçılar isə hesab edir ki, dünyada olduqca aktual olan elektron kitablar elektron qurğular vasitəsilə daha da geniş yayılmaqdadır. Bütün bunlar ölkəmizdə də elektron kitablara tələbatı artırdığından bu sahədə müəyyən çatışmazlıqlar nəzərə çarpır. Bu boşluğu aradan qaldırmaq üçün ali məktəblərdə professor-müəllim heyəti hazırladıqları dərslik və dərs vəsaitlərini elektron formata keçirmək üzərində düşünməlidirlər. Bəzi mütəxəssislər iddia edir ki, elektron kitabların çoxalması, kağız nəşrlərin sayının azalması isə ağacların kəsilməkdən qoruyacaqdır.

Bundan başqa, elektron dərsliklərdə axtarış funksiyaları mövcuddur ki, bu da xüsusi məlu-matların axtarılması prosesini sürətləndirir və asanlaşdırır. Elektron dərsliklər asanlıqla daşınan cihazlarda, o cümlədən kompüterdə, leptop, planşet və mobil telefonlarda istifadə oluna bilir. Elektron kitabda fayl dedikdə oraya - şəkil, qrafik, diaqram, səs də daxil edilə bilər. Elektron kitabları planşet kompüter sinfinə daxil etmək olar. Planşet fərdi kompüterin adi kompüterdən fərqi onun məhdud funksiyaları avtonom iş zamanı geniş vaxta malik olmasıdır. Müasir elektron kitablar adətən, sensorlu ekran ilə təchiz edilirlər və geniş funksiyalar toplusuna malik olurlar ki, bu da istifadəçinin tələbatlarını daha çox ödəyir. Ali məktəblərdə tələbələrin seminara hazırlıq, sərbəst işlərin hazırlanması zamanı verdiyimiz tapşırıqlar nəticəsində multimedialı təqdimatların hazırlanması və nümayişi bacarıqlarının formalaşdırılması onların orta məktəb təcrübələrində pedaqoji prosesin interaktiv üsul və texnologiyalarla təşkilində mü-hüm rol oynayır.

Artıq elektron təlim resurslarının (ETR) didaktik imkanlarının analizi informasiya təlim mühitinin həyata keçirilməsi probleminin həllinə istiqamətlənmişdir. Bu sahədə rəqəmsal kitabxanaların, elektron ensiklopediyaların da rolu böyükdür. Qloballaşma şəraitində təhsilin ən yeni və effektiv texnologiyalarına, o cümlədən bu istiqamətdə potensiallı kadrlara da ehtiyac yaranmışdır. Bu səbəbdən istər ali təhsil müəssisələrində tələbələrin, istərsə də orta məktəblərdə şagirdlərin müasir təhsil standartlarına uyğun hazırlanması qarşıda duran əsas vəzifələrdən biridir. Həmçinin öyrənənlərin tədqiqatçılıq meyllərinin və yaradıcılıq potensialının inkişafı da nəzərdən qaçırılmamalıdır. Cəmiyyətlərin inkişafı təhsilə qoyulan yatırımlardan asılıdır. Bu işdə professor-müəllim heyəti yenilikləri izləyən, müasir, dünya təcrübəsindən xəbərdar, ən yeni texnologiyalardan istifadə etmək potensialına malik olmalı və buna xüsusi səy göstərməlidirlər. Son aylar yaşadığımız problemlər bütün dünyada modern texnologiya və proqramlardan istifadənin zərurətini dərk etdirməklə yanaşı, müxtəlif sahə mütəxəssislərinin öz sahəsində yeniliklər etmək məcburuyyəti yaratmışdır. Qədəm qoyduğumuz yeni dünyada bizi hansı sürprizlərin gözlədiyini bilməsək də perspektiv planların hazırlanmasına başlamalıyıq. Bunun üçün də yeni formatda yaşamağa uyğunlaşmaq tələbinə şəxsi fəaliyyətlə cavab verilməlidir. Bu səbəbdən Azərbaycan dövləti istifadəmizə geniş imkanlar vermişdir. Naxçıvan MR və Naxçıvan Dövlət Universiteti, bütövlükdə Azərbaycan cəmiyyəti bütün dövrlərdə müxtəlif sahələrdə ilklərə imza atmışdır. Ümidvarıq ki, XXI əsrin təhsil sisteminə də öz töhfələrimizi verəcəyik.

**Zərövşən Babayeva**
***Zoologiya kafedrasının dosenti, pedaqogika üzrə elmlər doktoru***

# «MOLLA NƏSRƏDDİN» ONOMASTİK VAHİDİNİN YARANMASI

1906-cı ilin aprel ayında yazıçı-jurnalist Cəlil Məmmədquluzadənin müdirliyi və baş redaktorluğu ilə nəşrə başlayan «Molla Nəsrəddin»jurnalı Azərbaycan ədəbiyyatı, mətbuatı, publisistikası, eləcə də ictimai şüurunda köklü dəyişikliklər yaratmaqla bərabər, ədəbi dilimizə də əsaslı şəkildə təsir göstərdi. Əlbəttə, məcmuənin ədəbi dilə nüfuzu təsadüfi deyildi. Jurnalın ilk sayından başlayaraq böyük Mirzə Cəlil və onun mübariz qələm yoldaşları söz sənətində dil məsələsinə xüsusi diqqətlə yanaşır, ədəbi dili xalqın mənəvi sərvəti səviyyəsinə yüksəltmək uğrunda ciddi mübarizə aparırdılar. Ədib məşhur «Xatiratım»da həmin prosesləri diqqədə çəkərək yazırdı: «Və bizim dilçilərimiz ədəbi, fənni, akademik dili axtarınca «Molla Nəsrəddin» də açıq və sadə türk dili ilə vurdu nəinki tək bircə Kürü və Arazı keçdi, bəlkə Xəzər və Qara dəryaları da vurub Türkiyəyə və Türküstana və Kilana keçdi və uca-uca Qafqaz dağlarını aşıb, Qafqaza və Krıma və sair türk ölkələrinə keçdi ... Və bu 23 ilin təcrübəsi bizə bunu göstərdi ki, əgər məcmuəmiz türklərə çox asanlıqla dağılıb öz sözünü onlara çox açıq vəchlə yetirə bildi, bunun səbəbi məhz məcmuənin asan dilidir».

Əlbbəttə ki, «Molla Nəsrəddin»in təsiri bütövlüklə ədəbi dildə keyfiyyət dəyişiklikləri ilə nəticələndi. Obrazlı şəkildə desək, jurnal dil sahəsində köklü islahatlara başladı: dilin yad sözlərdən təmizlənərək saflaşdırılması uğrunda mübarizənin önündə getdi, ədəbi dillə xalq dilinin vəhdətinə nail oldu, yeni mərhələdə dil normalarının sabitləşməsi istiqamətində real təklif və nümunələrlə çıxış etdi.

Şübhəsiz ki, «Molla Nəsarəddin» jurnalının Azərbaycan onomastikasına gətirdiyi yenilikləri məxsusi dəyərləndirmək lazımdır. Qətiyyətlə demək olar ki, dilimizin onomik leksikasının, poetik onomastikasının zənginləşdirilməsi baxımından XX əsrdə fəaliyyət göstərən heç bir mətbu orqanımız «Molla Nəsrəddin»lə müqayisə oluna bilməz. Məhz «Molla Nəsrəddin» yeni realist nəsr və nəzmimizə, satirik publisistikamıza minlərlə tip, obraz, personaj adı qazandırdı, onimik prosesin yeni istiqamətlərini təqdim etdi. Fikrimizcə, Azərbaycan onomastikasında onomastik apelyativliyin, allonimliyin, koynonimliyin, təxəllüslərin antionim, akronim, stiqmonim kimi növlərinin, çoxsaylı kriptonimlərin ilkin mövcudluğu məhz «Molla Nəsrəddin»lə bağlıdır. Maraqlıdır ki, xüsusi onomastik proses olan transonimləşmənin bir çox modellərinə də öncə bu satirik məcmuədə rast gəlirik. Elə təkcə Molla Nəsrəddin oniminin semantikası deyilənlərə ən yaxşı nümunə ola bilər.

Təbii ki, məcmuənin birinci sayının, böyük Mirzə Cəlilin təbiri ilə desək, baş səhifəsində «Molla Nəsrəddin» onimik leksemini ilkin olaraq ideonim, daha konkret şəkildə nemeronim kimi görürük. Əlbəttə, hər bir əsərinin, əsərdəki hər bir surətin, obrazın adlandırılmasına xüsusi diqqət və məsuliyyətlə yanaşan, oxucu ilə təmasda nominatorluğu yüksək qiymətləndirən Cəlil Məmmədquluzadə öz mətbu orqanına ad seçimini gələcək fəaliyyətinin əsas göstəricisi səviyyəsində dəyərləndirmişdir. Budur, görkəmli yazıçının hələ «Molla Nəsrəddin»dən əvvəl nəşr etdirməyə çalışdığı «Novruz» qəzetinin adı ilə əlaqədar açıqlamaları: «Mən həmin min doqquz yüz beşinci ildə icazəsini istədiyim qəzetin adını «Novruz» qoymuşdum. Və ümidim bu idi ki, bir surətdə ki, xalqa azadlıq verilibdir və bir surətdə ki, təzə bir zamanə ortalığa gəlir, bəlkə bizim üçün də həqiqətdə təzə bir gün yazılıbdır. Və bəlkə də hökumət insafa gəlib bu qəzeti bizə şəfaət eləməklə bizim də «novruz»umuzun yavıqlaşmağına səbəb oldu».

O da məlumdur ki, «Novruz» adlı qəzetin çapına Qafqaz canişininin icazəsi olsa da, Cəlil Məmmədquluzadə hökumətin yeni həyat haqqında vədlərinə inanmadığından həmin qəzeti çıxarmaq fikrindən daşınmış, növbəti dəfə «Molla Nəsrəddin» adında satirik jurnalın nəşri üçün Tiflis qubernatoruna ərizə vermişdir.

Əlbəttə, bəşəriyyətin elm və mədəniyyət tarixinə nəzər saldıqda bir çox mütərəqqi kəşflərin təsadüflər nəticəsində gerçəkləşdiyini görərik. Lakin qibtəediləcək təfəkkür və təxəyyülü ilə hətta XXI əsrin insanını da heyrətə salacaq Cəlil Məmmədquluzadənin öz mətbu orqanı üçün təsadüfən ideonim tapmasına inanmaq doğru olmaz. Mübariz qələm sahibinin ilk satirik məcmuə üçün ad seçimi ilə bəlli faktlara görkəmli alimlərin biganə qalmadıqları da məlumdur: «...Cəlil Məmmədquluzadə 21 fevral 1906-cı ildə Tiflis qubernatoruna müraciət edərək, «Qeyrət» mətbəəsində çap olunmaq şərti ilə «müsəlman ədəbiyyatında əfsanəvi təlxək» kimi tanınan «Molla Nəsrəddin» adlı satirik- yumoristik jurnal çıxarmağa icazə verilməsini xahiş etmişdir».

Bu məlumatdakı «müsəlman ədəbiyyatında əfsanəvi təlxək» ifadəsinin xüsusi təhlilinə ehtiyac vardır. Əlbəttə ki, «Molla Nəsrəddin» onimi Azərbaycanda, eləcə də Şərqdə bir nemeronim kimi tanınmazdan çox-çox əvvəl bir poetik ad - məşhur lətifə qəhrəmanı olaraq böyük şöhrət qazanmışdı. Digər tərəfdən, «Molla Nəsrəddin» oniminin bu lətifə qəhrəmanı ilə bağlı təhlillərdə, ümumiyyətlə, «əfsanəvi təlxək» təyininə rast gəlmirik. Eyni poetik antroponimdən söz açan tədqiqatçılar akademik V.A.Qordlevskinin aşağıdakı şərhlərini diqqətə çəkməyi daha məqsədəuyğun sayırlar: «...Türkiyədə, Aralıq dənizi ölkələrində, vaxtı ilə Osmanlı imperiyasının hakimiyyəti altında olmuş ölkələrdə, Ruminiyada, Serbiyada, Krımda, Zaqafqaziyada, hər yerdə Xoca Nəsrəddini yaxşı tanıyırlar. Yunanlar, ərəblər, dağlı yəhudilər, uyğurlar və s. arasında Nəsrəddin məşhur şəxsiyyətdir... Xocanın kələklərindən bəhs edən ayrı-ayrı lətifələrə Hindistanda, Qərbi Avropada və bizdə təsadüf edilir...Zaman onlara təsir etməkdən acizdir, belə ki, Nəsrəddin haqqında lətifələr getdikcə çoxalır. Şərqdə Nəsrəddin hamının dərdinə qalan bir adama çevrilmişdir»

Beləliklə, satirik-yumoristik məcmuə nəşrinə çalışan Cəlil Məmmədquluzadənin Molla Nəsrəddini Tiflis Qubernatoruna «əfsanəvi təlxək» məqamında təqdim etməsi yal-




nız yazıçı-jurnalistin növbəti ədəbi-publisist müdrikliyi səviyyəsində dəyərləndirilməlidir. Fikrimizcə, bu zaman böyük Mirzə Cəlil həm saraylarda, həm də xalq arasında təlxək tərəfindən tam ciddi şəkildə söylənilən nöqsanların səmimi, digər tərəfdən etinasızcasına qəbul edildiyini nəzərə almış, bir nemeronim kimi satirik «Molla Nəsrəddin» məcmuəsinin çox mətləblərə aydınlıq gətirəcəyi səbəbindən təlxək statusundan faydalanmaq qərarına gəlmişdir. Qeyd edək ki, eyni ədəbi gedişin bir başqa formasına da Cəlil Məmmədquluzadənin xüsusi dəyər verdiyi Marağalı Zeynalabdinin yaradıcılığında, konkret desək, «İbrahim bəyin səyahətnaməsi» əsərində rast gəlirik: «İbrahim bəyin Tehran görüşləri ölkənin bədbəxtliyini tamlıqla üzə çıxarır. Görüşlərin təşkilatçısı isə gəncin hələ Misirdən tanıdığı, maraqlı yalanlar danışdığı, xüsusi yaltaqlıq bacardığı üçün dövlət rəhbərlərinin hörmətini qazanmış molla Məmmədəlidir. Məntiqi qənaətə görə, İranda yaxşı yaşamaqdan ötrü qabiliyyət, istedad deyil, hoqqabazlıq mühüm amildir».

Yeganə düzgün yol zahirən islam dinini təmsil edən, mahiyyətcə isə həqiqi islam elmindən çox-çox uzaqlarda dayanan, öz mövhumatları ilə Şərq dünyasına zərbə vuran yalançı dindarların cəbhəsini daxildən dağıtmaq idi. Bu məqamda Cəlil Məmmədquluzadənin Molla Nəsrəddin adını qəbul etməsi ilə qədim yunan filosofu Sokratın sofist kimi tanınması arasında bir eyniyyətin mövcudluğunu söyləyənlər haqlıdır: «Zahirən sofist kimi görünən Sokrat... ağlı ilə elə sofistlərin yalançı məntiqinə qarşı çıxırdı. Elə Mirzə Cəlil də böhran içərisində qalmış milli təfəkkürlərin faciəsində əsas günahkarlar kimi mollaları gördüyündən onlarla mübarizə məqsədilə Molla Nəsrəddinə çevrilmişdi».

Qeyd edək ki, ədalətin xeyrinə Molla Nəsrəddin adına üz tutan Mirzə Cəlil Lağlağı Sadıqdan tamamilə imtina etməmişdir. Budur, «Molla Nəsrəddin» məcmuəsinin ilk sayında işlədilən iki kriptonimdən biri «Molla Nəsrəddin»dirsə, digəri «Lağlagı»dır. Əlbəttə, bu fakt sonradan F.Nemanzadənin, C.Məmmədquluzadənin, Ə.Haqverdiyevin, R.Nəcəfovun satirik yazılarında işlədilən bir gizli imzanın mətbuat səhifələrinə Mirzə Cəlil tərəfindən gətirildiyini təsdiqləməkdədir.

Əlbəttə ki, Azərbaycanda, eləcə də Yaxın Şərqdə ilk satirik karikaturalı jurnalın redaktoru «Molla» titulunu qəbul etməklə fikir dolaşıqlığının yaranacağını da nəzərə almış, XX əsr Molla Nəsrəddininin obyektiv şəkildə ədalətin, haqqın tərəfində dayandığını, öz tənqidi realizmi ilə insanları zülmət dünyasından xilas etmək, ağılın təntənəsini gerçəkləşdirmək funksiyasını məxsusi diqqətə çəkmişdir. Bu baxımdan məcmuənin 28 aprel 1906-cı il tarixli 4-cü sayında nəşr olunan «Niyə məni döyürsünüz?» felyetonunun məxsusi təhlilinə ehtiyac vardır. Felyetondan məlum olur ki, jurnalın nəşrindən az bir müddət keçməsinə baxmayaraq artıq Molla Nəsrəddin din qardaşları, xüsusən də mövcud cəmiyyətdə böyük nüfuza və qüvvəyə malik mollalar tərəfindən təqiblərə məruz qalmışdır. Beləliklə, Molla Nəsrəddin-Cəlil Məmmədquluzadə özü ilə eyniadlı digər din nümayəndələrini fərqləndirməyi məqsədəuyğun saymış, bu məqamda da mövhumata qarşı mübarizəni diqqətdə saxlamışdır

Maraqlıdır ki, jurnalda transonimləşmə poetik antroponimdən məcmuə adına-nemeronimə keçməklə bitmir. Dərginin «Tiflis. 7 aprel» başlıqlı ilk yazısında «Molla Nəsrəddin»i yenidən surət adı, az sonra isə kriptonim kimi görürük. Eləcə də məcmuənin ilk sayındakı teleqramlar eyni adla əlaqələndirilir. «Bilməli xəbərlər»də isə «Molla Nəsrəddin» leksemi antroponimləşir, birbaşa jurnalın sahibinə–Cəlil Məmmədquluzadəyə aidliklə işlənir: «Molla Nəsrəddin nəzr edib məcmuəsini il başınadək göndərsin o şəxslərə ki, bu aşağıda yazılan suallara cavab yazıb göndərə idarəmizə:».

Göründüyü kimi, Cəlil Məmmədquluzadənin oxuculara ünvanlanan bu müraciətində Molla Nəsrəddin birbaşa jurnala məsul şəxs olaraq tanıtdırılır.

«Molla Nəsrəddin»in transonimləşməsində müəllif adı ilə gizli imzanın eyniyyət təşkil etməsi daha qabarıqdır. Doğrudur, Cəlil Məmmədquluzadə öz yazılarının sonunda «Lağlağı», «Dəli», « Adaş», «Mığmığ», «Goreşən» və başqa onlarla digər gizli imzalar da işlətmişdir. Lakin çox zaman Mirzə Cəlili məhz Molla Nəsrəddin kimi tanımışlar. Bu eyniyyəti nəzərə alan Qulam Məmmədli Cəlil Məmmədquluzadənin ömür yoluna və yaradıcılığına həsr etdiyi salnamənin «Molla Nəsrəddin» adı ilə nəşri səbəbini aşağıdakı məqamlarla bağlı açıqlamışdır: «Kitab sadəcə olaraq dırnaq arasına alınmadan – Molla Nəsrəddin adlandırılmışdır. Burada biz onu əsas götürmüşük ki, ədib yazılarında, ifadələrində, çıxış və söhbətlərində özünü çox vaxt Molla Nəsrəddin adlandırdığı kimi, onun dostları, məsləkdaşları, hətta rəsmi dairələrdə belə onu Molla Nəsrəddin deyə çağırmışlar».

O da var ki, «Molla Nəsrəddin» yalnız bir müəllifə məxsus təxəllüs olaraq qalmamış, Azərbaycan mətbuatında koynonim təxəllüsün ən mükəmməl nümunəsinə çevrilmişdir. Eyni səbəbdən «Azərbaycan onomastikası (İzahlı terminoloji lüğət)» kitabında koynonim təxəllüsdən bəhs edilərkən ilk əvvəl «Molla Nəsrəddin» diqqətə çəkilmişdir: «Koynonim təxəllüs - Bir çox müəlliflər tərəfindən işlədilən ümumi təxəllüs.

«Molla Nəsrəddin» C. Məmmədquluzadənin təxəllüsüdür. Lakin bu təxəllüsə eyni zamanda Ö.F.Nemanzadə və M.Ə.Sabirdə də təsadüf olunur.».

Bir onim olaraq Molla Nəsrəddinin semantikasına erqonimlik, həmçinin onomastik apelyativlik də daxildir. Ümumiyyətlə, Azərbaycan mətbuatı tarixində eqronimin – «Molla Nəsrəddin» redaksiyasının, yaxud idarəsinin işlədilməsi baxımından da Cəlil Məmmədquluzadənin satirik jurnalı birincidir. Qeyd edək ki, «Molla Nəsrəddin» eqronim məzmununda jurnal redaksiyasını bildirməklə yanaşı, ədəbi məktəb adını da ifadə etmişdir. Təsadüfi deyil ki, ilk dəfə ədəbi məktəb və cəbhə yaratması nöqteyi-nəzərindən də «Molla Nəsrəddin» Azərbaycan mətbuatı tarixində özünəməxsus yer tutmaqdadır. Məcmuənin adı ilə bağlı yaranan «mollanəsrəddinçi» və «mollanəsrəddinçilik» ifadələri isə artıq ideonimdən onomastik deonimik apelyativə keçid deməkdir.

**Qənirə Əsgərova**
***“Azərbaycan dili və ədəbiyyatı” kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru***

# “XEYİR VƏ ŞƏR” TAMAŞASI UNİVERSİTET TƏLƏBƏ TEATR STUDİYASININ YENİ UĞURUDUR

Bəşəriyyət yaranandan xeyirlə şərin mübarizəsi ədəbiyyatın daimi və ən qlobal mövzusu olub. Hələ antik ədəbiyyatın yarandığı ilk dövrlərdə aparıcı janrlardan biri olan dramaturgiyada əsas konflikt xeyirlə şərin üzərində qurulub. İnsan cəmiyyətində firavanlıq, xoşbəxt həyat arzusu ilə bədii əsərlər yaradan ədəbiyyat xadimləri öz əsərlərində xeyirin şər üzərində qələbəsini əsas ideya kimi təqdim etmişdir.

Dahi azərbaycan şairi, mütəfəkkir, dünya ədəbiyyatı xəzinəsinə dəyərli töhfələr verən Nizami Gəncəvi də bəşəriyyəti düşündürən mövzu kimi dəyərləndirilən xeyir və şər arasında gedən mübarizəyə öz əsərlərində geniş yer vermişdir. Yaratdığı əsərlərdə ədalətli hökmdar, insanlar arasında ülvi hisslərinin aşılanması, haqq və ədalətin qələbəsini arzu edən şair öz sələfləri kimi xeyirlə şərin mübarizəsini xeyirin qalib gəlməsi ilə sonlandırır.

Məlum olduğu kimi 2021-ci il dahi şairin anadan olmasının 880 illiyi ilə əlaqədar olaraq azərbaycanda “Nizami ili” elan edilmişdir. Naxçıvan Muxtar Respublikası mədəniyyət Nazirliyi, Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası, Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə Muxtar Respublikada fəaliyyət göstərən Ali və orta ixtisas təhsili müəssisələrinin tələbə teatr studiyaları arasında “Nizami dünyası adlı teatr müsabiqəsi keçirilir.

Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyasının təqdim etdiyi “Xeyir və Şər” tamaşası müsabiqədə xüsusilə diqqəti cəlb etdi.

1999-cu ildən akademik İsa Həbibbəylinin təşəbbüsü ilə yaradılan və Kamal Abdullanın “Beyrəyin taleyi” əsərinin tamaşası ilə ilk dəfə səhnəyə çıxan Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyası fəaliyyəti dövründə bir sıra uğurlu tamaşalara imza atıb . Studiyanın rəhbəri Gülxarə Əhmədovanın yaradıcılıq axtarışları teatr studiyasının daha da şöhrətlənməsinə və ətrafına istedadlı gənclər toplamasına səbəb olub. Teatr studiyası hazırladığı müxtəlif janrlı tamaşalarla Muxtar Respublikadan kənarda, Türkiyə Respublikasının bir neçə şəhərində də uğurla çıxış edib.



Məhz bu studiyanın fəaliyyətinin nəticəsidir ki, bu gün universitetdə, “Aktyor sənəti” ixtisası və “Teatr və mədəniyyətşünaslıq” kafedrası fəaliyyət göstərir.

Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyasının “Nizami dünyası” teatr müsabiqəsinə təqdim etdiyi “Xeyir və Şər” tamaşası bir sıra müsbət keyfiyyətləri ilə fərqlənir. Tamaşanın ssenarisini tərtib edən Azərbaycan Respublikasının əməkdar artisti, “Teatr və mədəniyyətşünaslıq” kafedrasının müəllimi Tofiq Seyidov Nizami şerinin poetikasını saxlamaqla rejissor üçün fərqli forma seçmə imkanı da yaratmışdır. Tamaşada xorun hadisələrin gedişinə yerli-yerində müdaxilə etməsi antik yunan dramaturgiyasının estetik prinsiplərinə söykənir.

Müəllifin yaratdığı imkanlardan bacarıqla istifadə edən tamaşanın quruluşçu rejissoru “Teatr və mədəniyyətşünaslıq” kafedrasının müdiri, Tələbə Teatr Studiyasnın rəhbəri, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, filologiya üzrə fəlsəfə doktoru Gülxarə Əhmədova Azərbaycan xalq oyun tamaşalarının estetik prinsipləri ilə antik yunan teatrının estetik prinsiplərini ustalıqla sintez edərək orijinal formalı, peşəkar rejissor yozumlu tamaşa yaratmağa nail olmuşdur. Tamaşanın ana xəttinin inkişafını şərtləndirən epizodlarda xorun müdaxiləsi, xorun hadisələrin mahiyyətini diktə edən pontomim hərəkətləri tamaşanın emosional gücünü artırmaqla yanaşı, həm də hadisələrə cəmiyyətin münasibətini ehtiva edir. Tamaşanın forma baxımından bütövlüyü xorun və pontomim səhnələrin yerində istifadə edilməsinin nəticəsidir. Azərbaycan meydan teatrının estetikasından bacarıqla istifadə edən quruluşcu rejissor tamaşada zaman və məkanın lakonik həllinə nail ola bilmişdir. Tamaşanın peşəkar səviyyəyə yüksəlməsinin əsas səbəblərindən biri də müəllif və rejissorun qarşılıqlı anlaşmasıdır.

Tamaşada diqqət çəkən məqamlardan biri də aktyor seçimidir. Məlum məsələdir ki, obrazların aktyorlar arasında düzgün bölünməsi tamaşanın uğurunun yarısı deməkdir. G.Əhmədova öz ənənəsinə sadiq qalaraq tamaşada yalnız “Aktyor sənəti” ixtisasında təhsil alan tələbələrlə kifayətlənməmiş, qeyri ixtisaslarda təhsil alan tələbələri də cəlb etməklə bütöv bir ansambl yaratmağa nail olmuşdur.

Tamaşada şah obrazının ifaçısı “Musiqi müəllimliyi” ixtisasında təhsil alan IV kurs tələbəsi, Türkiyə Respublikasının vətəndaşı Emre Erikin oyununda diqqət çəkən məqam Nizaminin bütün əsərlərində qırmızı xətt kimi keçən ədalətli şah obrazını yaratmasıdır. Aktyor sənəti ixtisasında təhsil almamasına baxmayaraq Emre oynadığı obrazı zəngin boyalarla təqdim etməyə nail ola bilmişdir.

Tamaşanın baş obrazı olan Xeyir rolunu “Aktyor sənəti” ixtisasının birinci kurs tələbəsi Xəlil Hüseynov canlandırır. Birinci kursda təhsil almasına baxmayaraq Xəlil obrazın daxili psixoloji vəziyyətini doğru təcəssüm etdirməyə nail ola bilmişdir. Rejissorun təklif etdiyi vəziyyəti özününküləşdirərək real çalarlarla təqdim etməsi tələbə aktyorun təklif edilmiş vəziyyətə yaradıcı yanaşmasının nəticəsidir.

Tamaşada Şər obrazını Aktyor sənəti” ixtisasının birinci kurs tələbəsi Nurlan Qafarzadə ifa edir. Nurlanın obrazın xarakter səviyyəsinə yüksəltmək üçün göstərdiyi səy öz müsbət nəticəsini vermişdir. Şərin ikili xarakterini açmaq üçün Nurlanın istifadə etdiyi ifadə vasitələri obrazın bütövləşməsinə xidmət edən əsas amillərdəndir. Hələ orta məktəbdə oxuduğu zamandan Naxçıvan Dövlət Uşaq teatrında oynadığı müxtəlif obrazlarla diqqət çəkən Nurlan topladığı təcrübədən bacarıqla istifadə edə bilmişdir.

Tamaşada kürd obrazının ifaçısı “Aktyor sənəti” ixtisası III kurs tələbəsi Sadiq Əliyev və kürd qızı obrazının ifaçısı “Aktyor ifaçılığının tarixi və nəzəriyyəsi” ixtisası üzrə I kurs magistrantı Vəfa Qurbanzadə də ümumilikdə obrazlarını tələb olunan səviyyədə ifa etməyə nail ola bilmişlər.

Tamaşanın musiqi tərtibatı da maraq doğurur. Həm Nizami Gəncəvinin fəlsəfi-poetik düşüncələrini, həm də hadisələrin ruhunu gücləndirən musiqi parçaları tamaşanın emosional təsirini artıra bilir. Ümumilikdə deyə bilərik ki, “Xeyir və Şər” tamaşası Naxçıvan Dövlət Universiteti Tələbə Teatr Studiyasının yeni uğurudur.

**Kamran Quliyev**
***Teatr və mədəniyyətşünaslıq kafedrasının müəllimi, Azərbaycan Respublikasının xalq artisti***

# XARİCİ DİLLƏR FAKÜLTƏSİ-DÜNYA STANDARTLARINA UYĞUN TƏHSİL

Naxçıvan diyarı hər zaman tarixin bütün sınaqlarından üzüağ çıxmağı bacarmış, naxçıvanlılar azərbaycan xalqının nümayəndələri kimi öz cəsarətləri, mərdlikləri sayəsində bütün çətinliklərə sinə gərmişlər. Təsadüfi deyil ki, müstəqil Azərbaycan Respublikasının dövlətçilik atributlarının əksəriyyəti də məhz Naxçıvanla bağlıdır.

Naxçıvan Muxtar Respublikasının ən parlaq-intibah dövrü hesab edə biləcəyimiz dövrü isə məhz müstəqillik illərindən başlayır. Müstəqillik qazandığımız ilk illərdən başlayaraq Naxçıvan Muxtar Respublikası iqtisadi, siyasi, elm-təhsil sahəsindəki nailiyyətlərinə görə hər zaman inkişaf modeli olmuşdur. Burada bütün sahələrdə icra olunan islahatlar məhz inkişafa hesablanmışdır.

Muxtar respublikada bütün sahələr dövlət qayğısı ilə əhatə olunmuşdur. Təhsil sahəsindəki inkişafın, təhsilə dövlət qayğısının ən bariz modeli isə Naxçıvan Dövlət Universitetidir. 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlayan ali təhsil ocağı böyük inkişaf yolu keçmişdir. 1972-ci ildə ümummilli liderimiz Heydər Əliyevin qərarı ilə Naxçıvanda Pedaqoji İnstitut yaradılmış, 1990-cı ildə isə institut Naxçıvan Dövlət Universiteti adlandırılaraq pedaqoji profilli dövlət universitetinə çevrilmişdir.

Muxtar respublika rəhbərinin xüsusi qayğısı ilə əhatə olunan universitetimiz ildən-ilə yeni-yeni uğurlara imza atmış, təhsil alan və təhsil verənlərinin, ixtisaslarının sayı artmaqla yanaşı, keyfiyyət göstəriciləri də ali təsil ocağını ölkə universitetləri arasında ilk sıralara qaldıra bilmişdir. Bu gün Naxçıvan Dövlət Universiteti ölkəmizdə universitet şəhərciyi olan, tərkibində tibb fakültəsi olan yeganə universitetdir. Ali təhsil ocağı burada təhsil alan əcnəbi tələbələrin sayına görə də liderdir. Maddi-texniki bazanın, yeni texnologiyaların tətbiqi, tədrisin səviyyəsinin yüksəldilməsi, tədris avadanlıqlarının, tədrisə köməkçi vəsaitlərin günü-gündən tələbata uyğun olaraq təkmilləşdirilməsi, xüsusilə də müəllimlərin ixtisaslarına uyğun olaraq müxtəlif yerli və beynəlxalq təlimlərə cəlb olunması isə peşəkar kadr hazırlığı işini daha da sürətləndirir. Bütün bunlar universitetin daim inkişafda olduğunun bariz nümunələridir.

Naxçıvan Dövlət Universitetinin inkişafını xarakterizə edən amillərdən biri də ilbəil sayı artan və maddi-texniki bazası zənginləşdirilən tədris binalarıdır. Bu il bu binaların sırasına daha biri-Xarici dillər fakültəsi də əlavə olundu. Bir neçə gün əvvəl müəllim və tələbələrin istifadəsinə verilən tədris binasında ən müasir texniki avadanlıqlar və tədrisə köməkçi vəsaitlərlə zənginləşdirilmiş müxtəlif təyinatlı otaq və tədris kabinələri yaradılmışdır.



Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan tədris korpusunun zirzəmisində 2 linqafon kabinəsi, 6 auditoriya, bufet, qarderob və qazanxana yerləşir. Birinci mərtəbədə 5 auditoriya, tərcümə mərkəzi, tədris-metodiki mərkəz, ingilis dili və metodika, Roman-german dilləri kafedraları, Alman dili mərkəzi, multimediya otağı, Fransız dili mərkəzi vardır. İkinci mərtəbədə 6 auditoriya, 50 yerlik auditorium, kompüter sinfi, xarici ölkə ədəbiyyatı kabinəsi, İngilis dili mərkəzi, İngilis dili və tərcümə kafedrası, dekanlıq, dekan və dekan müavini otaqları, üçüncü mərtəbədə isə 7 auditoriya, sinxron tərcümə, Rus, Ərəb, Fars dilləri mərkəzləri, Rus və Şərq dilləri kafedrası, həmçinin 80 yerlik iclas zalı istifadəyə verilib. Fakültədə İngilis dili və metodika, Roman-german dilləri, İngilis dili və tərcümə, Rus və Şərq dilləri kafedraları, xarici ölkə ədəbiyyatı və 2 linqafon kabinəsi, eləcə də "Tədris – metodiki mərkəz", "Sinxron tərcümə mərkəzi", "Fransız dili", "İngilis dili", "Alman dili", "Rus dili", "Ərəb dili", "Fars dili" mərkəzləri və "Tərcümə mərkəzi" fəaliyyət göstərir.

Xarici dillər fakültəsində İngilis dili müəllimliyi, Fransız dili müəllimliyi, Alman dili müəllimliyi, Rus dili müəllimliyi, Tərcümə (İngilis-Azərbaycan dilləri), Tərcümə (Ərəb-Azərbaycan dilləri), Tərcümə (Fars-Azərbaycan dilləri) olmaqla, 7 ixtisas üzrə 433 tələbə təhsil alır ki, onlardan 6-sı Türkiyə və Banqladeş vətəndaşıdır.

Tədris korpusunda 12 elektron lövhə, 7 proyektor, 112 kompüter quraşdırılıb və sürətli internetə çıxış təmin edilib.

Fakültə binasında quraşdırılmış ekran vasitəsilə "Universitet" televiziyasının ingilis dilində xəbər buraxılışları da yayımlanır.

Naxçıvan Dövlət Universiteti Azərbaycan ali təhsil sistemində sinxron tərcümə mərkəzi olan ilk universitetdir. Sinxron tərcümə mərkəzi fakültədə tədris olunan dillərə aid xüsusilə də şifahi tərcümə fənlərinin daha peşəkar şəkildə öyrədilməsi, tələbələrin əyani vəsait və vasitələrlə təlimə cəlb olunması baxımından əvəzedilməz əhəmiyyətə malikdir. İstər tədris prosesi, istərsə də fənlərə dair biliklərin yekun qiymətləndirilməsi üçün quraşdırılan texniki avadanlıqlar müstəsna rola malikdir. Sinxron tərcümə otağı ardıcıl və sinxron tərcümə fənlərinin tədrisi zamanı praktiki cəhətdən çox mühüm əhəmiyyətə malik tədrisə köməkçi vasitədir.

Fakültədə istifadəyə verilən ən müasir texniki avadanlıq və tədrisə köməkçi proqram təminatı ilə təchiz olunmuş; hər biri 20 tələbə yerlik olmaqla 2 otaqdan ibarət olan linqafon kabinələr xüsusilə də dinləmə dərslərinin tədrisi üçün ən vacib olanlardandır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun da otaqlara baxış zamanı vurğuladığı kimi, dil dərslərinin tədrisi prosesində linqafon kabinələrin rolu əvəzedilməzdir. Kabinələrdəki bütün kompüterlər sürətli internetlə təmin olunmuşdur. Linqafon kabinələrdə əsas komputer-mərkəzli idarəetməyə malik xüsusi proqram həm müəllim-tələbə mobilliyini artırmaq, həm də vaxta qənaət baxımından tədris zamanı xüsusi əhəmiyyət kəsb edir. Belə ki, bu proqram vasitəsilə tələbələrin istifadəsində olan 20 kompüterə eyni anda tam nəzarət edə bilməklə yanaşı, həm də material mübadiləsi, elektron jurnal, hər fənn və sinif üçün xüsusi səhifə aça bilmək, söhbət, tapşırıq göndərmək və hazır tapşırıqların yoxlanılması funksiyaları bu proqramın səmərəliliyini daha da artırmış olur. Quraşdırılmış ekran vasitəsilə tələbələrin kompüterlərinin və ya hər hansı xüsusi bir materialın ümumi nümayişi də mümkündür.

Müxtəlif otaqlarda quraşdırılmış sürətli internetə çıxışı olan, elektron lövhə və kompüterlərlə və əyani vəsaitlərlə təchiz edilmiş otaqlar praktiki dərslərlə yanaşı, həm də mühazirə dərslərinin daha səmərəli və innovativ üsullarla tədrisi üçün çox əhəmiyyətlidir. Belə ki, müəllimlərin hazırladıqları mühazirə-təqdimatlar və video materiallar dərsləri daha maraqlı edir; xarici ölkə ədəbiyyatı kabinəsində üç kateqoriyada toplanmış ədəbiyyata aid nəzəri kitablar və müxtəlif dillərdəki əsərlər tələbələr üçün materialları daha da əlçatan edir.

Yaradılan şərait, qurub-yaradılan imkanlar hər kəsi daha məhsuldar çalışmağa sövq edəcək və fakültədə dərs deyən müəllimlər və təhsil alan tələbələr yaradılan şəraitdən maksimum faydalanacaq və muxtar respublikanın elmi, ictimai mühitinə öz töhvələrini vermiş olacaqlar.

**Aidə Cəlilzadə**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, "İngilis dili və tərcümə" kafedrasının baş müəllimi***

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ TELEVİZİYASI MUXTAR RESPUBLİKA YAYIMINDA

Jurnalist əməyinə böyük hörmətlə yanaşan Heydər Əliyev "dördüncü hakimiyyət" nümayəndələrini cəmiyyətin aparıcı qüvvəsi hesab edirdi, onların qaldırdıqları problemlərə həssaslıqla yanaşırdı. Görkəmli siyasətçi müstəqil dövlətimizdə, sözün həqiqi mənasında, azad, xalqa xidmət edən jurnalistikanın formalaşmasına böyük töhfələr vermiş, mətbuatın qaldırdığı problemlərə həssaslıqla yanaşmışdır. Ulu öndər hər zaman KİV-lərin cəmiyyətdə rolunu yüksək qiymətləndirmiş, bu məsələyə böyük önəm vermişdir. Heydər Əliyev həm ölkə daxilində, həm də xaricə səfərləri zamanı onu müşayiət edən mətbuat nümayəndələrinə xüsusi diqqət ayırmış, jurnalistlərin suallarını təmkinlə və səmimi şəkildə cavablandırmış, onların fəaliyyəti ilə yaxından maraqlanmışdır. Məhz bu xüsusiyyətlər dahi lideri ölkə jurnalistlərinin sevimlisinə, dostuna çevirmişdir. "Ruh" Jurnalistləri Müdafiə Komitəsinin təsis etdiyi "Jurnalistlərin dostu" mükafatı 2002-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə təqdim olunarkən ulu öndər söz azadlığı, aşkarlıq, demokratiya şəraitindən sui-istifadə edib həqiqətə uyğun olmayan məlumatları dilə gətirən mətbuat nümayəndələri barədə demişdir: "Bəzən jurnalist haradasa hansısa faktı eşidir, oturub yazır və bir az da ona öz fikirlərini əlavə edir. Amma bu faktı araşdıranda, müəyyən adamlarla görüşəndə aydın olur ki, məsələ belə deyil, başqa cürdür. Ona görə də mən istəyirəm ki, jurnalistlərlə bizim dostluğumuz daimi olsun. Bilin, mən jurnalistləri həmişə sevmişəm". Jurnalistika sənəti Heydər Əliyevə həmişə yaxın olub. Özünün etiraf etdiyi kimi, jurnalistika çətin sənətdir və bu peşədə çalışanlar hər cür hörmətə, ehtirama layiqdirlər.

Bu gün isə ulu öndər Heydər Əliyevin siyasi kursunu onun layiqli varisi Prezident İlham Əliyev uğurla davam etdirir. Ölkə rəhbərinin mətbuat sahəsinə göstərdiyi xüsusi diqqət və qayğı, onun ölkədə jurnalistika və jurnalistlərlə bağlı problemlərin həlli istiqamətində atdığı addımlar bu sahənin sürətlə inkişaf etməsinə, KİV-lərin fəaliyyətinin genişlənməsinə və peşəkarlıq səviyyəsinin yüksəlməsinə səbəb olub.

Hazırda dövrün tələblərinə cavab verən ixtisaslı kadrların yetişdirilməsi elə də asan iş deyil. Nəzəriyyəni öyrəndik, bəli, bəs praktika? Hər kəsə bəllidir ki, təcrübə olmadan peşəkar kadr kimi üzə çıxmaq mümkün deyil. Nəzəriyyəni praktikada uğurla tətbiq edənlər peşəkar jurnalist kimi özünü təsdiqləyir.

"Jurnalistika xüsusi qabiliyyət tələb edən sahədir" və aktyorluq, bəstəkarlıq, rəssamlıq və digər qabiliyyət tələb edən sənət sahələri kimi burada da yaradıcı şəxsdən xüsusi qabiliyyət tələb olunur. O da yaradıcı şəxs olduğundan onun qabiliyyəti, bacarığı, baş verən hadisələr haqda düzgün mülahizələri, şərhləri, icmalları böyük önəm kəsb edir. Hər kəs Azərbaycanda və xaricdə baş verən gerçəklikləri biz jurnalistlərin dilindən və qələmindən süzülən sözlərlə alır. Bu mənada jurnalistdən xəbəri hazırlayarkən yüksək peşəkarlıq, ixtisası mənimsəməklə yanaşı, insanları inandıra bilmək bacarığı da tələb olunur.

Muxtar respublikamızda isə jurnalist kadrlara olan ehtiyacı nəzərə almaqla Naxçıvan Dövlət Universitetində 2001-ci ildən Jurnalistika ixtisası üzrə kadr hazırlığına başlanılıb, 2002-ci ildə Jurnalistika və dünya ədəbiyyatı kafedrası təşkil olunub. 2002-ci il mən Naxçıvan Dövlət Universiteti "Jurnalistika" ixtisasına qəbul olunanda ixtisasımızın yaranmasının cəmi bir il tarixi var idi. Onda universitetimizdə nə media mərkəzi, nə vaxtaşırı çıxan qəzet, nə də ki, Ali Məclisin Sədri cənab Vasif Talıbovun tələbələrin müvafiq qurumlara hamiliyə verilməsi ilə bağlı mühüm Sərəncamları var idi. Universiteti bitirdiyim 2006-cı ildən isə artıq ali təhsil ocağımızda Media mərkəzi quruldu və öz fəaliyyətinə başladı. Studiya, rejissor və montaj otaqları, redaksiya otağı, auditoriyalardan ibarət olan televiziya Naxçıvan MR Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə ən son texniki avadanlıqlarla təchiz edilərək tələbələrin təcrübi bazasına çevrildi. Artıq "Jurnalistika" ixtisası üzrə təhsil alan tələbələr öz nəzəri biliklərini Media mərkəzi nəzdində tətbiq etməyə başladılar. Nəzəri biliklərlə yanaşı təcrübi vərdişlərin də xüsusi önəm kəsb etdiyi jurnalistika sahəsi öz fəaliyyətini bu istiqamətdə formalaşdırdı. Tələbələrin müxtəlif verilişlərin çəkilişində iştirak etməsi, "Nuhçıxan" radiosunun efirində səsləndirdikləri proqramlar və müxtəlif formatda hazırlanan verilişlər onların peşəkar jurnalist kimi formalaşmasına stimul verdi. Artıq öyrənilən nəzəri biliklər təcrübi yolla daha asan mənimsənilirdi.

Bu gün bir anlığa dönüb arxaya baxanda universitet mediasının nə böyük bir yoldan keçdiyinin şahidi oluruq. Magistr təhsilimi də doğma universitetimizdə almağa başlayanda hər cür şəraitdən bəhrələnən bir tələbə kimi fəxr duyur və gələcəkdə bu ixtisasın müəllimi olmağı qarşıma bir məqsəd olaraq qoymuşdum. "Jurnalistika" ixtisasında nəzəri dərsləri tədris etməklə bərabər gələcəyin jurnalistləri ilə təcrübi məşğələlər aparmaq da məqsədlərim sırasına daxil olmuşdu. Mənə dərs deyən müəllimlərlə birgə jurnalist kadrların hazırlığına xüsusi həvəs və bacarıqla başlamaq istəyirdim. Dərs dediyim



auditoriyalarda tələbələrə dərslə yanaşı jurnalist olmaq üçün xüsusi qabiliyyətlərin olmasını, tələbələrin elmi bilikləri ilə bərabər onların dünyagörüşlərinə də təsir etməyi qarşıma hədəf olaraq müəyyənləşdirirdim. Düşünürdüm ki, müəllim auditoriyada dərs deməklə bərabər tələbələrin dostu, sirdaşı da olmağı bacarmalıdır.

Bugün universitetin Media mərkəzinə rəhbərlik etmək məsuliyyətimizi nə qədər artırırsa, işimizə olan həvəsimizə də bir o qədər təsir edir. Tələbələrin yüksək həvəslə bu mərkəzə üz tutması və onlarla hazırlayıb ərsəyə gətirdiyimiz verilişlər, qələmə aldıqları yazılar, radio efirində hazırladıqları verilişlərdə səsləndirdikləri fikirlər onlardan çox biz-müəllimləri sevindirir, ruhlandırır və daha həvəslə çalışmağımıza sövq edir.

"Jurnalist" ixtisasının qabiliyyət əsasında seçilməsi işimizi daha da asanlaşdırır. Artıq təsadüfi adamlar bu ixtisası seçmir. Xüsusi qabiliyyəti, istedadı ən əsası isə bu sahəyə xüsusi marağı olan tələbələr bu ixtisasda təhsil alırlar. Universitetə qəbul olunduqları elə birinci kursdan tələbələrin bacarıqları öyrənilir və onlar mətbuat, radio və televiziya sahəsi üzrə peşəkar kadra çevrilirlər. Bu gün fəxrlə deməli olar ki, universitetimizə səfər edən xarici qonaqlar belə Media mərkəzimizdə olarkən burada olan imkanlardan ağızdolusu danışırlar. İnsan bəzən içərisində olduğu durumu görmür, kənardan deyilən hər söz ona sanki yeni məlumat, fikir çatdırır. Universitetimizə səfər edən qonaqların Media mərkəzində olduqları zaman dedikləri fikirləri, burada mövcud olan şəraitdən yüksək həvəslə danışmaqları məni daha da ruhlandırır və burada çalışmağım üçün fəxr duymağıma səbəb olurdu.

Müasir dövr informasiya bolluğu şəraitində xəbərləri, məlumatları daha çevik və operativ olan informasiya saytlarından alırıq. Bu gün gənc nəslin əlində çox böyük imkanlar var. Sosial şəbəkə istifadəçiləri olan gənclər paylaşdığı hər bir statusda, yazdığı rəydə ilk öncə kimliyini, mənəviyyatını yaddan çıxarmamalıdır. Auditoriya çoxluğu nəzərə alınmaqla bütün sosial şəbəkə istifadəçiləri vətən, xalq millət naminə öz bacarığını ortaya qoymalıdır. 44 günlük II Qarabağ müharibəsində də biz sosial medianın artan nüfuzunu müşahidə etdik. Hər kəs Ali Baş Komandan Cənab İlham Əliyevin tvitterdə paylaşdığı statusları izləmək fürsətini əldən vermədi. Məhz hər cür fəaliyyət sahəsində birgəliyimiz və həmrəyliyimiz bizi qələbəyə apardı. Universitetimizin professor-müəllim heyəti başda olmaqla bütün tələbə kontingenti də bu istiqamətdə öz fəallığını əsirgəmədi. Ali təhsil ocağının tələbələrinin cəbhəyə göndərdiyi məktublar, çəkilən videoçarxlar, Universitet televiziyasında hazırlanan verilişlər, tələbə kollektivinin birgə ərsəyə gətirdiyi və Azərbaycan mediasına belə səs salan fləşmob aksiyası xalqla ordu vəhdətinin təntənəsindən doğan çağırışlar idi.

Fevral ayından etibarən universitet televiziyası artıq muxtar respublikada yayımına başlayıb. Bu günə qədər auditoriyamız ancaq universitet kollektivi olsa da, bu gün muxtar respublika əhalisi bizi izləyir və qiymətləndirir. Bu da bizim işimizə olan məsuliyyətimizi daha da artırır, peşəkar kadr kimi formalaşan gənc jurnalistlərin üzərinə daha böyük öhdəliklər qoyur. İnanırıq ki, dövlətçilik ənənələri ilə sıx bağlı, vətənini, xalqını cani-könüldən sevən bir gənclik, dərslərinə xüsusi həssaslıqla yanaşan tələbə-jurnalistlərin hesabına biz bu şərəfli və olduqca məsuliyyətli işin öhdəsindən layiqincə gələcəyik. Müasir dövrdə medianın artan nüfuzu azad sözün cəmiyyətə gərəkliliyinin artdığı dövrdə isə gələcəyin jurnalistlərindən tələb olunanları etməyə çalışacağıq. İnsan əzmi, iradəsi, məsuliyyəti qarşısında bütün çətinliklər acizdir. Biz də inanırıq ki, tələbələrin yüksək enerjisi, bacarığı və həvəsi sayəsində Ali Məclis Sədrinin bizə olan yüksək etimadını doğruldacağıq. Biz müəllimlər də tələbələrin bacarıqlarının ortaya çıxarılması qiymətləndirilməsi üçün öz səylərimizi ortaya qoyacağıq. Azad söz, azad mətbuat ənənələrinə sadiq qalan muxtar respublikada jurnalistikamızın daha da inkişafı naminə öz səy və bacarıqlarımızı əsirgəməyəcəyimizə inanırıq.

Ali Məclisin Sədri cənab Vasif Talıbovun dəyərli fikirlərini özümüzə örnək, həyat yolu seçərək işimizdə daha məsuliyyətli olmağa və bizə göstərilən etimadı doğrultmağa çalışacağımıza inanırıq. Mətbuat işçiləri dövrün salnaməsini yaradan və onu gələcəyə daşıyanlardır. Muxtar respublikada jurnalistlərin fəaliyyəti üçün yaradılan şərait qarşıya qoyulan vəzifələri yerinə yetirməyə imkan verir. Bu gün dünyada mövcud olan mətbuat qurumların mətbuat sahəsinə nəzər saldıqda, müqayisə etdikdə bir daha aydın olur ki, muxtariyyət statusu bizdən daha çox olanlarda belə Naxçıvandakı qədər mətbuata qayğı göstərilmir, şərait yaradılmır. Televiziya, qəzet və digər media qurumları yaratmaq işin bir tərəfidir. Amma əsas məsələ onların səmərəli fəaliyyətinə nail olmaqdır. Bu gün muxtar respublikamızda mətbuat orqanlarının səmərəli fəaliyyəti digər media orqanlarının yaranması üçün əsas verir.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# DİSTANT TƏHSİLDƏ VİRTUAL LABORATORİYALARIN ƏHƏMİYYƏTİ

Bu gün dünyada tüğyan edən yeni növ koronavirus (COVID-19) pandemiyası bir çox sahələrdə əsaslı çətinliklər yaratdı. Pandemiya dünyada gözlənilməyən problemlər meydana gətirdi.

Bildiyimiz kimi, pandemiya bütün sahələrə, o cümlədən təhsil sisteminə də təsirsiz ötüşmədi. 2020-ci ilin mart ayından bütün dünyanı bürüyən COVID-19 səbəbi ilə bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da tədris ənənəvi formadan qismən onlayn tədrisə keçdi və beləliklə distant təhsilə keçidə tələbat yarandı. Distant Təhsil Sistemi müəllim və tələbənin eyni məkanda olma məcburiyyətini ortadan qaldıran sistemdir. Məsafəli təhsil tələbə ilə müəllimin fiziki olaraq eyni bir mühitdə olmamasını təşkil edən texnologiyadır.

Distant təhsil öyrədən və öyrənən arasında əlaqəni telekommunikasiya və kompüter şəbəkələri vasitəsilə operativ, müntəzəm dialoq, əks əlaqə əsasında, uzaq məsafədən həyata keçirir. Distant təhsildə informasiyalar öyrənənlərə elektron materiallar, elektron dərslik, virtual laboratoriyalar, audio-video disklər və s. formalarda təqdim edilir. Distant təhsildə tədris metodik kompleksdən, kompüter, multimedia texnikası və s. kimi təlim vasitələrindən istifadə olunur.

Naxçıvan Dövlət Universitetində yaradılan distant təhsil platformasında Öyrənmənin İdarəolunması Sistemində (LMS - Learning Management System) artıq hər bir müəllimin, tələbənin adı, fənnlər, tədris planları sistemə daxil olunub, elektron mühazirə otaqları yaradılıb. Bu platforma vasitəsi ilə tələbələrə mühazirələrin, video dərslərin, kurs işi və sərbəst iş mövzularının çatdırılması nəzərdə tutulur. Sistemdə eyni zamanda tələbələrin öyrənməsinə nəzarət üçün onlara test və ya açıq tipli sualların verilməsinin həyata keçirilməsi də mümkündür.

Distant təhsil platformasında təhsil mühiti video və audio mühazirələrdən, elektron dərsliklərdən, interaktiv testlərdən, forumdan, tələbə-tədris materialları-müəllim arasında qarşılıqlı fəaliyyəti təmin edə bilən texnologiyalardan bəhrələnir. Elektron təlim (e-Learning) dedikdə, müəllim və tələbənin hər hansı elektron təlim mühitindən istifadə etməklə təlim prosesinin təşkili nəzərdə tutulur. Onlayn təlim internet üzərindən real zamanda həyata keçirilən tədris fəaliyyətidir. Bu cür təlim müəllim və tələbənin qarşılıqlı interaktiv əlaqəsidir. Adətən, bu mühit özündə dörd təhsil məkanını birləşdirir: videoteka, mediateka, virtual laboratoriya və onlayn repetitorluq.

Artıq müasir tədris prosesinin aktiv tədris metodlarını təmin edən interaktiv, multimedia ilə zəngin təhsil mənbələrindən istifadə edərkən daha effektiv olacağı müəyyən edilmişdir. Təhsil mənbələri və virtual reallıq sistemləri tələbələrə ən yaxşı şəkildə köməklik edir. Bu cür elektron qaynaqlara bir nümunə, kompüter təhsil mühitində real dünya obyektlərinin davranışlarını simulyasiya edə bilən və şagirdlərə, tələbələrə bir sıra fənlər üzrə yeni bilik və bacarıqlar əldə etməyə kömək edən virtual laboratoriyalardır.

Virtual laboratoriya real laboratoriya qurğusu ilə təmasda olmadan, qurğusuz təcrübə aparmağa imkan verən proqram-aparat kompleksidir. Tələbə virtual laboratoriyada "bilik əldə etməklə öyrənmə” prinsipinə əsaslanaraq əldə etdiyi biliyi praktikada tətbiq edə bilir. Tələbə interaktiv dərsdə verilmiş çalışmanı həll edir və qarşısına çıxan çətinliklər, çalışmanın həll üsulları, alqoritmləri və mümkün səhvlər barəsində öz rəyini bildirir. İnteraktiv çalışmaların köməyi ilə simvolik-konstruktiv və qavrayış-inkişaf üsulları tələbəni yaradıcı düşünməyə, eyni məsələyə müxtəlif prizmalardan baxmağa və arqumentləşdirilmiş axtarış aparmağa sövq edir.

Onlayn laboratoriyalar iki növ aparat və proqram sisteminə malikdir: uzaq laboratoriyalar - İnterfeys proqramının köməyi ilə tələbələrin təcrübələr həyata keçirmələrini təmin edən rəqəmsal platforma və ya uzaqdan girişi olan laboratoriya qurğuları kompleksi; virtual laboratoriyalar-laboratoriya təcrübələrini simulyasiya etməyə imkan verən proqram.

Eyni zamanda, "virtual laboratoriya" və "virtual uzaq laboratoriya" kimi anlayışları ayırmaq lazımdır. Virtual laboratoriyanın əsasını kompüter proqramı və ya bəzi proseslərin kompüter modelləşdirilməsini həyata keçirən əlaqəli proqramlar dəsti təşkil edir. Virtual uzaq laboratoriya, müxtəlif elmi mərkəzlərə mənsub olan və internet sayəsində qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri ilə bağlı olan bir neçə qrup alimin şəbəkəli təşkilati quruluşudur.

Tələbələr virtual lablardan həm onlayn, həm də offlayn istifadə edə bilər. Onlardan bəzilərinə qısaca nəzər salaq. Məsələn, Virtulab.Net virtual tədris laboratoriyalarına həsr olunmuş inkişaf etmiş ixtisaslaşmış portallardan biridir. Sayt tələbələrə fizika, kimya, biologiya, ekologiya, informatika və digər fənlər üzrə virtual təcrübələr aparmağa imkan verən tədris interaktiv işləri təqdim edir. Bu, pulsuz bir onlayn resursdur.




Virtual laboratoriyaların yaradılmasında məqsədlərdən biri öyrənilən proseslərin hərtərəfli vizuallaşdırılmasına çalışmaqdır və əsas vəzifələrdən biri tələbənin işi tam qavramasını və onların mahiyyətini dərk etməyə hazırlaşmağını təmin edilməsidir. Virtual laboratoriyalar ətrafdakıların obyektlərini və proseslərini simulyasiya etməyə, həqiqi laboratoriya avadanlıqlarına çıxışını təşkil etməyə imkan verir.

Virtual laboratoriyaların ənənəvi laboratoriyalarla müqayisədə digər üstünlükləri də ondan ibarətdir ki, birincisi, bahalı avadanlıq və təhlükəli radioaktiv materiallar almağa ehtiyac yoxdur. İkincisi, laboratoriya şəraitində axını olmayan prosesləri simulyasiya etmək mümkün olur. Xüsusilə, molekulyar fizika və termodinamikaya dair klassik laboratoriya işlərinin əksəriyyəti qapalı sistemlərdir, bunların çıxışı zamanı müəyyən bir elektrik miqdarları ölçülür, bundan sonra elektrodinamika və termodinamik tənliklərindən istifadə edərək istənilən miqdar hesablanır. Təcrübədə baş verən bütün molekulyar kinetik və termodinamik proseslər müşahidə üçün əlçatmaz qalır. Bu fizika sahələri üzrə virtual laboratoriya işləri apararkən, şagirdlər, tələbələr cizgi modellərindən istifadə edərək, öyrənilən fiziki və kimyəvi proseslərin müşahidəsi üçün əlçatmaz olan dinamik təsvirləri, eyni zamanda fiziki kəmiyyətlərin müvafiq asılılıqlarının qrafik quruluşunu müşahidə edə bilərlər.

Virtual laboratoriyaların ənənəvi laboratoriyalardan başqa bir üstünlüyü onun təhlükəsizliyidir. Xüsusilə işin yüksək gərginlikli və ya təhlükəli kimyəvi maddələrlə aparıldığı hallarda virtual laboratoriya işinin istifadəsi zamanı təhlükəsizliyin olması vacib xüsusiyyətlərdəndir.

Müasir dövrdə kompüter modelləşdirmə texnologiyalarının bu sahəyə tez bir zamanda gəlməsi təəccüblü deyil. İndi texnoloji bazarda virtual təlim təcrübələri aparmaq üçün hazırlanmış bir sıra proqram paketləri (Virtual laboratoriya inkişaf proqramları) mövcuddur. Virtual laboratoriya yaratmaq üçün 3D qrafika, video, səs və s. istifadə olunur. Əvvəllər Veb əsaslı virtual laboratoriya tətbiqlərində bu xüsusiyyətlər HTML tərəfindən dəstəklənmirdi. Müxtəlif fərqli internet brauzer istifadəçiləri fərqli yöntəmlərdən istifadə etməli idilər. Bununla birlikdə, HTML 5-in tətbiqi ilə bu problemlər əhəmiyyətli dərəcədə aradan qaldırıldı. Virtual laboratoriya dizaynerlərinin tez-tez istifadə etdikləri EJS (Easy Java Simulation) kimi vasitələr, yüksək səviyyəli proqramlaşdırma biliyi olmayan istifadəçilərin də virtual laboratoriyanın riyazi modellərinə görə araşdırmalar aparmağa imkan verdi. Ayrıca Matlab, LabWIEW, Php, java, həm virtual həm də uzaq laboratoriyaları inkişaf etdirmək üçün Corba, VRML kimi platformalar da geniş istifadə olunur.

Bununla birlikdə, virtual laboratoriyaların ənənəvi laboratoriyadan fərqli cəhəti tədqiqat obyekti, alətlər, avadanlıqla birbaşa əlaqə olmamasıdır. Yalnız bir kompüter ekranından texniki bir obyekt görən bir mütəxəssis yetişdirmək tamamilə mümkün deyil. Buna görə də ən yaxşı həll ənənəvi və virtual laboratoriya işlərinin üstünlüklərini və çatışmazlıqlarını nəzərə alaraq tədris prosesinə birləşdirməkdir.

Yuxarıda göstərilənlərin hamısını yekunlaşdıraraq deyə bilərik ki, virtual laboratoriyalar pandemiya dövründə, əsasən distant təhsilə ehtiyac olduğu vaxtlarda həm dərsdə, həm də dərslərə hazırlıqda istifadə oluna bilər. Virtual laboratoriyalar müəllimlə tələbənin qarşılıqlı münasibətlərinə, eyni zamanda tələbələrin idrak və yaradıcılıq fəaliyyətinin formalaşmasına öz töhfələrini verir.

**Mənsumə Seyidova**
***“İnformatika” kafedrasının müəllimi***

# BU GÜNÜMÜZÜN VƏ GƏLƏCƏYİMİZİN REALLIĞI: SÜNİ İNTELLEKT

Süni intellekt hazırda dünyada ən çox müzakirə olunan mövzulardan biridir. Bir zamanlar elmi-fantastik yazıçıların xəyalının məhsulu olan bu anlayış, biz fərqinə varsaq da, varmasaq da yavaş-yavaş gündəlik həyatımıza kök salmağa başlayır.

Süni intellekt insan zəkası tələb edən tapşırıqları yerinə yetirməyə qadir olan ağıllı maşınların yaradılması ilə əlaqəli geniş miqyaslı kompüter elmi sahəsidir. Bir çox yerdə, ingilis dilində "Artificial Intelligence" sözlərinin baş ərfləri ilə xatırlanır, yəni "AI".

***Süni intellektin yaranma tarixi***

Ağıllı robotlar və süni varlıqlar ilk dəfə qədim yunan miflərində meydana gəldi. Aristotelin sillogizmi inkişaf etdirməsi və deduktiv düşüncədən istifadə etməsi bəşəriyyətin öz zəkasını başa düşməsi üçün əsas məqam idi. Köklər uzun və dərin olsa da, bu gün düşündüyümüz süni zəkanın tarixi bir əsrdən də azdır.

Süni intellektlə bağlı ilk anlayışlar 1940-cı illərə gedib çıxır. 1943-cü ildə McCulloch və Pitts tərəfindən "Beynin Bul Dövrə Modeli" hazırlanmışdır. Bu model sadə şəkildə müəyyən fərziyyələrdən istifadə edərək neyronların beyində necə işlədiyini riyazi olaraq izah edən bir nəzəriyyəyə əsaslanırdı. Bu nəzəriyyə beynin işləmə prinsiplərini açıqladığına görə süni zəkanın ən vacib mərtəbəsi olduğu qəbul edilir.1948-ci illərə gəldikdə isə Şennon müəyyən alqoritmlər daxilində mürəkkəb riyazi teoremləri isbat etmək və şahmat oynamaq üçün kompüterlərdən istifadə edilə biləcəyini təklif etmişdir.

1950-ci ildə ingilis riyaziyyatçısı Alan Turinq şifrələmə maşını "Enigma"-nı sındıraraq Müttəfiq Qüvvələrin II Dünya Müharibəsində qalib gəlməsinə kömək etməsindən heç on il keçməmiş “Mind” adlı fəlsəfi jurnalda nəşr etdirdiyi məqalədə cavab axtardığı sadə bir sual ilə ikinci dəfə tarixi dəyişdirdi: "Maşınlar düşünə bilərmi?" Süni intellekt anlayışı məhz bu sualla yarandı.

***Süni intellekt necə yaradılır?***

Süni intellekt yüksək texnologiyaya sahib cihazlar və kompüter mütəxəssisləri tərəfindən aparılan uzun araşdırmalardan sonra yaradılır. Əvvəlcə süni intellektin hansı sahədə istifadə ediləcəyi müəyyənləşir. Daha sonra, bu sahədəki problemə görə həll üsulu verə bilən süni intellekt kodlama işləri həyata keçirilir. Hər süni zəka üçün fərqli yollar izlənilsə də, təməl prinsip eynidir. Bu prinsip odur ki, süni zəkada başlanğıc və bitiş nöqtəsi var və siz bu başlanğıc nöqtədən bitiş nöqtəyə aparacaq yəni bir problemin həllinə çatdıracaq alqoritmlər yazırsınız.

Süni zəka alqoritmlərini tətbiq etmək üçün informasiyalara ehtiyacınız var. Süni zəka alqoritmləri böyük informasiya çoxluqlarından istifadə edilərək öyrədilir ki, bununla da onlar modelləri müəyyənləşdirə, proqnoz verə bilsinlər. İnsanlar və digər canlılar necə qidalanaraq inkişaf edirlərsə, süni zəka da bənzər şəkildə informasiyalarla qidalandırılaraq böyüyə və inkişaf edə bilər.

***Süni intellektin tətbiq sahələri***

Süni zəka, istifadəçi davranışına dair məlumat vermək və məlumatlara əsaslanan təklif və tövsiyələr vermək üçün müxtəlif sahələrdə istifadə olunur. Məsələn, “Google”-un proqnoza əsaslanan axtarış alqoritmi, istifadəçinin axtarış çubuğunda növbəti addımda nə yazacağını təxmin etmək üçün onun keçmiş məlumatlarından istifadə edir. “Netflix”, istifadəçinin daha sonra hansı filmə baxmaq istəyə biləcəyini tövsiyə etmək üçün keçmiş məlumatlardan istifadə edir, bu da istifadəçinin platformaya qoşulmasına imkan yaradır və izləmə müddətini artırır.

**Marketinq** : Bir məhsul axtardığımızda bir müddət sonra bu məhsulla əlaqəli reklamlar fərqli platformalarda qarşımıza çıxmağa başlayır. Məsələn, marketinq tətbiqetmələri süni zəkanın yaxşı bir nümunəsidir.

**Tibb**: Süni intellektin istifadəsi səhiyyəyə yeni bir ölçü qazandırdı. Süni zəka əsaslı maşınların tətbiqi ilə xəstəliyin aşkarlanması və diaqnoz qoyulması bir qədər asanlaşdı. Bu, müalicə və idarəetmə proseslərinin daha da sadələşdirilməsində əhəmiyyətli bir rol oynayır. Nəticə etibarilə, xəstəxanalar və səhiyyə mərkəzləri tədqiqatdan tutmuş xəstəliklərin aşkarlanmasına qədər hər şeyi asanlaşdırmaq üçün süni zəkalı texnologiyaları sürətli bir şəkildə tətbiq edirlər.

**Süni yaradıcılıq**: Süni intellektin tətbiq sahəsidir. “MuseNet” adlı süni zəka sistemi, fərqli alətləri və fərqli musiqiçilərin əsərlərini birləşdirərək müxtəlif əsərlər yarada bilər.

İş və şəxsi həyatımızda hər gün süni intellekt ilə qarşılıqlı əlaqə qururuq:



Virtual assistantlar: “Google” tərəfindən istifadə edilən “Now”, “Apple” tərəfindən istifadə edilən “Siri” və “Microsoft” tərəfindən istifadə edilən “Cortana” kimi fərdi virtual assistantlar indi demək olar ki, hamımızın istifadə etdiyi əsas süni zəkaya sahib virtual köməkçilərdir.

**Sürücüsüz avtomobillər**: Yerləşdirilmiş kameralar və kompüterlər yolda olan əşyaları və insanları müəyyənləşdirir, yol işarələrini izləyir və avtomobili idarə edir. Artıq ilk modelləri belə insan sürücülərindən daha təhlükəsizdir.

**“Facebook DeepFace”**: Rəqəmsal bir görüntü və ya video kadrdan insanları tanıdan və ya təsdiqləyən biometrik, süni zəkaya əsaslanan bir tətbiqetmə texnologiyasıdır. Üz tanıma sistemlərinin bir çox metodu var, lakin verilmiş bir görüntüdən seçilmiş üzlərin xüsusiyyətlərini verilənlər bazasında olan üzlərlə qarşılaşdıraraq yerinə yetirirlər.

**Ağıllı Ev Sistemləri**: Ağıllı ev sistemlərində də tədricən süni zəkaya doğru addımlar atırıq. Ağıllı ev sistemi, xarici havanı evinizdəki hava ilə müqayisə edərək istilik və ya soyutma sistemini manual olaraq tənzimləyərək pulunuza qənaət etməyə kömək edə bilər.

Musiqi və media axını xidmətləri: Süni zəkanın həyatlarımıza necə təsir etdiyinin başqa bir möhtəşəm nümunəsi, gündəlik istifadə etdiyimiz musiqi və media axın xidmətləridir. “Spotify”, “Netflix” və ya “YouTube” istifadə etmənizdən asılı olmayaraq, süni intellekt sizin yerinizə qərar verir.

***Süni intellektin gələcəyi***

Süni intellektin artan populyarlığını nəzərə alaraq, gələcəkdə işlərin insanlar üçün necə dəyişəcəyini təsəvvür edə bilərik:

- Avtomatlaşdırılmış nəqliyyat daha geniş yayılacaq.
- Süni zəkanın idarə edəcəyi daha ağıllı şəhərlər olacaq.
- Robotlar bir fincan qəhvə gətirə bilər, hesabatlar hazırlaya bilər, ev alətlərinə nəzarət edə bilər və digər işlərin öhdəsindən gələ bilər.
- Ev robotları yaşlı insanlara gündəlik işlərində kömək edəcəkdir. Məsələn, Yaponiyada robotları kömək üçün inteqrasiya etməyə başladıqları geniş əhatəli bir proqram var. Təcili hallarda həkimə müraciət etmək kimi tapşırıqlar artıq süni zəka ilə edilə bilər.
- İnsanlar üçün təhlükəli olan işləri robotlar yerinə yetirəcək.

***Süni intellekt təhlükəlidirmi?***

Mərhum fizik Stefen Havking süni intellektin təsiri haqqında belə bir fikir söyləmişdir: “Potensial risklərə necə hazırlaşacağımızı və bunlardan necə qorunacağımızı öyrənmədikcə, süni zəka sivilizasiyamızın tarixində ən pis hadisə ola bilər.”

Həmçinin, 2018-ci ilin mart ayında Texas ştatında baş tutan texnoloji konfransda “Tesla” və “SpaceX” şirkətlərinin qurucusu Elon Musk səmimi bir xəbərdarlıq etmişdi: "Süni intellekt nüvə silahlarından daha təhlükəlidir."

Süni intellektin səbəb ola biləcəyi bəzi təhlükələr :

**Avtonom silahlar**: Süni zəka proqramlaşdırılmış və avtomatlaşdırılmış bir texnologiyadır, yəni heç kimdən asılı deyildir. Sui-istifadə edildiyini ve öldürməyə proqramlanmış avtonom silahlarda olduğu kimi təhlükəli bir şey etməyə proqramlandığını xəyal edin. Artıq bu, zəkanın riskə məruz qalmasının bir yoludur. Hətta nüvə silahları yarışının qlobal avtonom silahlar yarışı ilə əvəzlənməsi mümkündür.

**Sosial manipulyasiya**: Sosial medianın marketinqdə çox təsirli olan avtonom dəstəklənən alqoritmlərdən istifadə etdiyini bilirik. Bu alqoritm bizə kim olduğumuzu, nəyi sevdiyimizi bilməyimizə və bundan asanlıqla fikir əldə etməyimizə kömək edir. Hər kəs “Facebook”-da profil sahibi olsa da, bu şəbəkənin onların şəxsi məlumatlarını istifadə etdiyinin fərqində deyil. Bu, sosial manipulyasiyanın ən böyük nümunəsidir.

**Şəxsi həyata müdaxilə və sosial sinifləndirmə**: Bu, süni zəkanın marketoloqlara imkan verdiyi çox təhlükəli bir şeydir. Artıq bir insanın hər bir hərəkətini və gündəlik işlərini onlayn olaraq izləmək və təhlil etmək mümkündür. Kameralar demək olar ki, hər yerdədir və üz tanıma alqoritmləri kim olduğunuzu bilir.

Texnoloji təkamül həmişə neytral bir hadisədir. Hadisəni müsbət, mənfi, dost və ya düşmən edən insandır. Nyuton hərəkətin üçüncü qanununu kəşf etdikdə, silah hazırlamaq üçün nəzərdə tutulmamışdı. Eyni şey süni intellekt üçün də keçərlidir. İnsanlar süni intellektdən tibbi diaqnoz aparatları və ya ölüm maşınları yaratmaq üçün istifadə edə bilərlər. Əhəmiyyətli olan tək şey onu kimin və nə üçün istifadə etməsidir.

İstənilən güclü texnologiyadan sui-istifadə edilə bilər. Bu gün süni intellekt daha yaxşı tibbi diaqnoz qoymağımıza, xərçəngin müalicəsi üçün yeni yollar tapmağımıza və avtomobillərimizi daha təhlükəsiz hala gətirməyimizə kömək etmək də daxil olmaqla bir çox yaxşı məqsədlər üçün istifadə olunur. Ancaq təəssüf ki, süni zəka bacarıqlarımız artdıqca, onun təhlükəli və ya zərərli məqsədlər üçün istifadə edildiyini görəcəyik.

**Səriyyə Qasımova**
“İnformatika” kafedrasının müəllimi



## ARZULARIN GERÇƏKLİYƏ ÇEVRİLDİYİ MÜQƏDDƏS MƏKAN

Mənə çox doğma olan Universitetə qədəm qoyduğum an bu gün kimi yadımdadır. Ali təhsil ocağında ilk dərs gününün həyəcanını unutmaq mümkün deyil. Binaya daxil olan kimi ecazkar bir qoxu məni bürüdü. Ətrafda hər şey, hətta yenicə silinmiş döşəmə belə sanki elm, kağız, kitab qoxurdu. Bir qədər tələsən birinci kurslar və arxayınlıqla pilləkənləri qalxan yuxarı kursların tələbələri, iki tərəfli mərmər pilləkənlər, dəmir məhəccərlər, pillələrdəki addım səsləri ömrüm boyu unutmayacağım qədər maraqlı idi. Bu mənzərəyə bir anlıq aludə oldum. Axı necə olsa illər sonra ali təhsil almaq arzum çin olmuşdu. Elə bildim ki, bu səhnəyə başım qarışacaq və auditoriyada bütün yerlər tutulacaq mənə yer qalmayacaq. Ona görə də dərsə gecikməmək üçün sanki qaçaraq pilləkənləri çıxırdım. Nəhayət üç mərtəbə qalxdıqdan sonra böyük hərflərlə yazılan "Tarix-Filologiya" lövhəsini gördüm. O an keçirdiyim sevincin həddi hüdudu yox idi. Çünki istədiyim yerə, jurnalistika fakültəsinin tələbələrinin təhsil aldığı mərtəbəyə çatmışdım. Fakültənin girişində dayanan müəllim mərhəmətli, qayğıkeş baxışları ilə gələn tələbələrə baxırdı. Fakültəyə ilk qədəmimi qoyduğum an tarixin keçmişdən süzülüb bu günümüzə gələn həqiqətlərilə filologiyanın ruhumuzu qidalandıran incilərinin ahəngindən yaranan harmoniyanın sehrinə qapıldım. Çünki burada həmişə diri və əbədi olan sözün qüdrəti, sözün dahiliyi və səltənəti hökmranlıq edirdi. İlk gün olduğu üçün hansı otaqda olduğumuzu bilmədiyimdən girişdə gördüyüm müəllimə yaxınlaşıb soruşmaq istəyəndə doğmalıqla tələbələrinə baxan müəllimin bizim fakültənin dekanı Rəsul müəllim olduğunu öyrəndim. Rəsul müəllim elə ilk gündən öz sadəliyi, səmimiliyi ilə bizim üçün doğma bir insana çevrildi. İlk dərsimiz 407 nömrəli otaqda "Jurnalistikaya giriş " fənindən idi . Gülərüz siması ilə içəriyə daxil olan Səadət müəllimə elə ilk dərsdən bizi valeh etməyi bacarmışdı . Zaman keçdikcə şahid oldum ki, tələbələrə qarşı doğmalıq, səmimilik, mehribanlıq fakültəmizin bütün müəllimlərində var. Müəllimlərin sevgi və qayğısı ilə əhatə olunan fakültəmizdə tədris olunan fənlər yüksək peşəkarlıqla keçirilir . Çünki burada ana dilimizin bütün qayda qanunlarını incəliklərinə qədər bilən dilçilər, öz dərin bilikləri ilə tələbələrini tarixin hər qarışına səyahət etdirən tarixçilər, keçmişdən bizə miras qalan muzeylərin, abidələrin sirlərini öyrədən yüksək ixtisaslı muzeyşünaslar, Azərbaycan ədəbiyyatının dahiləri ilə birgə dünya ədəbiyyatının incilərinin yazdığı əsərləri nəqqaş kimi ruhumuza işləyən ədəbiyyatçılar və nəhayət öz fəaliyyətlərini dəqiqlik, vicdanlılıq, qərəzsizlik prinsipləri üzərində quran, 4-cü hakimiyyət nümayəndələri adlandırılan peşəkar jurnalistlər dərs keçirlər. Belə bir elmi mühitə düşmək hər tələbənin ən böyük arzusudur. Dahilər buyurub ki , elə adamlar axtarın ki, onlarla söhbət yaxşı kitaba bərabər olsun. Biz tələbələr hər biri öz sahəsinin sanki canlı ensiklopediyası olan müəllimlərlə əhatələnmişik. Dərslərimiz həm həyatiliyi, həm elmiliyi ilə seçilən diskussiyalarla aparılır. Müəllimlərimiz gələcək üçün güclü tarixçi, mükəmməl dilçi, muhafizəkar muzeyşunas, vətəndaş məsuliyyətini layiqincə çiyinlərində daşıya bilən jurnalist və kitablarla həyatımıza yön verən kitabxanaçılar yetişdirmək arzusuyla yorulmadan çalışırlar. Burada biz bilik, savad, dost, dünyagörüş və təcrübə qazanaraq özümüzdən daha əmin şəkildə gələcəyə doğru addımlayırıq. Belə bir deyim var: "Uşaqlar susmağı öyrənmək üçün məktəblərə, yüksək səslə danışmağı öyrənmək üçün isə universitetlərə üz tuturlar". Biz də fakültədə öyrəndiyimiz elmimizə güvənərək təkcə tədbirlərdə kürsülərdən çıxış etməklə kifayətlənməyib mavi sehrkar ekrandan, qəzetdən, radiodan tamaşaçıya, oxucuya, dinləyiciyə öz səsimizi, sözümüzü çatdırırıq. Bu cəsarəti bizə fakültədə öyrədilən və bəşəriyyəti həqiqətə, ədalətə, xoşbəxtliyə aparan bliyimiz verir. Arzularımın, xəyallarımın məni addım-addım gətirdiyi fakültəmizdən iki il sonra biliyimin gücü ilə qanadlanıb çıxacağıma əminəm. Çünki bura arzuların gerçəkliyə çevrildiyi müqəddəs məkandır.

**İlahə Allahverdiyeva**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

## JURNALİST TƏLƏBƏLƏR ÜÇÜN FUNDAMENTAL BAZA

Müasir dünyada hər bir ölkənin gələcəyi onun təhsil səviyyəsi ilə sıx bağlıdır. Təhsilə böyük diqqət göstərən ümummilli lider Heydər Əliyev hər zaman deyirdi: "Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyat fəaliyyətinin mühüm sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz". Bu gün tam əminliklə deyə bilərik ki, ulu öndərin ənənələrinə sadiq qalaraq muxtar respublikamızın hər bir sahəsində olduğu kimi təhsildə də uğurlu inkişafı təmin etmək üçün əsaslı şərait yaradılıb. Göstərilən diqqət sayəsində ali təhsil ocaqlarımız nəinki regionun, hətta dünyanın qabaqcıl universitetləri ilə müqayisə ediləcək səviyyəyə çatıb. Tədrisin keyfiyyətinin yüksəldilməsi, universitetlərdə yaradılan müasir tipli şərait nəzəri biliklərlə yanaşı təcrübi biliklərin də tətbiqinə geniş imkanlar yaradır. Dövlət qayğısının nəticəsi kimi ali təhsil ocaqlarında qurulan maddi-texniki baza tələbələrin gələcəkdə peşəkar kadr kimi formalaşmasında müstəsna rol oynayır.

Müasir dövrü jurnalistikasız təsəvvür etmək qeyri-mümkündür. Cəmiyyətin ən aktual sahəsi sayılan jurnalistika insanlarda ictimai rəy formalaşdırmaqla qalmır, onları bilgiləndirir, maarifləndirir və məlumatlandırır. Bu yolda çətin, bir o qədərdə şərəfli missiya jurnalistlərlə yanaşı, jurnalist kadrların hazırlanması yolunda əvəzsiz əməyi olan müəllimlərin və ali təhsil ocaqlarının müvafiq strukturlarının üzərinə düşür.

Son dövrlər Naxçıvan Dövlət Universitetində jurnalistika sahəsi çox sürətlə və keyfiyyətli şəkildə inkişaf edir. İnformasiya və multimedia zamanı sayılan XXI əsr öz gəlişi ilə universitetdə mətbuatın da inkişafını sürətləndirərək onu operativ və dinamik bir sahəyə çevirdi.

Universitetdə fəaliyyət göstərən Media mərkəzi tələbə jurnalistlərə nəzəriyyədə öyrəndikləri biliklərin praktiki cəhətdən tətbiqinə şərait yaradır. Təhsilin ən uğurlu nəticəsi də məhz nəzəriyyə və təcrübənin birgə fəaliyyətindən yaranır. Media mərkəzində yaradılan studiya, rejissor və montaj otaqları, redaksiya və media kabinələri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun diqqəti və qayğısı ilə Avropa standartlarına cavab verən ən son texniki avadanlıqlarla təchiz olunub. Tələbələrin bu mərkəzlə davamlı əlaqədə olması qazanılan əyani biliklərin, nəzəriyyənin təcrübəyə çevrilməsi ilə yanaşı peşəkar vərdişlərə hələ tələbəlik illərindən sahib olmağa da imkan yaradır. Bu da qeyd etdiyimiz kimi, gələcəkdə KİV sahəsində potensial kadrların geniş bazası deməkdir. Burada televiziya jurnalisti üçün lazım və vacib olan bütün mərhələlər ardıcıl şəkildə öyrədilir. İstər verilişə hazırlıq, operatorla, kamera ilə işləmə, televiziya jurnalisti üçün mühüm tələb olan görüntü və ya kadr duyumu, tamaşaçı gözü ilə özünə kənardan baxma bacarığı, həmsöhbətlə müsahibə və ən əsası zamanın tələbinə uyğun mövzuların düzgün seçilməsi də bir şərt kimi qarşıya qoyulur. Bundan başqa aparıcı xüsusiyyətlərindən tutmuş, monataja və radio sahəsinə qədər olan bütün vərdişlər bu siyahıda yer tutur.

Universitet televiziyasında yaradılan yeni infrastruktur və virtual studiya distant tədrisin tətbiqinə, videodərslərin hazırlanmasına geniş imkanlar açıb. Jurnalist tələbələrin burada hazırladıqları verilişlər, süjetlər HD formatda yayımlanır. Bununla yanaşı, tələbələr televiziyada müasir informasiya kommunikasiya texnologiyalarının, internet jurnalistikasının geniş imkanlarından istifadə edərək media ilə daima virtual əlaqələr qururlar.



Universitetdə tələbələr üçün fundamental təcrübi baza, əsl yaradıcılıq laboratoriyası rolu oynayan mətbuat şöbəsi, "Qeyrət" nəşriyyatı və "Nuhçıxan" radiosu da fəaliyyət göstərir. Hər ay müntəzəm olaraq "Yeni fikir" qəzetində, Nuhçıxan İnformasiya Agentliyində və bir sıra rayon, şəhər qəzetlərində yazıların dərc edilməsi bizlərin hələ tələbəlikdən imzalarımızın tanınmağına şərait yaradır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi və innovasiyaların dəstəklənməsi" haqqında imzaladığı Sərəncam yaradıcılığa ilkin qədəm qoyan biz tələbələrə müxtəlif media orqanlarında öz bacarıqlarımızı sınamağa imkan yaradır. Bunun nəticəsidir ki, jurnalistika ixtisasında təhsil alan bir çox tələbə müxtəlif media qurumlarında işlə təmin olunub və peşəkar həmkarlarla çiyin-çiyinə fəaliyyət göstərirlər.

Bundan başqa artıq bu ilin mart ayından Naxçıvan Dövlət Universitetinin televiziyası həftənin bazar ertəsi, çərşənbə və cümə günləri (1, 3, 5) saat 11-dən 15-ə dək 4 saatlıq efir vaxtı ilə "Kanal 35" Televiziyasının efir tezliyindən istifadə edərək muxtar respublika ərazisinə yayımlanır. Bu isə sözün əsl mənasında tələbə televiziyası üçün bir inqilabdır. İlk dəfə olaraq ölkədə həyata keçirilən bu layihə tələbə-jurnalistlərdə məsuliyyəti artırmaqla yanaşı, həm də onların universitetdə qazandığı biliklərin, təhsil səviyyəsinin əyani sübutudur.

Onu da qeyd etməyi özümüzə borc bilirik ki, müasir dövrdə təhsil cəmiyyətin inkişafını təmin edən aparıcı istiqamət kimi davamlı olaraq yeniləşmə, ən son texnologiyalardan istifadə yolu ilə mütərəqqi ideyaların, bilik və bacarıqların tətbiqi xarakterini alır. Aparılan islahatlar kadr hazırlığına müasir yanaşma və eyni zamanda vətəndaşın müasir cəmiyyətə hərtərəfli inteqrasiyanı təmin edir. Bu gün Muxtar respublikamızda təhsilin davamlı inkişafını təmin edən sərəncamların qəbul edilməsi, güclü təhsil infrastrukturunun, maddi-texniki bazanın yaradılması, yüksək ixtisaslı kadr hazırlığını təmin edən dövlət proqramlarının qəbul edilməsi sözügedən uğurlu inkişafı bir daha təsdiqləyir.

**Məcid Əkbərov**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

## BİZƏ DOĞMA OLAN ALİ TƏHSİL OCAĞI

Naxçıvan Dövlət Universiteti müasir təhsil üsulları ilə yanaşı, xarici görkəmi və bir-birindən gözəl tədris korpusları ilə nəinki tələbələrin, həmçinin universitetə səfər edən yerli və əcnəbi qonaqların da diqqətini özünə cəlb edir. Bunu muxtar respublika ərazisində təhsilə və gənc nəslə olan xüsusi diqqət və qayğının ən gözəl nümunəsi kimi dəyərləndirmək lazımdır. Universitet kampusu öz coğrafi mövqeyi və məkan olaraq Naxçıvan şəhərinin şimal-qərbində yerləşir. 50 ildən artıqdır ki, bu ərazini haqlı olaraq hamı elmin, təhsilin dəyişməz ünvanı kimi tanıyır. İstərdim ki, bu təhsil ocağının bütün imkanlarından bəhrələnən bir tələbə kimi universitetim haqqında fikirlərimi sizinlə bölüşüm.

Oxuduğum əsas korpusa az qalmış möhtəşəm bir bina öz əzəməti ilə diqqəti cəlb edir. Digər korpuslardan öz görkəmi ilə seçilən universitet elmi kitabxanası üçün yaradılmış bu bina tələbələrin asudə vaxtlarını səmərəli keçirməsi və biliklərini, dünyagörüşlərini artırması üçün əsas ünvandır. Kitabxananın içərisində geniş oxucu salonları və zəngin kitab ehtiyatı ilk baxışdan diqqəti çəkir. Rəflərdə xüsusi nizamla düzülmüş kitablar elmin və təhsilin bütün sahələrini əhatə edən bilik mənbəyidir. Hər gün bura yüzlərlə müəllim və tələbə müraciət edir, onlara yaradılan yüksək şəraitdən istifadə edirlər. Burada səliqə-səhmanla, xüsusi qaydalarla düzülən kitablar, müəllimlərin elmi araşdırmaları oxumaq həvəsi olan hər kəsi bu elm məbədinə səsləyir.

Kitabxananın sağ tərəfində isə incəsənətə marağı və istedadı olan tələbələrin təhsilə daha dərindən yiyələnmələri üçün nəzərdə tutulmuş möhtəşəm bir bina konservatoriya inşa edilib. Binaya daxil olduğumuz zaman hər mərtəbədə yaradılan geniş meydanda tələbələrin əl işlərindən ibarət sərgilər diqqətimizi çəkir. Müxtəlif ixtisasların tələbələrinin yaradıcılığını əks etdirən bu təşəbbüs gənclərin bacarıqlarının və universitetin onlara verdiyi təhsilin göstəricisi kimi nümayiş olunur. Bu, tələbələrin öz ixtisasları üzrə bir mütəxəssis kimi formalaşmalarında da mühüm rol oynayır. Burada rəssamlıq, aktyorluq, musiqişünaslıq və bir çox ixtisaslar üzrə yüzlərlə tələbə təhsil alır.

...Və keçək mənə doğma olan əsas korpusa. Niyə doğma dedim, bilirsinizmi? Digər ixtisaslarla yanaşı mənim təhsil aldığım "Jurnalistika" ixtisası da burada yerləşir. Beləliklə, mən burda təhsil alıram və auditoriyalarına ayaq qoyduğum ilk gündən müəllimlərin tələbələrə olan səmimi rəftari, tələbələrin bir-birinə olan mehribanlığı insana doğmalıq hissi aşılayır. Mən bir tələbə-jurnalist olaraq deyə bilərəm ki, təhsilimizdə fakültəmizin və kafedramızdakı müəllimlərin əməyi çox böyükdür. Ölkə səviyyəsində ilk dəfə Naxçıvan Dövlət Universitetində yaradılan və biz tələbələr üçün nəzərdə tutulan Media Mərkəzinin fəaliyyəti ayrıca bir mövzudur. Mərkəzdə çalışan peşəkar kollektivin sayəsində 4 il təhsil alan tələbə gələcəyin əsl jurnalisti kimi yetişmək imkanı qazanır. Media Mərkəzində universitet televiziyası və "Nuhçıxan" radiosu fəaliyyət göstərir. Əvvəllər yalnız universitet ərazisində yayımlanan televiziya bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı və təşəbbüsü ilə muxtar respublika ərazisində yayımlanır. Həftənin bazar ertəsi, çərşənbə və cümə günləri Universitet Televiziyasının hazırladığı verilişlər saat 11-dən 15-ə-dək Kanal 35 Televiziyasının efir tezliyindən tamaşaçılara təqdim edilir.



Bununla yanaşı tələbələr maraqlı yazıları ilə də mətbuatda öz sözlərini deyirlər. Bu yazılar həm universitetin mətbu orqanı olan "Yeni fikir" qəzetində, həm də muxtar respublika ərazisində çap olunan müxtəlif qəzetlərdə işıqlandırılır. Universitetimizin ərazisində ağ xalatlı tələbələr xüsusi diqqət çəkir. Bu təbii ki, insanda fərqli təəssürat yaradır. Onlar Tibb fakültəsinin tələbələri, yəni gələcəyin həkimləridir. Yaşadığımız son hadisələrə nəzər salsaq dünyanın məlum pandemiya- COVİD-19 virusu ilə mübarizəsində həkimlərin həyatımızda nə qədər böyük rol oynadığının şahidi oluruq. Tibb fakültəsində də təhsil alan tələbələr burda yaradılan imkanlardan geniş şəkildə istifadə edirlər.

Tələbələrimizin boş vaxtlarını səmərəli və faydalı keçirmələri üçün universitet ərazisində idman kompleksi də yaradılıb. Burada idmanın müxtəlif növləri ilə məşğul olmaq üçün avadanlıqlar, qurğular qurulub.

Universitetimizdə yerli tələbələrlə yanaşı, xarici tələbələr də təhsil alır. Bu tələbələr dünyanın bir çox ölkəsindən bura gəlib müxtəlif ixtisaslar üzrə təhsillərini davam etdirirlər. Tələbələrimizi düşünərək həm xarici, həm də yerli tələbələr üçün hər cür şəraiti olan yataqxana istifadəyə verilib. Burada hər kəs özünü doğma evindəki kimi hiss edir.

Mən bir tələbə olaraq Naxçıvan Dövlət Universitetində oxumağımla fəxr edirəm. Doğrudan da, dünyanın 50-yə qədər nüfuzlu universiteti ilə əlaqə yaradan, əməkdaşlıq edən, ən müasir təhsil bazasına malik bir tədris ocağında təhsil almaq hər bir gəncin arzusudur. Gələcəkdə uğurlu addımlar atmaq, müvəffəqiyyət qazanmaq üçün universitetimiz gənclərin qarşısında geniş üfüqlərə qədər uzun bir yol açır. Naxçıvan Dövlət Universitetində mövcud olan bu şərait və peşəkar müəllim heyəti təkcə muxtar respublikada deyil, Azərbaycanda da onu nümunəvi universitetlərdən birinə çevirib. Bunun ən gözəl şahidləri isə burda təhsil alan tələbələrdir.

**Bülbül Quliyeva**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# BİZ YENİDƏNQURMANIN İLKİN MƏRHƏLƏSİNDƏYİK. GƏLƏCƏK ÜÇÜN NƏHƏNG POTENSİAL VAR!

## DAMINDAN ƏSƏR-ƏLAMƏT QALMAYAN AĞDAM

Bir neçə gün əvvəl müəllimimiz bizə hər hansı bir mövzuda məqalə yazmağı tapşırıq verdi. Hansı mövzuda yazacağımızı özümüz sərbəst seçməli idik. Tələbələrdən bir çoxu doğulub boya-başa çatdığı yer haqqında yazmağı planlaşdırırdı. Mən isə Ağdam haqqında yazmağı qərara aldım. Baxmayaraq ki, Ağdamı görməmişdim, orada doğulub boya-başa çatmamışdım. Ağdam mən hələ dünyaya gəlməmişdən 9 il əvvəl bizdən qoparılmış, işğal olunmuşdu. Əvvəl düşündüm ki, axı mən Ağdamı heç vaxt görməmişəm, belə olduğu halda Ağdam haqqında fikirlərimi necə ifadə edə bilərəm? Sonra oxuduqlarımı və valideynlərimdən eşitdiklərimi təhlil etdikcə əslində Ağdam haqqında geniş təsəvvürə malik olduğumu düşündüm.



Ağdam qədim və gözəl şəhərdir. Qarabağın mərkəzində yerləşdiyindən ona bəzən "Qarabağın ürəyi" də deyərdilər. Şəhərin qədim tarixi abidələri minillik keşməkeşli illərdən keçərək bu günə qədər gəlib çatmışdı. XX əsrin 50-ci illərindən rayon ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində burada qədim yaşayış məskənləri aşkar olunmuşdur. Misal kimi Leylatəpə, Üzərliktəpə, Üçoğlantəpə, Sarıçoban, Dağlar və digər yaşayış məskənlərinin adlarını çəkə bilərik. E.ə 4-cü əsrdə yaranmış Albaniyanı təşkil edən 26 tayfadan biri olan yüksək mədəniyyətə malik Qarqarlar Ağdam rayonu ərazisindəki Qarqar çayı boyunca məskunlaşmışdılar. Bu isə Ağdamın çox qədim tarixə malik olduğunu bir daha əyani sübut edir. Ağdam adı qədim yazılı mənbələrdə 1357-ci ildən çəkilməyə başlayıb. Şəhərin əsası isə 1741-ci ildə Pənahəli xan tərəfindən qoyulub. Şahbulaq qalasının tikilməsindən sonra bura şəhərə çevrilib. Ağdamın şəhər statusu alması, yəni doğulması isə 8 avqust 1930-cu ildə baş veib. Ağdam tez bir zamanda böyümüş, inkişaf etmiş və bir çox ərazi vahidlərini arxada qoymağı bacarmışdır. Dağlıq Qarabağ və Qərbi Azərbaycandan qovulan on minlərlə azərbaycanlı Ağdama pənah gətirmişdi.

1992-ci ildən Dağlıq Qarabağ ərazisini tamamilə işğal edən Ermənistan bununla kifayətlənməyərək ətraf rayonlara ardı-arası kəsilməyən hücumlar etdi. Bu hücumlara məruz qalan şəhərlərdən biri də Ağdam idi. 1992-ci il fevralın 26-da ağır faciədən, soyqırımdan salamat çıxa bilən Xocalılar da Ağdama sığınmışdılar. O zaman Ağdam rayonundan olan milli qəhrəmanımız Allahverdi Bağırov 1000-dən çox Xocalını erməni cəlladlarının əsirliyindən xilas etməyi bacarmışdı. 1993-cü ilin mayından Ağdama hücumlar daha da artdı və nəticədə 23 iyul 1993-cü ildə Ağdam şəhər mərkəzi işğal olundu.

Valideynlərimin dediklərinə əsasən, bizim kəndimiz olan Şotulanlı kəndi şəhər mərkəzindən 30-35 km məsafədə yerləşirdi. Hər gün kənd top və qrad atəşinə tutulurdu, ancaq buna baxmayaraq, kənd əhalisi tam 9 ay müqavimət göstərmişdi. Atam söyləyirdi ki, kənd əhalisinin cavanları gecə-gündüz kəndin ətrafında növbə çəkirdilər. Əhalidə isə cəmi bir neçə ov tüfəngi var idi. Ancaq 9 ayın tamamında, yəni 23 aprel 1993-cü ildə Şotulanlı kəndi də işğal olundu. Ağdamın 1094 kvadrat kilometr ərazisi var idi və onun 77,4%-i artıq işğal olunmuşdu.

Ağdam 1-ci Qarabağ müharibəsində 6000 şəhid verdi. Bu o demək idi ki, şəhərin hər qarışı şəhid qanı ilə sulanmışdı. Ağdam şəhidlər vətənidir, o adi bir şəhər deyil, müqəddəs şəhərdir. Ağdamın işğalından sonra biz hər zaman ümidlə yaşadıq, çünki geri dönəcəyimizə əmin idik. Ağdamlılar öz şəhərlərini, kəndlərini tərk etdikdə sadəcə üst paltarları ilə tərk etmişdilər, çünki onlar geri qayıdacaqlarına əmin idilər. Buna görə də, bəzi insanların "siz öz torpaqlarınızı qoyub qaçmısınız" ifadəsi məni çox kədərləndirirdi. Çünki biz öz torpağımızı qoyub qaçmırdıq. Əgər elə olmasaydı 2 ildən çox artilleriya mərmilərinin, raketlərin yağışı altında yaşamazdı ağdamlılar, müqavimətin qalası olmazdı Ağdam şəhəri, təkcə üzərlərindəki geyimləri ilə çıxmazdı şəhərin və kəndlərin əhalisi.

Allaha çox şükürlər olsun ki, daha qaçqın ifadəsini üzərimizdə daşımırıq, çünki müzəffər Azərbaycan ordusu Qarabağı erməni vəhşilərinin işğalından azad etdi. 27 sentyabr 2020-ci ildə başlayan və cəmi 44 gün davam edən II Qarabağ müharibəsi Azərbaycanın haqlı qələbəsi ilə başa çatdı. 10 noyabr 2020-ci ildə bağlanan 3 tərəfli müqavilə ilə Ağdam 20 noyabrda tamamilə azad edildi və şanlı Azərbaycan əsgəri Ağdama daxil oldu.



27 il düşmən əsirliyində qalan Ağdamın bədənində salamat yer qalmayıb. Sanki, düşmən şəhərə hər gün işgəncə verib, sanki şəhəri dəfələrlə öldürüblər, daşı daş üstündə qoymayıblar, ağacları kökündən çıxarıb özləri ilə aparıblar. Qəbirləri dağıdıb, hətta onları açıb cəsədləri, sümükləri götürüblər. Ancaq bununla da kifayətlənməyib düşmən. Ağdamın hər yerinə, qəbirsanlıqlara belə minalar basdırıblar. Buna görə də işğaldan azad olunsa da, hələ ki, ata-baba yurdumuza, doğma kəndimizə gedə bilmirik. Ancaq həm Ali Baş Komandanımız İlham Əliyevə, həm ordumuza, həm də dövlətimizə inanırıq. Tezliklə Ağdamı yenidən dirildəcəyik. Dirçəldəcəyik və mütləq qayıdacağıq Ağdama. Hər şeyin əvvəlkindən də gözəl olacağına əminik. Biz bütün bunlara görə Ali Baş Komandanımız İlham Əliyevə, şəhidlərimizə, qazilərimizə, qəhrəman əsgərlərimizə borcluyuq. Şəhidlərimizin ruhları qarşısında söz veririk ki, onların qanları bahasına alınmış bu torpaqlarda həyat yenidən qaynayacaq, biz Ağdamımıza yenidən qayıdacağıq.

**Zeynəb Xəlilova**
*Jurnalistika ixtisası üzrə I kurs tələbəsi*

## İLLƏR SONRA QAYIDIŞ

İllər sonra qayıdış... Bəli, bu qayıdış, uğrunda canımızdan keçməyə hər zaman hazır olduğumuz şanlı vətən torpaqlarının qayıdışıdır. Necə deyərlər, sülh istəyən müharibəyə hazır olmalıdır. Son 27 ildə Azərbaycan o qədər sülhün tərəfində oldu ki, heç kim müharibəyə bu səviyyədə hazır olduğumuzu anlamadı. Sözlə qanmayanı silahla qandırmalı idik. Bunu cəmi 44 günə bütün dünyaya sübut edə bildik.

2020-ci il Tovuz döyüşləri-xalqımın 30 illik torpaq həsrətinə son qoyan o möhtəşəm günün başlanğıcı...Bu döyüşlər ikinci Qarabağ müharibəsinin başlamasına bir qığılcım oldu. 27 Sentyabrdan başlayaraq Qarabağın azad olunması uğrunda döyüşlər başladı. Azərbaycan xalqı vahid bayraq altında yumruq kimi birləşdi. Ali Baş Komandan İlham Əliyev orduya döyüş əmrini verdi. Azərbaycan əsgəri gecə-gündüz demədən, soyuq, şaxta bilmədən, Vətənin hər bir qarış torpağı uğrunda canından keçməyə and içdi. 30 il həsrət çəkən xalqım Azərbaycan əsgəri üçün birlik oldu və arxa cəbhədən daim onlara dəstəyini, sevgisini hiss etdirdi. Xalqın içində illərlə saxladığı ümid gerçəkləşməyə başladı. Artıq insanlar bilirdilər ki, qarşıdan gələn bayramları Qarabağda qeyd edə biləcəklər. İllər əvvəl tərk etməyə məcbur olub qapısına qıfıl vurduqları evlərinə yenidən qaytmaq ümidilə saxladıqları açarlar nəhayət öz qıfıllarını açacaqdır. Çünki bu millətin güvəndiyi Ali Baş Komandanı, yenilməz ordusu, qəhrəman əsgərləri vardır. Hansı ki, o əsgər canı bahasına da olsa torpaqlarımızı mənfur düşməndən geri alacağına and içmişdi.




Sentyabrın 27-dən noyabrın 9-na kimi, 44 gün ərzində 5 şəhər, 4 qəsəbə 286 kənd işğaldan azad edildi. İllərlə masalarda həllini tapa bilməyən məsələ Ali Baş Komandanın bir əmri ilə həll olundu.

Vətən müharibəsinin unudulmaz qələbəsi Şuşanın qayıdışı oldu. İllər sonra Şuşa məscidində azan səsi eşidildi, üç rəngli bayrağımız Qarabağ səmasında dalğalandı. Azərbaycan xalqı tutduğu mövqedən, statusundan asılı olmayaraq birlik olduğunu bütün dünyaya sübut etdi. Hər kəs "Qarabağ Azərbaycandır!" şüarı altında birləşdi. Azərbaycan xalqı II Qarabağ müharibəsində 2891 şəhid verdi. Amma bezmədi, əyilmədi, beli bükülmədi. Bir daha şəhid anaları "Vətən sağ olsun!" dedi.

Vətən müharibəsində Azərbaycan döyüş cəbhəsi ilə yanaşı, eyni zamanda informasiya cəbhəsində də qələbəni təmin etdi. 44 günlük Vətən müharibəsi zamanı kütləvi informasiya vasitələri də bu səfərbərliyə adekvat yanaşma ortaya qoydu. Jurnalist həmkarlar Azərbaycan həqiqətlərini istər yerli, istərsə də beynəlxalq ictimaiyyətə düzgün çatdırmaq məqsədilə məsələni peşəkarlıqla işıqlandırdılar.

Jurnalistlərimiz həqiqətən də, gecə-gündüz yorulmadan çalışdılar, əllərindən gələni etdilər ki, dünya qlobal səviyyədə Azərbaycan həqiqətlərini eşidə bilsin. Azərbaycan mediası üzərinə düşənlərin öhdəsindən layiqincə gələ bildi.

İndi Azərbaycana ciddi, peşəkar səviyyədə, konkret olaraq hərbi sahədə yüksək biliyə malik jurnalistlər lazımdır. Çünki bizim ordumuz artıq dünyanın diqqət mərkəzindədir. Əlbəttə ki, Azərbaycanın bundan sonrakı hərbi gücünü, imkanlarını peşəkarcasına işıqlandırmaq, dünyaya tanıtdırmaq üçün ciddi jurnalist ordusuna da ehtiyac var.

Mən də günümüzün jurnalist tələbəsi və gələcəyin bir jurnalisti olaraq daim öz qələmimlə xalqımın yanındayam.

**Aygün Hüseynova**
*Jurnalistika ixtisası üzrə I kurs tələbəsi*

## HƏR DAĞI-DAŞI QIZILA TAY FÜZULİM

Füzulim, hər dağı-daşı qızıla tay Füzulim. Valideynlərim və nənəmin dediyinə əsasən dərk edirdim ki, Füzuli çox gözəl bir yer-rəngarəng çiçəklər, baxdıqca göz oxşayan yaşıllıqlar diyarı olub. Nənəm və qohumlarım Füzuli rayonundan, xüsusən kəndimizdən danışanda "Kaş mən də kəndimizi görə bilərdim", deyərək heyfsilənərdim. Nənəmin Füzulidəki "Ana" heykəli haqqında danışdığı rəvayət yaddaşımda dərin iz buraxmışdır. Nənəmin dediyinə görə bir övladı bətnində, bir övladı isə yanında olan bir qadın var imiş. Qadın evə gedən zaman düşmənlər onun ardınca düşüb. Qadın düşmən əlinə düşməmək üçün Allaha dua edib ki, ya məni quşa döndər uçum, ya da daşa döndər burdaca donum qalım. Allah da onu daşa döndərib və yerindəcə donub qalıb. Anam "Ana" heykəlini gözü ilə gördüyünü deyir. Mən əvvəllər nənəmin bizim üçün nağıl dediyini düşünərdim, amma anam və qohumlarının öz gözü ilə gördüyünü deyəndə, mən də "Ana"heykəlini görməyə can atardım. Ümidvaram kəndimizə gedəndə o heykəli də görərəm.

Füzulidə nə qədər gözəl günlər, anlar olsa da, pis xatirələr də az deyil. Kəndimiz düşmən torpaqları ilə həmsərhəd olduğu üçün daha tez işğal olundu. 1993-cü il yanvarın 4-ü valdeyinlərim öz doğma kəndlərindən məcbur çıxarlıdı, 1993-cü il avqustun 23-də isə Füzuli rayonu işğal olundu. Valideynlərim müharibə, qırğın, köçkünlük gördüyü kimi mən də o dəhşətin şahidi oldum. 2016-cı il 2 apreldə qonşularımız hamısı çöldə söhbət edirdilər, sanki hiss etmişdilər ki,bu gün 1993-cü ildə olduğu kimi didərgin düşəcəklər. Valideyinlərimin nələr yaşadığını o gün daha yaxşı hiss etdim. "Birinci uşaqları aparın" deyiləndə, elə düşündüm ki, bir də valideyinlərimi görə bilməyəcəyəm.

Biz Beyləqan rayonuna getdik və 2-3 gün orda qaldıq, aprelin 4-ü müharibə bitdi. Evimizə gələndə evimiz o qədər soyuq idi ki, sanki illərdi evdə yox idik. Ancaq bu sakit həyat uzun sürmədi, yenidən müharibə oldu... 2-ci Qarabağ müharibəsi. 28 sentiyabr 2020-ci il gecə ilə biz Füzuli rayonu Zobcuq qəsəbəsindən çıxdıq və bütün Füzuli boşaldıldı, qadınlar, uşaqlar və yaşlıları kənar kəndlərdə uşaq bağçası, ya da məktəblərə, bəziləri isə çadırlara yerləşdirildilər. Gecə ilə tankların yanımızdan keçməyi hələ də yadımdan çıxmır, hərbi maşınların gediş-gəlişi gözümdə canlanır.



Qonşularımızın və qohumlarımızın evlərinə, həyətinə top düşmüş, hətta bizim evimiz də zədə almışdı...

Ancaq bu dəfəki ayrılıq uzun sürmədi. 2020-ci il 17 oktyabr tarixində Füzuli şəhəri işğaldan azad olundu. Bu qalibiyyət bütün azərbaycanlılar, xüsusən füzulililər tərəfindən böyük sevinclə qarşılandı...

Nəhayət illərlə düşmən toplarının hədəfi olan məğrur Füzulim günü-gündən daha da abadlaşacaq, daha da gözəlləşəcək, bütün dünyanın həsəd aparacağı möhtəşəm bir şəhərə çevriləcəkdir.

**Püstə Əhmədova**
*Jurnalistika ixtisası üzrə I kurs tələbəsi*

# BİZ QƏLBİNDƏ GÜCLÜ VƏTƏN SEVGİSİ OLAN BİR GƏNC NƏSİL TƏRBİYƏ EDİB YETİŞDİRDİK!

2021-ci il... Babək rayonunun Şıxmahmud kəndi. Tarixə neçə-neçə sərkərdələr, igidlər bəxş etmiş, Nuhun yurdu qədim Naxçıvan torpağı. Yolumuz 44 günlük Vətən müharibəsində qəhrəmancasına həlak olmuş, müharibədə iki günlük döyüşü ilə tarix yazmış şəhid Fərmin Əliyevin evinədir.

Göz işlədikcə uzanan yollara baxır, öz-özümə Fatma xanımla ilk görüşdə necə danışacağımı götür-qoy edirəm. Söhbətə necə başlayım ki, onun hələ qaysaq bağlamayan yarasını qanatmayım. Bu fikirlərlə bir də gördüm ki, artıq qapıdayıq. Qarşıma gözləri kədərdən boğulan, sanki bir neçə ay içərisində qocalan Fatma xanım, yaşının o qədər də çox olmasına baxmayaraq beli bükülən Fərman kişi çıxdı. Üzüntülərinə baxmayaraq məğrur görünən, məni səmimi qonaqpərvərliklə qarşılayan bu insanların yanında sözə necə başlayacağımı bilmirəm.

Fərminin boya-başa çatdığı, böyüdüyü sadə bəzədilmiş, sanki hər küncündə şəhidimizin ruhu hiss olunan otaqda əyləşmişik. Divarda Fərminin yeniyetməlik dövründə çəkilmiş şəkilləri diqqətimi cəlb edir. Şəkillərdən arıq, bir qədər də utancaq, çəkingən görünən oğlan baxır. O, nə bilərdi ki, bir gün vətənini erməni qəsbkarlarından qurtaran zaman qəhrəmanlıqla, mərdliklə, heç gözünü qırpmadan şəhid olacaq, canı, qanı bahasına sevdiyi vətən torpağı uğrunda şəhadətə qovuşacaqdır?!

Bütün ailə toplanıb. Fərminin atası Fərman kişi, anası Fatma xanım, həyat yoldaşı Fatimə xanım, bacıları Leyla və Nərmin, bibisi qızı Günay.... Masada hər kəsin gözü yol çəkir, sanki hər kəs öz daxilində Fərminlə bağlı xatirələri təzələyir. Bu gün bu masada hər kəsi dinləyib şəhidimizin uşaqlıqdan şəhadətinə ucalmasına qədər olan bir dövrün şahidi olacaqdım. Mənim üçün bundan böyük fəxr ola bilməzdi. Canlarını vətən torpağına qurban verən bütün şəhidlərimiz kimi gələcəklə bağlı yarımçıq qalan planları, üzünü belə görmədiyi oğlu üçün arzuları var idi Fərminin.

Fərmin Fərman oğlu Əliyev 1996-cı il, mart ayının 20-də Babək rayonunun Şıxmahmud kəndində dünyaya göz açıb. Ailədə tək oğul, iki bacının bir qardaşı idi. Zəhmətkeş kəndli ailəsində böyüyən Fərmin 1-ci sinifə Şıxmahmud kəndində getmişdir. 2011-ci ildə Naxçıvan şəhərində Heydər Əliyev adına Hərbi Liseydə təhsilini davam etdirən Fərmin Quru qoşunlarda xidmət etməyi seçir və motoatıcılığın sirlərinə yiyələnir. 2014-2018-ci illərdə Heydər Əliyev adına Ali Hərbi Məktəbin "Xüsusi təyinatlı texnika və sistemlər" ixtisasının məzunu olur. Ali məktəbi bitirdikdən sonra işə başladığı N saylı hərbi hissədə vətənpərvərliyi və çevikliyi ilə hər kəs tərəfindən rəğbət və hörmət qazanır. Məsuliyyəti, tələbkeşliyi, tapşırıqları yüksək səviyyədə yerinə yetirdiyi üçün işlədiyi dövrdə əsgər və zabit heyətinə təlimlərə başlayır.

Anasının dediyinə görə hələ uşaqlıqdan Fərminin ən böyük arzusu hərbçi olmaq, torpaqlarımızı düşmən işğalından azad etmək olub. Hər dəfə Xocalı faciəsi ilə bağlı kadrları televizorda görəndə balaca Fərmin böyüyüb düşməndən əsrin ən dəhşətli faciəsinin qisasını alacağını söyləyirmiş. Ən diqqət çəkən məqam da o olurdu ki, bu kadrları görəndə Fərminin sakit simasında qürur və qisas qığılcımları parlayırmış. Şəhidliyə gedən yol, məhz buradan başlamışdı.

## ÖLÜM VAR Kİ, HƏYAT QƏDƏR DƏYƏRLİ....

Bayram günü dünyaya gələn Fərmin bayramları çox sevirmiş. Bayram bazarlığına babası ilə gedər, böyük-kiçik yeri bilərmiş. Valideynlərinə hörmətlə yanaşarmış. Deyirlər ki, vətənə sevgi yaşadığın evdən, ailədən başlayır. Fərmin də vətən sevgisini məhz yaşadığı evdən, ailəsindən almışdır. Ailənin



milli dəyərlər, soy-kökə bağlı ənənələr üzərində qurulması Fərminin hələ balaca yaşlarından bu meyarlar üzərində formalaşmasına şərait yaratmışdır.

Əmək fəaliyyətinə başladıqdan sonra Fərmin sevib-seçdiyi Fatimə xanımla ailə həyatı qurur. Ancaq bu evliliyi söz verdiyi kimi sonuna qədər yurutmək nəsib olmur. Cəmi 9 ay evli qalan cütlüyün toyunda hər kəs – ailəsi, qohum-qardaşı böyük həvəslə iştirak etmişdi. Ən böyük arzusu toyunda hərbi paltar geyinmək və hər yeri müqəddəs, üçrəngli, ayulduzlu bayrağımızla bəzətmək olan Fərmin bu arzusunu böyük qürur hissi ilə həyata keçirmişdi. Amma nə bilərdi ki, evliliyinin heç bir ili tamam olmamış bu müqəddəs vətən bayrağına sarılaraq minlərlə insanın əhatəsində doğulub boya-başa çatdığı kəndinə şəhid zirvəsinə ucalaraq qayıdacaq. Sanki şəhid olacağını əvvəlcədən hiss edən Fərmin döyüşə gedərkən yaxınlarına -mən şəhid olacağam, anamdan muğayat olun., övladım sizə əmanət - demişdi.

Valideynlərini hədsiz məhəbbətlə sevən Fərminin qəlbində anasının yeri başqa idi.

Hələ məktəb illərindən ədəbiyyata böyük maraq göstərən Fərmin şagird ikən poeziya sahəsində qələmini sınamış, Anasına olan məhəbbətini ona həsr etdiyi şeirində ifadə etmişdir:

Saçının o bəyaz telinə qurban,
Mənə oğul deyən dilinə qurban.
İncə ipək kimi əlinə qurban.
Allahdan dilərəm ömrün uzansın
Arzun çiçək açsın, çırağın yansın.
Qədrini bilməyən nankor utansın
Mənim bu dünyada kimim var ana?
Sənsiz həyatımda xar olan ana,
Bu şair oğlunun həvəsi sənsən,
Qəlbimin hər zaman nəfəsi sənsən,
Tarımın, sazımın xoş sözü sənsən.
Həyatın mənası, həm sözü, ana!

Anasını sevən övlad vətənini də sevər deyiblər. Fərminin qəbində yer tutan vətən sevgisi, məhz anasına olan məhəbbətindən doğmuşdur.

Həyat yoldaşı Fatimə xanımın dediklərinə görə general Polad Həşimovun düşmən təxribatı nəticəsində həlak olması Fərmini dərindən sarsıtmışdı. Bir gün generalın qisasını alacağını qarşısına məqsəd qoymuşdu.

Cəbhə yoldaşlarının dediyinə görə Fərmin ön cəbhəyə gedən ilk könüllü hərbçilərdən olub. Həmlə kəşfiyyat taborunun ilk könüllü dəstəsinin yaradılması tapşırığı verildikdə elə ilk önə çıxan da Fərmin olub və əlli nəfərlik dəstəyə rəhbərlik edib. Düşmənlə üz-üzə durmaq onu qorxutmayıb. Əksinə vətən torpağının hər qarışını mənfur düşməndən geri almaq üçün yüksək əzm və iradə ilə vuruşub. Talış kəndi uğrunda döyüşlərdə və bir neçə yüksəkliyin alınmasında Fərmin böyük şücaət göstərib. Bu döyüşlər zamanı düşmənin hiyləsi nəticəsində ordumuzun otuza yaxın əsgəri mühasirəyə düşüb. Fərmin tək başına yüksək taktika işlədərək itki vermədən böyük cəsarətlə əsgərlərimizi mühasirədən xilas edib.

2021-ci il, 29 sentyabr. Cəbhənin Tərtər istiqamətində qızğın döyüşlər gedirdi. Düşmənin betondan hazırlanmış ağır istehkamlarını yarıb keçmək üçün yüksək döyüş əməliyyatı keçirmək, hər qarış üçün qan tökmək lazım idi. Fərminin rəhbərlik etdiyi igid əsgərlərimiz düşmənin ciddi cəhdlərinə baxmayaraq bir-neçə yüksəkliyi ələ keçirməyə müvəffəq olurlar. Eyni zamanda onları atəş altında saxlayan erməni mənfurlarının 82mm-lik mina atan batareyasını məhv edirlər. Fərmin və əsgərləri verilən tapşırığın öhdəsindən yüksək rəşadətlə gəlirlər. Bu uğurdan sonra azğın düşmənin xain və qəfil həmləsi baş verir. Qızğın döyüş başlayır. Təəssüf ki, bu hücum itkisiz olmur. Atılan düşmən mərmisindən ordumuzun on bir əsgəri şəhadətə yüksəlir. Fərmin isə qəlbindən yara alır. Onun vətən sevgisi ilə çırpınan ürəyi vətən uğrunda dayanır. Cəbhə yoldaşlarının dediyinə görə şəhadətə qovuşduğu anda belə üzündən nur əskik olmayıb. Xəfif təbəssümlə gözlərini vətən göylərinə dikərək şəhidlik zirvəsinə ucalıb igid oğlumuz.

Fərminin ölümündən düz 23 gün sonra onun övladı dünyaya gəldi. Xəyallarını qurduğu, canından çox sevəcəyi övladının üzünü bir dəfə belə görmək qismət olmadı qəhrəmanımıza. Vətən sevdası övlad məhəbbətini üstələdi. Özünün əhd etdiyi kimi övladına atasının adı verildi. İndi şəhid Fərminin ocağında balaca Fərman böyüyür. Günlər keçəcək. Fərman boya-başa çatacaq. Ətrafında bəlkə ona olan sevgi heç tükənməyəcək. Ancaq heç dadmadığı bir sevgi xaricində. Ata sevgisi, ata məhəbbəti. Fərman Naxçıvan torpağının igid oğlu, atası Fərmini xəyallarında canlandıracaq, xəyallarında söhbət edəcək, xəyalları ilə təskinlik tapacaq. Daim atası ilə fəxr edəcək. Şəhid Fərmin Əliyevin oğlu Fərman Əliyev.

15 dekabr 2020-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirmiş, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu leytenant Əliyev Fərmin Fərman oğlu "Azərbaycan Bayrağı" və "Vətən Uğrunda" ordenləri ilə təltif edilib. (ölümündən sonra).

Nur içində yat, bayraq sevdalı şəhidim! Xalqımız səni və sənin kimi torpaq uğrunda canlarını düşmən gülləsinə sipər etmiş igid oğullarımızı hec vaxt unutmayacaq. Gələcək nəsillərə miras qoyduğunuz cəsarət və qəhrəmanlığınız daim qürur mənbəyimiz olacaq.

*P.S. Şəhid Fərminin ailəsi ilə sağollaşıb yola düşürəm. Masa ətrafında olan söhbət, Fatma xanımın şəhid analarımızı səbirli olmaq, başlarını dik tutmaq çağırışı xatirimdə canlanır. Vətən üçün yetişdirdiyi oğulun vətən torpağı uğrunda şəhadətə qovuşması ilə qürur duyduğunu bildirir Fatma ana. Gözü yaşla dolan ananın bu qətiyyəti Azərbaycan qadınının əzm və iradəsinin göstəricisidir.*

*Qəlbim qürur hissi ilə dolmuşdu. Bəlkə ailənin sızlayan, hələ qaysaq bağlamayan yarasını yenidən qanatmışdım. Ancaq bir şəhidimizin keçdiyi hünər və rəşadət dolu yolu cəmiyyətimizə, gənc nəslə çatdıracaqdım. Bu qürur başqa qürur idi.*

**Xumar Məmmədova**
***"Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru***

Dünyada bir zirvə var! Elə bir zirvə ki, bütün yüksəkliklər onun kölgəsində qalır. O zirvəyə ancaq müqəddəs amal uğrunda Allahın verdiyi ömür payını gələcək nəsillərin xoşbəxtliyinə bağışlayanlar ucalırlar. Bu məqamın sahibləri ölümləri ilə ölümsüzlüyə ucalan Şəhidlərdir.

# VƏTƏNİN SEVDALISI VÜSAL

Qanları ilə vətənə can verərək onu ucaldan igidlərin Tanrı dərgahındakı mükafatıdır Şəhidlik. Vətənimizin bütövlüyü uğrunda apardığımız haqq savaşında minlərlə igidimiz ömürlərinin ən gözəl çağını torpağına qurban verərək bu ali rütbəyə layiq oldular.

Keçdiyi ömür yolu və göstərdiyi qəhrəmanlıq dastanı ilə hər birimizə örnək olan igidlərdən biri də Naxçıvanın mərd, qorxmaz, igid oğlu mayor Vəliyev Vüsal İslam oğludur.

1988-ci il 15 iyul tarixində Şərur rayonunun Dizə kəndində anadan olan Vüsal 5 uşaqlı bir ailənin dördüncü övladı idi. Səmimiyyətinə, mehribanlığına, qayğıkeşliyinə görə ailədə öz bacı və qardaşlarından çox seçilirdi Vüsal. Hər zaman fərqlənməyi bacaran bu igid göstərdiyi qəhrəmanlığı ilə də hamımızın qəlbində taxt qurmağı bacardı.

Hərb sənətinə marağı uşaq yaşlarından başlayan Vüsal ilk hərbi təhsilini Naxçıvanda Heydər Əliyev adına Hərbi Liseydə alır. Buranı bitirdikdən sonra Bakıda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi məktəbində təhsil alaraq zabit kimi ordu sıralarında xidmət edir. 2012-ci ildə keçirilən Xüsusi təyinatlı zabit kursunu müvəffəqiyyətlə bitirən Vüsalın hər zaman arzusu, amalı Vətən olur. Elə bu kursda olduğu müddətdə bacısının toyu olsa da, Vüsal vətən üçün hərbi sirləri öyrənməyi daha üstün tutub bacısının toyunda iştirak etmir. Ana yurduna sərhəddə, yayın qızmar günəşinin, qışın şaxtasının altında səngərdə duraraq keşik çəkən Vüsalın döyüş yolu Beyləqanda, yay aylarında istisi ilə cəhənnəmi xatırladan Haramı düzündən başladı. Amma bu isti onun qəlbində alovlanan Vətən sevgisinin yanında sərin küləyə döndü.

Yaşadığı heç bir çətinlik Vüsalı bu sevdadan nəinki döndərə bilmədi, hətta yurduna, torpağına daha çox bağladı. Sonralar Füzuli, Tərtər, Ağdam, Qazax, Tovuz rayonlarında xidmət göstərən igidimizin son xidmət yeri Göygöl rayonu oldu. Vüsal burada həmlə taborunun komandiri təyin edildi. Əsgərləri üçün hər zaman örnək komandir olmağı bacaran Naxçıvanlı igid tabeliyində olan bütün əsgərlərin böyük qardaşı, dostu, sirdaşı olmağı da bacardı.

Şəhidin qardaşı onunla bağlı xatirələrindən danışarkən deyir ki, bir dəfə xidmət dövründə soba yandırarkən əlinə tökülmüş yanacaq səbəbindən Vüsalın əsgərinin əli yanmışdı. Vüsal əsgərinin əlindən qalxan alovu öz sinəsinə basaraq söndürmüşdü. Bu vaxt onun həm əli, həm də sinəsi yanmışdı. Məzuniyyət vaxtı evə gələndə anam onun əlindəki yanıq izlərini görüb pis olmasın deyə, sifarişlə çox çətinliklərlə tapılan bir dərman gətizdirmişdi ki, Vüsal əlinə çəksin, yanıqları sağalsın. Amma Vüsal bu dərmanı özü istifadə etmədi. O, dərmanı əli yanan əsgərin əllərinə çəkib onun yaralarını sağaltdı ki, qoy onun da anası övladının yarasını görməsin. Baxın, Vüsal belə böyük ürəyə sahib igid idi."

Aprel döyüşlərində də iştirak edən Vüsal general Polad Həşimovun sevdiyi, yetişdirdiyi zabitlərdən idi. Axırıncı dəfə sentyabrın 20-də ailəsi ilə görüşən Vüsal şəhid general Polad Həşimovdan danışaraq bir gün mütləq onun qisasını alacağını dedi və dediyinə də əməl etdi.



Müharibənin başladığı ilk gündən döyüşdə iştirak edən Vüsal yüzlərlə düşməni məhv edərək Şuşaya qədər gedib çıxan igidlərdən biri olmağı bacardı. O sevdiyi bir xanımla nişanlı idi. Hətta toyu da planlaşdırılmışdı. Vüsal sevdiyi xanıma qovuşa bilmədi, amma qanıyla, canıyla ən böyük sevdası olan torpağa qovuşdu, Vətənin sevdalısı oldu. 9 noyabrda Şuşa uğrunda gedən döyüşlərdə canını qurban verdiyi vətənin qanla islanmış bağından ən ali bir məqama yüksələn igidimiz itkin şəhidlərdən biri idi. Atasının ürəyi buna dözməyib haqq dünyasına qovuşdu.

Vüsalın mübarək nəşi dekabrın 14-də Naxçıvan Beynəlxalq Hava limanında ehtiramla qarşılandı və Şərur rayon Şəhidlər xiyabanında dəfn edildi.

Hər bir əsgəri, zabiti ilə qürur duyan Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 2020-il 15 dekabr tarixində imzaladığı Sərəncama əsasən mayor Vüsal İslam oğlu Vəliyev (ölümündən sonra) "Vətən uğrunda" medalı ilə təltif edildi.

Ruhun şad olsun, şəhid qardaşım! Sən Vətən sevdasının ən gözəl dastanını yazaraq hər birimizə örnək olarkən suyunu içib, çörəyini yediyin torpağın yenilməz igidlərindən oldun. O gözəl gülüşünlə ölümə meydan oxudun. Tarixinə zəfər qatdığın bu xalq sənin kimi igidləri hər zaman sayğı ilə xatırlayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**İlahə Allahverdiyeva**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# ALLAH BÜTÜN ŞƏHİDLƏRİMİZƏ RƏHMƏT ELƏSİN, ONLARIN ƏZİZ XATİRƏSİ BİZİM QƏLBİMİZDƏ ƏBƏDİ YAŞAYACAQDIR!

## ŞƏHİDLƏR ÖLMƏZ, UNUDULMAZ!

44 günlük müharibə,… milyonlarla ağlayan gözlər,… milyonlarla param-parça olmuş ana ürəyi… Hamımızın bildiyi kimi, Dağlıq Qarabağ mövzusu 30 ilə yaxındır ki, gündəmdədir və 30 ilə yaxındır ki, həllini tapmağa çalışırdı…Nəhayət, bu 30 ilin sonunda Qarabağımız, doğma yurdumuz Ali Baş Komandanımız İlham Əliyev və qəhrəman oğullarımız tərfindən bizə geri qaytarıldı. Lakin bir yandan buna sevinərkən, bir yandan da qəlbimiz sızıldayır, gözümüz ağlayır. 44 günlük müharibədə, neçə-neçə gənc, hələ yaşamağa doymayan oğullarımız öz canları, qanları bahasına bizə qalib dövlətin qalib vətəndaşı olmaq qürurunu yaşatdılar…

Üç minədək şəhid nə deməkdir sizcə? Hər gün mətbuatda, televiziyada ərazilərimizin işğaldan azad edilməsi xəbəri verilərkən həsrətlə gözlədiyimiz qələbəmizin sevincini yaşayırdıq. Ancaq bunu da yaxşı bilirdik ki, neçə-neçə igidlərimiz torpaqlarımızın azadlığı uğrunda gözəl xəyallarından, sevgililərindən, gələcək arzularından əllərini üzdülər. Təbii ki, şəhidlik adı, şəhidlik zirvəsi çox böyük addır, hər kəsin yüksələ bilməyəcəyi bir məqamdır… Ancaq bu da reallıqdır ki, hər bir ananın-atanın övladları ilə bağlı qurduğu arzuları, xəyalları vardır…Mən hər dəfə şəhidlərimizin dəfnində iştirak edərkən, onların nəşinin ata-analarının yanına gətirilmə səhnələrinə şahidlik edərkən, sanki bütün dünyam başıma yıxılırdı. Anaların fəryadı, ataların oğullarının qəbri üzərində oturub oğul, oğul… deyib ağlaması insanın ürəyini parçalayırdı. Heç kim anaların ürək parçalayan bu səslərinin qarşısında bir söz deməyə cəsarət etmir, anaların bu fəryadlarına sadəcə, hönkürtülərini içlərində boğa-boğa, yanıqlı-yanıqlı ağlayaraq cavab verirdilər. Bəli, bir valideyn üçün övlad itkisi qədər ağır bir itki, acı yoxdur…

Bu qısa müddətli müharibə zamanı əsgərlərimiz böyük şücaət göstərdilər. Şuşanın alınmasında göstərdikləri şücaət və qəhrəmanlıq isə dillərə dastan oldu. Hətta xarici ölkə jurnalistlərinin Şuşa döyüşləri haqqında yazılarında onların bizim qəhrəman oğullarımızın döyüş əzminə, qorxmazlığını, igidliyini necə təəccüb və heyranlıq hissi ilə cəmiyyətə çatdırdıqlarının şahidi oluruq.

Televiziya verilişlərindən birində düşmən qarşısında inamla dayanıb, Vətənimizi, torpaqlarımızı qoruyarkən şəhid olan igid qardaşlarımızdan birinin haqqında hazırlanmış reportadan təsirlənərək, hisslərimə qapılaraq bu yazını yazmaq qərarına gəldim. Qarayev Elnur adlı əsgərimizdən bəhs edən verilişdə illər öncə hərbi xidmətini bitirərək ailəsinin yanına geri dönən və müharibə başlayarkən yenidən cəbhəyə qayıdaraq şəhid olan qəhrəmanımızdan bəhs olunurdu.

Sentyabrın 27-si II Qarabağ müharibəsi başlanarkən Elnur Qarayev cəbhəyə getmək üçün könüllü yazılır. Bir-neçə gün sonra Elnurun müraciəti qəbul olunur və o cəbhəyə yollanır. Artıq Elnur 2 həftəyə yaxın idi ki, döyüş bölgəsində idi. Hər gün ailəsinə zəng edər, balaca qızı ilə maraqlanarmış. Günlər belə ötüşərkən artıq Elnurdan zəng gəlmir, nə ailəsinə, nə də dostlarına. Hər kəs nigaran idi, ailəsi, qardaşı, yaxın dostu. Əslində dostunun içində Elnurun şəhid olması kimi bir hiss var idi, ancaq o bunu qəbul etmək istəmirdi. Bir neçə gün keçir, hələ də Elnurdan xəbər gəlmir… Sonda ailəsi, dostları Elnurun şəhidlik zirvəsinə ucaldığı həm acı, həm də qürurverici xəbəri



alırlar. Elnurun Xocavənd rayonun Qırmızı bazar adlanan ərazisində şəhid olduğu bildirilir. Erməni əsgərləri tərəfindən mühasirəyə alınan əsgərlərimiz Elnurun şücaəti ilə sağsalamat mühasirədən çıxırlar. O, əlindəki qumbara ilə həm düşmən tərfin əsgərlərini, həm də özünü partladır.

Elnurun bayrağa bükülmüş nəşi ailəsinə təhvil verilərkən onun hələ 1 yaşı tamam olmamış qızı susmaq bilmədən ağlayırdı, sanki, atasının ölümünü hər kəsdən çox bu balaca körpə hiss edirdi…Dostları bildirir ki, Elnurun tabutunu çiyinləri üzərinə alanda bir yüngüllük hiss ediblər, elə bil ki, tabutda Elnurun nəşi yox imiş. Əslində bu tüklərürpərdici hadisə idi, çünkü həqiqətən də tabutda Elnurun bədəninin sadəcə bir hissəsi var imiş.

Bu yazını yazarkən sanki ömrümdən bir neçə il geri getdi, həmin səhnələr gözümün önündə canlandı. Elnurun ölümündən aylar keçib, Elnurdan isə geriyə ailəsi və nur üzlü qızı, onu unutmayan dostları ilə yaşadığı xoş günlərin xatirəsi qalıb. Elnurun ailəsi üçün bu dərd nə qədər acı olsa da, bir o qədər də qürurvericidir. Əsgər Qarayev Elnurun timsalında bütün şəhidlərimizin ruhunu qürurla anırıq! Allah rəhmət eləsin!

**Gülnarə Abbasova**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

## MƏQAMI ŞƏHİDLİK, MƏNZİLİ VƏTƏN

İnsan dünyaya göz açanda ilk olaraq anasını görür, ilk qədəmlərini Vətən torpağında atır və torpaq sevgisinin hərarətini ana nəfəsi kimi duyur. Bu hərarət zaman keçdikcə o qədər artır ki, insan bir an belə vətənsiz yaşaya bilmir. Biz Vətən sevgisinin odunu, ana yurdun doğmalığını, əvəzolunmazlığını hələ uşaq ikən duyub, hiss edirik.Vətən bizim qibləgahımız,səcdəgahımız olur!

Vətənə uzanan əl sanki ürəyimizi yerindən söküb çıxarmaq üçün sinəmizi yaran süngü kimi əzab verir insana. Bu zaman düşmənə olan sonsuz nifrətimiz yenilməzlik zirehi olub vücudumuzu sararaq qisas almaq arzumuzu alovlandırır.

44 günlük Vətən müharibəsinin qəhrəman şəhidlərindən olan mayor İsmayılov Fuad Murad oğlu da uşaq yaşlarından düşmənə nifrət hissi ilə böyüyübdü. 1986-cı ilin oktyabr ayının 26-da Kəngərli rayonunun Qıvraq qəsəbəsində dünyaya gələn Fuad ailəsinin ilk sevinci idi. Orta təhsilini I Qarabağ müharibəsi şəhidi olan Vəli Canməmmədov adına 1 saylı tam orta məktəbdə alan Fuad uşaqkən belə bir an olsun Xo-



calı qurbanlarını unutmaz, bir gün mütləq onların qisasını alacağını deyərdi. Fuad böyüdükcə gələcəklə bağlı arzuları, xəyalları da dəyişirdi. Dəyişən xəyalların önündə heç dəyişməyən, hətta ilk vaxtlardan daha güclü olan bir arzu dayanırdı, düşməndən qisas almaq arzusu. Bu istək onun bütün həyatının qayəsi olmuşdu. Elə hərbə olan sevgisi də burdan yaranmışdı. O, zabit olmaq arzusunu gerçəkləşdirmək üçün 2002-ci ildə Heydər Əliyev adına Hərbi Liseyə sənəd verərək imtahanı uğurla keçir. Bu, onun həyatındakı ilk ən böyük sevinci idi. Fuad imtahanı qazanmağından çox gələcəkdə zabit kimi vətənin keşiyində dura biləcəyi üçün sevinirdi. 2005-ci ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbə qəbul olan Fuad təhsilini müvəffəqiyyətlə başa vuraraq 2010-cu ildən ordu sıralarında zabit kimi xidmət etməyə başlayır. Hərbi sirləri öyrəndikcə onun qisas almaq arzusu daha da alovlanırdı. Vətənə olan sevgi və düşmənə olan nifrət Fuadı bütün çətinliklərə baxmayaraq ön cəbhədə xidmətə səsləyirdi. Ailəsi ilə gələcək planlarından danışarkən Fuad həmişə bir gün düşməndən Xocalının qisasını misli ilə alacağını, Qarabağı azad edəcəklərini və bundan sonrakı xidmətini Şuşada aparacağını deyərdi.

Onun son xidmət yeri Ağdamda N saylı hərbi hissə olub. Fuad 2018-ci ildən burada taborun qərargah rəisi vəzifəsini icra edirdi. Xidmət etdiyi dövrlərdə "Qüsursuz xidmətə görə" və Milli ordunun yaranmasının 90, 95 və 100 illiyi münasibətilə medallarla təltif edilir. Müharibə başlayanda Fuad illərdir ürəyində düşmənə bəslədiyi qisas almaq arzusu ilə döyüşə atıldı. O, Suqovuşanın və Talış kəndinin düşməndən azad edilməsində şücaətlə döyüşərək düşmənə qan udduran igidlərimizdən oldu. Vətən müharibəsi başladığı müddətdə Fuad hər dəfə ailəsi ilə danışanda onlar narahat olmasın deyə, arxa cəbhədə olduğunu deyirdi. Lakin həqiqətdə isə illərdir ürəyində daşıdığı düşmənə nifrət və vətənə məhəbbət hissi ilə silahlanıb əcdadlarımızın uyuduğu tarixi Qarabağ torpağında 1992-ci ildə igidlərin qisasını almaq üçün döyüşə atılmışdı.

Artıq oktyabr ayının 3-də Fuadın rəhbərlik etdiyi tabor Suqovuşanı və Talış kəndini işğaldan azad etmişdilər. 30 ildir Xocalının fəryadını bütün qəlbi və ruhu ilə hiss edən Fuad zəfər toplarının gurultusu altında doğma Qarabağı azad etmək üçün irəliləyirdi. Lakin oktyabr ayının 4-də Fuad Suqovuşan yaxınlığında şəhadətə qovuşdu. Fuad oktyabr ayının 10-da Bakıda ikinci Fəxri Xiyabanda dəfn edildi. Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunan mayor İsmayılov Fuadın bizə əmanət etdiyi iki oğlu - 7 yaşlı Xəyal və 4 yaşlı Yusif atasının igidliklə keçən ömür dastanını dinləyərək böyüyəcəklər.

Hər şəhid öz qanıyla bir səhifə açır, hər şəhid qəhrəmanlıq dastanının bir hissəsi olur, igidlər bu qəhrəmanlıq dastanlarını Vətən adlı nəhəng kitabın vərəqlərinə qeyrət, təpər, hünər nümunələri yazırlar. Bizə düşən isə bu qəhrəmanlıq dastanlarını idrakımıza, ruhumuza həkk etməkdir.

**İlahə Allahverdiyeva**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

## SİLAHI MƏHƏBBƏT, SON SÖZÜ VƏTƏN

Vətənin bir qarış torpağına yağı əli uzananda sipər olur sinələr onun uğrunda. Odlar Yurdunun övladları döyüşə atılarkən sadəcə bir cümlə dillərdə səslənir: "Vətən sağ olsun!" Vətən həmişə dilimizin əzbəri, qəlbimizdə ümmanlara sığmayacaq qədər məhəbbət bəslədiyimiz səcdəgahımızdır. Vətənimiz 44 gün ərzində təpədən dırnağadək ona olan sevgisi ilə silahlanan igid oğullarımızın torpaqlarımızı qarışqarış düşmən tapdağından xilas edib ayulduzlu üçrəngli bayrağımızı əzəli və əbədi torpaqlarımızda qaldıraraq əldə etdikləri böyük zəfərə şahidlik etdi. Vətənə sevgisi igidlərimizin dəqiq və sərrast şəkildə düşməni məhv edən, onu diz çökdürən tək silahı idi. 30 il ərzində sülh yolu ilə geri alınmasına nail ola bilmədiyimiz torpaqlarımız müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın rəşadətli ordusu tərəfindən 44 gün ərzində düşmədən azad edildi. Bu vətən müharibəsində qanı ilə tarixin şanlı səhifələrinə adını yazdıran Naxçıvanın mərd oğullarından biri İlkin Muradlıdən söz açacağıq.

İlkin ailənin ilk övladı idi. Toy libası torpağ, məhəbbəti qanlı qərənfillər çələngi oldu. Özümüz qurban getsək də, torpağımızın bir qarışından belə keçmərik dedi. Tovuzdan Murova, Murovdan Şuşaya qədər döyüş yolu keçdi və bu yolun sonunda ən uca məqama yüksəldi...

İlkin Muradlı 27 sentyabr 1995-ci ildə Şahbuz rayonunda anadan olub. İbtidai təhsilini Şahbuz şəhər tam orta məktəbində alıb. Qəlbinə hakim kəsilən hərbçi olmaq arzusuna heç kəs mane ola bilməyib. Heydər Əliyev adına Hərbi Liseyə daxil olan İlkin 2013-cü ildə həmin liseydə təhsilini başa vurub. Seçdiyi bu yol onu Bakıya-Heydər Əliyev adına Azərbaycan Ali Hərbi məktəbinə aparıb. 2017-ci ildə bu məktəbi bitirərək leytenant rütbəsində Gəncəyə göndərilib. Gəncə, Ağstafa, sonra isə Tovuzda göstərdiyi qüsursuz xidmətlərinə görə baş leytenant hərbi rütbəsi alıb və Azərbaycan Ordusunun 100 illiyi medalı ilə təltif olunub. Ölümündən 3 gün əvvəl isə kapitan



rütbəsi alıb.

İlkin Muradlı Vətən torpağı uğrunda sentyabrın 27-də başlayan döyüşlərdə irəlidə gedən oğullardan biri oldu. Özü də xüsusi təyinatlı kəşfiyyatçı kimi.

Şəhid anası Həcər xanım danışdıqca özündən ixtiyarsız sakit-sakit gözlərindən üzüaşağı yuvarlanan göz yaşları böyük bir qürurun, baş ucalığının ümmanı və dənizidir. "İlkin çox ailəcanlı idi. Vətənini, valideynlərini canından çox sevirdi. Bir qohumun doğum gününü belə unutmazdı. İlkinin xüsusi əl qabiliyyəti, əl işləri də var idi.

"Beynəlxalq Qadınlar Günü münasibətilə dünyanın ən gözəl qadınına. Bir ailədə ananın vəzifəsi ailəni layiqli təmsil etməkdir. Bu vəzifəni layiqincə yerinə yetirdiyin üçün səni təbrik edirəm, ana!" Dəsmala naxışlarla işlənmiş bu sözləri 8 Martda anası Həcər xanıma hədiyyə göndərmişdi İlkin.

Atası İlyas kişi İlkinin ölümünə heç cür inana bilmir. Deyir, elə bilirəm indicə zəng vurub hal-əhvalımı soruşacaq.

Ailənin sonbeşiyi Elşən deyir ki, qardaşım qəhrəmanlıq göstərərək ən uca zirvəyə- şəhidlik zirvəsinə ucalıb. Oktyabrın 27-si mənim doğum günüm idi. O, harada olursa-olsun, mütləq mənim hədiyyəmi göndərərdi. Bu dəfə döyüşlərdə olduğunu bilə-bilə zarafatla soruşdum ki, bəs bu doğum günümdə mənə nə alacaqsan? Dedi ki, bu dəfə sənə Qarabağı alacağam. Döyüşlərin birində komandirinin şəhid olduğunu dedi, həmin gün çox kədərli idi. Axırıncı dəfə mənlə danışanda dedi ki, bu dəfə mən şəhid olmağa gedirəm, komandirimin qisasını almalıyam. Şuşa uğrunda gedən döyüşlərdə misilsiz igidlik göstərərək əlbəyaxa döyüşlərdə iştirak edən İlkin düşmənin canlı qüvvəsi ilə yanaşı, hərbi texnikasını da məhv edir. Noyabrın 9-da Şuşa-Laçın uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan İlkin bu dünyadakı son sözünə və istəyinə nail olur.

İndi Qubadlı, Kəlbəcər, Zəngilan, Füzuli, Cəbrayıl, Ağdam, Laçın, Şuşa bizimdir. O torpaqlarda axan hər şəhid qanı oranı daha da müqəddəsləşdirib. Artıq Qarabağımızda tarixi zəfərlərlə dolu olan üçrəngli Azərbaycan bayrağı dalğalanır. Müzəffər Azərbaycan Ordusu torpaqlarımızda vəzifələrini şərəflə yerinə yetirir. Siz isə canınızı fəda etdiyiniz və bizə əmanət verdiyiniz Vətən torpağında rahat yatın, şəhidlər!

**Nuray Quliyeva**
***Müalicə işi ixtisası üzrə V kurs tələbəsi***

# ABİDƏLƏRİMİZİ QORUMAQ VƏ GƏNC NƏSİLLƏRƏ ÇATDIRMAQ BİZİM BORCUMUZDUR

Ölkəmizin tarixi qədimdir. Bunu Respublikamızın ərazisində olan qədim yaşayış məskənləri, əsrlərin sınağından çıxaraq bu günə gəlib çatmış qiymətli abidələr də aydın göstərir. Xalqımızın keçmişini özündə yaşadan bu mənəvi dəyərlər hələ açılmamış sirlərlə doludur.

18 aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü Azərbaycanda da geniş qeyd olunur. Hər il bu tarixdə qoruqlarda, tarixi məkanlarda abidələrin və tarixi yerlərin qorunmasının təbliği məqsədi ilə müxtəlif tədbirlər, sərgilər təşkil olunur. Ölkə başçısının böyük diqqət və qayğısı sayəsində ölkəmizdə tarixi abidələrin tədqiqi, mühafizəsi və bərpası, mədəniyyət nümunələrinin beynəlxalq aləmdə təbliği istiqamətində böyük işlər görülür. Mən Naxçıvanda yaşadığım üçün Naxçıvanın memarlıq incilərindən yazmağa qərar verdim.

***Yusif İbn Kuseyir türbəsi***

Mən abidələr haqqında yazarkən ilk olaraq Yusif İbn Küseyir türbəsini ziyarət etdim. Abidənin gözəlliyi məni heyran etdi. Türbənin içəri divarlarında abidənin müxtəlif illərdə çəkilmiş fotoları ilə tanış oldum. Fotoları izlədikcə dahi şairimiz Nizami Gəncəvi ilə Memar Əcəminin görüşünü əks etdirən təsvir daha çox marağıma səbəb oldu. Çünki məktəb illərində Nizami Gəncəvi haqqında verilən məlumatlarda şairin heç vaxt Gəncədən kənara çıxmadığı haqda oxumuşdum.

Tədqiqatlara görə Memar Əcəmi Əbubəkr Naxçıvan memarlıq məktəbinin banisi və ən görkəmli nümayəndəsi olmaqla Şərq aləmində bir sıra şah əsərlərin müəllifi kimi tanınıb. Memar Əcəminin yaradıcılığında formalaşan memarlıq tiplərindən ən bitkini qüllləvari türbələr olub. Ayrı-ayrı nüfuzlu şəxslərin xatirəsinə ucaldılan bu monumental abidələr el arasında uzun illər "Günbəz" adı ilə də tanınıblar. Naxçıvan şəhərinin mərkəzində yerləşən və yerli camaat arasında "Atababa künbəzi" adı ilə tanınan Yusif Küseyr oğlu türbəsi 1162-ci ildə inşa olunub. O, ustad memarın bu günümüzə gəlib çatan ilk böyük əsəri olub. Bu abidə 900 ilə yaxın bir müddətdə salamat qalan tək abidədir.

Sərdabə və yerüstü qülləvari hissədən ibarət olan bu abidənin kitabəsində də onun kimin şərəfinə və hansı tarixdə inşa olunduğu öz əksini tapıb: "Bu türbə xacə, canlı rəis, dinin zəkası, islamın camalı, şeyxlər başçısı Yusif Kuseyir oğlunundur". Digər kitabədə isə onun "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməli" sözləri yazılıb. Atababa günbəzi kimi tanınan bu abidə 1162-ci



ildə Şəmsəddin Eldəgizin dövründə tikilmişdir. Məqbərədə 1955 və 2000-ci illərdə təmir işləri aparılsa da, əsaslı təmir və bərpa Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təşəbbüsü ilə 2019-2020-ci illərdə həyata keçirilmişdir.

Məqbərə ikiüzlü plana uyğun olaraq ortası yastı olan günbəzlə örtülüdür. Bütün məqbərə bişmiş kərpicdən tikilmiş, yüksək tikinti texnikası ilə seçilməkdədir.

"Qafqaz" qəzetinin 1851-ci il 11 may sayında N.A.Engehard abidə haqqında yazırdı: "Bu günbəz səkkizguşəli prizma formasında olub 13 sajen hündürlüyündədir. Günbəz kəməri mavi rəngli pillələrlə bəzədilib. Abidənin bütünlükdə baralyefli kufi xətti ilə örtülmüşdür. Deyilənə görə məqbərə XIII əsrdə Qızıl Arslanın hakimiyyəti dövründə Atabəylər dövlətinin baş vəzirinin məzarı üzərində tikilmişdir. Ona bitişik olan ev isə Naxçıvan diyarının keçmiş rəhbəri general mayor Ehsan xanın varisinin evidir".

N.V.Xanikov da 1850-ci ildə Qafqaz qəzetində bu abidənin arxeoloji kəşfləri haqqında məlumat vermişdir.

"Atababa günbəzi" kimi də tanınan bu abidə haqqında Sisoyevin "Araz üstü Naxçıvan və Naxçıvan SSRİ-nin qədim dövrü"kitabında da qeyd edilib. Eduard Yakopstal isə çəkdiyi fotoda Yusif ibn Kuseyir türbəsinə aparan həyətin darvazasını əks etdirib. Ancaq həmin hasar və darvaza hazırda yoxdur.

Məqbərə bərpa edildikdən sonra türbənin açılışında iştirak edən Ali Məclisin Sədri cənab Vasif Talıbov öz çıxışında demişdir: "Tarixi abidələri qoruyub saxlamaq onu tikməkdən daha çətindir.Yusif Kuseyir oğlu türbəsi tikildiyi dövrdən bu günə qədər qorunub saxlanılmışdır. Bərpadan sonra isə abidəyə ikinci həyat verilmişdir. Abidələr xalqımızın daş pasportudur. Tarixi abidələr xalqımızın neçə yüz bundan əvvəl hansı mədəniyyətə malik olduğunu təsdiq edir. Ona görə də abidələr qorunmalı, ilkin görkəmi saxlanılmaqla bərpa olunmalı və gələcək nəsillərə çatdırılmalıdır."

***Mömінə Xatun türbəsi***

Möminə Xatun türbəsi 1186-cı ildə inşa edilmişdir. Bu türbə Memar Əcəminin şah əsəridir.



Əbubəkr oğlunun dövrümüzə çatmış ən gözəl əsəri olan Möminə xatun türbəsi bu gün də orta əsrlər Naxçıvan şəhərinin əzəmətini əks etdirir, Naxçıvan memarlıq məktəbinin bir şahidi kimi şəhərin mərkəzində yüksəlir.

Tarixi mənbələrdən də məlum olduğu kimi bu türbə Atabəy Şəmsəddin Eldənizin oğlu Məhəmməd Cahan Pəhləvanın arvadı Möminə xatunun şərəfinə tikilmişdir.

Möminə Xatun türbəsinin ümumi quruluşu-sərdabə və qüllədir. Bununla belə memar türbəyə bədii görkəm və gözəllik vermişdir. Türbə təxminən 25 metrlik,10 bucaqlı həcmə malikdir. Türbə qırmızı qaya daşları ilə örtülmüş altlıq üstündə ucalmışdır. Möminə Xatun türbəsi ölçü boyüklüyü və mürəkkəbliyi ilə seçilir.

Abidə yeraltı hissədən və yerüstü qurğudan ibarətdir. Yeraltı sərdabə hissəsi planda onbucaqlıdır. Sərdabənin quruluşu burada olduqca maraqlı bir şəkildə həll edilmişdir. Mərkəzdə yerləşmiş sütundan onbucaqlının hər küncünə bir tağ atılmışdır. Türbənin üzlüyü naxışlı kərpic hörgüsü ilə üzləndiyindən gözəlliyi daha da aydın görünür.

Memar türbənin gözəlliyini pozmamaq üçün giriş qapısını bəzəklərlə o biri üzlərdən kəskin ayırmamışdır. Möminə xatun türbəsinin üzərindəki ornament bəzəkləri sənətkarın tükənməz fantaziyaya malik olduğunu göstərir. Bütün səthlərin ornamenti müxtəlifdir. Sənətkar təkrara yol verməmişdir. Lakin onun məharəti orasındadır ki, müxtəlifliklə bərabər bütün ornamentləri eyni səciyyədə yaratmışdır. Möminə xatın türbəsi Şərqin ən gözəl klassik əsərləri - Firdovsinin "Şahnamə" və Nizaminin "Leyli və Məcnun" əsərləri kimi əbədidir.

Memar üçün ən mühüm faktor istedad və məsuliyyət hissinin olmasıdır. İstedad və məsuliyyəti varsa, daxilində vətənpərvərlik, vətəndaşlıq məsuliyyəti də olacaq, yüksək peşəkarlıq da... Azərbaycan memarlığının görkəmli nümayəndəsi Əcəmi Əbubəkr də məhz bu xüsusiyyətlərlə bu abidələri yaratmışdır.

Abidələr hər bir xalqın tarixi keçmişini təsvir edir. Buna görə də hər birimiz tarixi keçmişimizin yadigarları olan bu qocaman abidələri qoruyub gələcək nəsillərə çatdırmalıyıq. İnanırıq ki, işğaldan azad olunan torpaqlarımızda yerləşən abidələrimiz də yenidən bərpa olunacaq və gələcək nəsillərəçatdırılacaq.

Abidələrimizi qorumaq, saxlamaq və gənc nəsillərə çatdırmaq bizim borcumuzdur.

**Humay Muradova**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***



# NAXÇIVANDA TURİZM

Azərbaycanın ən gəzməli-görməli diyarlarından biri də Naxçıvandır. Ölkəmizdə mövcud olan tarixi memarlıq abidələrinin çox hissəsi də məhz elə Naxçıvandadır. Böyük ipək yolunun üzərində yerləşən və "Şərqin qapısı" adlandırılan Naxçıvan yaxın keçmişdə İslam mədəniyyətinin paytaxtı elan edilmişdir. Hələ qədim zamanlardan bəri Naxçıvan diyarı nadir memarlıq nümunələri ilə Yaxın Şərqdə yaxşı tanınmışdır. Naxçıvan ərazisində olan möhtəşəm qala divarları, erkən şəhər yerləri, I kültəpə, II kültəpə, Govurqala, Qarabağlar, Oğlanqala, Çalxanqala və s. bu tipli turizm məkanları Naxçıvana gələn hər bir kəsin diqqətini cəlb edir. Naxçıvan Atabəylər dövlətinin paytaxtı olduğu üçün bu diyar dərin incəsənət və yüksək sənətkarlıq nümunələri ilə də zəngindir. Hal-hazırda şəhərdə indiyədək qorunub saxlanılan Möminə Xatun türbəsi də Naxçıvana gələn turistlərin ən çox axışdığı məskənlərdən biridir. Tarix dərsindən adını eşitdiyimiz Çalı xanın iqamətgahı da Naxçıvandadır. Bura Çalxanqala adlanır və Naxçıvana yolu düşən hər kəsin diqqətini özünə cəlb edir. Muxtar Respublikanın digər tarixi məskənlərindən biri də Culfa rayonunun Xanəgah kəndində yerləşən Əlincə qalasıdır. Qala Əlincə dağının zirvəsində yerləşir. Bu o qaladır ki, Teymuri hökmdarı Əmir Teymurun hücumlarına nə az, nə çox 14 il sinə gərmişdir. Dünya əhəmiyyətli bu tarixi memarlıq abidəsi yerli turistlərlə yanaşı xarici ölkələrdən olan turistlərdə də maraq oyadır. Bundan başqa Muxtar Respublika ərazisində yerləşən və əsasən Naxçıvan əhalisinin ziyarət etdiyi Əshabi-Kəhf ziyarətgahı isə bütün dünyanın marağını özündə birləşdirir. Ziyarətgah Culfa rayonundadır. Bura hər il yerli turistlərlə yanaşı minlərlə insan baş çəkir. Ziyarətgah Naxçıvana gələn xarici turistlərin də diqqətini çəkən məskənlərdən biridir.

Naxçıvanda yerləşən turizm məskənlərindən olan Batabat gölünün də adını çəkməliyik. Şahbuz rayonunun ərazisində yerləşən Batabata hər il minlərlə turist gəlir. Buranı həm də istirahət mərkəzi adlandıra bilərik. Bura müalicə məqsədi ilə gələn turistlər də var. Belə ki, gölün ətrafındakı karbonat, hidrokarbonat və kalsium-natrium-maqnezium mineralizasiyalı bulaqların suyundan mədəbağırsaq xəstəliklərinin müalicəsində istifadə olunur.

Naxçıvan turizim məskənləri saymaqla bitməz ona görə də gəlib buraları gəzmək, görmək hər bir insana xoş əhval- ruhiyyə bəxş edəcək.

**Paşa Adıgözəlli**
***Jurnalistika ixtisası üzrə I kurs tələbəsi***

# DÜNYAYA ÖRNƏK OLACAQ YOL MƏDƏNİYYƏTİ

Hər bir xalqın mədəniyyəti yoldan başlayır. Yol mədəniyyət, həyat, iqtisadiyyatdır. Yollarin abad, səliqəli, rahat, geniş olması təkcə nəqliyyat daşımaları üçün mühüm əhəmiyyət kəsb etmir, həmçinin ölkənin qüdrətindən, iqtisadi gücündən xəbər verir.

Azərbaycan Avropa və Asiyanı birləşdirən nəqliyyat marşrutlarının kəsişdiyi əlverişli strateji mövqedə yerləşir. Bu amil ölkəmizin tranzit əhəmiyyətini xeyli artırır. Respublikada görülən yol inşaat işlərinin miqyasının ölçüyəgəlməz dərəcədə geniş olmasında bu faktorun da yeri var.

Artıq iki ilə yaxindir ki, Naxçıvan Dövlət Universitetində təhsil alıram. Bir jurnalist-tələbə kimi iki il ərzində etdiyim müşahidələr görə Naxçıvanın yolları heç ölkəmizin paytaxtı Bakı şəhərinin və regionda sayılıb seçilən ölkələrin yollarından geri qalmir. Keyfiyyətlə aparılan yol-inşaat işləri göz oxşayır. Hətta universitetdə təhsil alan əcnəbi tələbələrlə həmsöhbət olduğumuz zaman onların bəziləri öz ölkələrində bu qədər təmiz, rahat və abad yolların olmadığını etiraf edirlər. Qeyd edək ki, təkcə Naxçıvan şəhərinin deyil, muxtar respublikanın digər şəhərləri və rayon mərkəzlərinin də yol infrastrukturu göz oxşayır. Hətta ən ucqar dağ kəndlərinə belə çəkilən asfalt yollar ilin istənilən fəslində bura ilə əlaqəni davamlı olaraq saxlayır. Yəni qışın qarında, yazın leysanlarında, payızın yağmurlarında yollarda hərəkət intensiv olur.



Son illər aparılan quruculuq işlərinin bir hissəsi olaraq bölgələrdə kənd və qəsəbə yolları təmir olunur, yeni istiqamətdə nəqliyyat qovşaqları yaradılır.

Dövlət səviyyəsində bu sahəyə maraq həmişə olub və nəqliyyat infrastrukturunun inkişafı diqqət mərkəzindədir. Artıq bir neçə ildir ki, ölkəmizin avtomobil yolları şəbəkəsinin saxlanılması, təmiri, yenidən qurulması və tikintisi layihələri hazırlanıb. O da faktdır ki, yol tikinti işlərinin keyfiyyətli görülməsi işlərində inşaat və yol işləri texnikasının təbiqindən çox şey asılıdır. Bu istiqamətdə işlər Naxçıvan Muxtar Respublikasında da əhəmiyyətli dərəcədə nəzərə çarpır.

Naxçıvan şəhərinin küçə və yolları isə ayrı bir mövzudur. Deyirlər ki, təkcə Naxçıvan şəhərində 100 minə qədər əhali yaşayır və hər gün 10 mindən artıq adam bu şəhərə daxil olur və çıxır. Təbii ki, son vaxtlar güclənən iqtisadiyyat insanların yaşayışına, maddi vəziyyətinə də müsbət təsir edib. Nəticədə vətəndaşların şəxsi avtomobil almaq imkanı genişlənib. Bu da yollarda avtomobillərin sayını artırıb. Amma, Naxçıvan şəhərinin rahat və yol hərəkəti qaydalarına ciddi riayət edilən yollarında bu nəqliyyat sıxlığı o qədər də hiss olunmur. Çünki qeyd etdiyimiz kimi, piyadalar və sürücülərin nizam-intizamına müvafiq qurumlar tərəfindən mütəmadi nəzarət edilir. Şəhərin rahat yollarında sürət həddinin qaydalara uyğun olması artıq Naxçıvanda xüsusi sürücü mədəniyyətini formalaşdırıb. Bu isə təkcə yerli sakinlərin deyil, hətta şəhərə qonaq gələn əcnəbilərin də diqqətini çəkir. Bir sözlə səliqəli, tıxacsız Naxçıvan yolları göz oxşayır. Ən əsası isə odur ki, Naxçıvanda sürücülərin və piyadaların yol hərəkəti qaydalarına ciddi riayət etməsi nəticəsində bu şəhərdə qəzalar, tıxaclar müşahidə edilmir. Piyada zolaqlarından keçən zaman avtomobil sürücülərinin sakit tərzdə gözləyərək insanlara yol verməsi, piyadaların isə yolu haradan gəldi deyil, nəzakətli şəkildə keçid xəttindən istifadə etməsi ən gözəl yol mədəniyyətidir.

Məncə artıq təkcə ölkəmizin yol və nəqliyyat problemi yaşayan iri şəhərləri deyil, hətta bəzi ölkələrin də bu mədəniyyəti məhz Naxçıvandan öyrənməyə ehtiyacı var!!!

**Səbinə Əliyeva**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# 11 AYIN SULTANI RAMAZAN

11 ayın sultanı Ramazan… Niyə məhz Ramazan? 12 ay içindən niyə məhz Ramazan sultan adlandırılıb? Gəlin, biraz düşünək, Ramazanı dərk edək. Ramazan sözü üç mənada əks olunur. Birincisi, Ramazan sözü ərəb dilində "rəməzə" kəlməsindən götürülmüşdür. Mənası "yandıran" deməkdir. Allahın Peyğəmbəri–Məhəmməd peyğəmbər (s.ə.s) buyurur: "Ramazan günahları yandırdığına görə Ramazan adlandırılmışdır". Ramazan ayı həm də insanı mənən təmizləyir, günahlarını yandırıb yox edir, təqvasını çoxaldır, ruhunu və mənəviyyatını təmizləyir. İnsan bir ay ərzində mənəvi cəhətdən tərtəmiz olur. Günahdan, haramdan özünü uzaq tutmağa çalışır. Bu ay insanlara əsl insan olmağı, acın qarnını doyurmağı, hər zaman haqqın yanında olmağı öyrədir. Bir ay ərzində vərdiş halını alan bu xüsusiyyətlər insanları islah edir, onları pis yoldan uzaqlaşdırır.

Ramazan sözünün ikinci mənası "rəmza" sözündən götürülmüşdür. "Rəmza" yay fəslinin axırında və payızın əvvəlində yağan yağışa deyilir. Həqiqətən də Ramazan ayı insanlara mərhəmət, insanlıq, saflıq, Allahın mərhəmətini yağdırır. Mübarək Ramazan ayı insanların qəlblərini yuyub təmizləyir, insanlar paklanırlar. Təmizlik və paklıq Ramazan ayının əsas xüsusiyyətlərindəndir. Qəlbini tövbə ilə yumaqla və ruhunu təmizləməklə insan İlahi mərifət, elm və feyzlərin qəbuluna, eləcə də onları həzm edərək mənimsəməyə hazır olur.

Ramazan sözünün üçüncü mənası isə "rəməzətin nəslə ərməzəhu rəmza", yəni "Nizəni necə lazımdırsa elə itilədi" kəlamından götürülmüşdür. Nizəni döyüşdən əvvəl iki daşın arasında qərar verərək itiləyirdilər. Nizə paslanmaqdan azad olur, paxırları təmizlənir və döyüşə hazır olur. Mübarək Ramazan ayı da insanı Allah- Təalaya itaət və ibadət arasında qərar verir, təki insanın nəfsi mülayimləşsin, insan günah və haramlardan çəkinməklə nəfsin istəklərinin əlindən qurtularaq azad olsun, beləliklə, Allaha həqiqi bəndəçilik yoluna hazır olsun.

İnsan bu ayda ac qalmaqla sanki öz günahlarının bədəlini ödəyir, acın halından xəbərdar olur və bu sayədə islah olunur. Bu ayda edilən dualar daha tez qəbul olar - deyirlər. Allahın Peyğəmbəri (s.ə.s): "Ramazan ayının ilk gecəsi səmanın qapıları açılar və son gecəsinədək bağlanmaz" deyib. Allahın bizə bəxş etdiyi bu günləri yaxşı qiymətləndirməli, günahdan, haramdan uzaq olmağa çalışmalıyıq.

İslam dininin müqəddəs kitabı "Qurani- Kərim" də bu müqəddəs ayda nazil olmuşdur. Qədr gecəsi Quranın nazil olmağa başladığı və Rəsulullahın (s.ə.s) ilk vəhy alaraq peyğəmbərlik vəzifəsinə başladığı gecədir. Qurani-Kərimin 97-ci surəsində bu gecənin əhəmiyyəti bildirilmiş və həmin surə Qədr surəsi olaraq adlandırılmışdır. Məkkə dövründə nazil olan bu surə beş ayədən ibarətdir. Surədə Quranın vəhyinin başlanğıcından, gecənin böyük fəzilət və bərəkətindən, o gecə kainatı bürüyən ilahi mərhəmətdən bəhs edilir. Qədr sözünün başqa mənası da, "təzyiq" deməkdir. Allahın Rəsulu (s.ə.s) bu gecənin əhəmiyyəti haqqında belə buyurur: "Kim fəzilətinə inanaraq və savabını da yalnız Allahdan umaraq Qədr gecəsini gözəl əməllərlə keçirərsə geçmiş günahları bağışlanar." Bu gecə insanlar yatmaz Allaha dualar edər, günahlarının bağışlanmasını istərlər. Bu haqda Məhəmməd peyğəmbər (s.ə.s) buyurub: "Hər kim Qədr gecəsi oyaq qalsa, günahları bağışlanar; hətta günahları göydəki ulduzların sayı, yerdəki dağların ağırlığı, dənizlərin tutumu qədər olsa da."



Oruc tutmağın insan orqanizminə də faydaları vardır. Tibb mütəxəssislərinin fikrincə, insan qidalanmasına çox diqqət etsə də, bədən toksinlərdən təmizlənmədikcə, lazım olan faydanı əldə etmək mümkün deyil. Oruc bədəni zərərli toksinlərdən azad etməyin ən yaxşı yoludur. Bu yolla insan revmatizm, ilkin mərhələdə olan şəkər xəstəliyi, piylənmə, miqren və s. kimi xəstəliklərdən qurtulur. Alimlər sübut etmişlər ki, oruc tutmaqla orqanizmdəki ehtiyat qüvvələr işə düşür. İnsanın həzm sistemi dincəlir və özünü yeniləşdirir. İl ərzində fasiləsiz olaraq işləyən orqanlar dincəlir, köhnə maddələri buraxıb lazımi yeni maddələr qəbul edir. Oruc tutmaq nəticəsində bağırsağın selikli qişasındakı bəzi köhnə hüceyrələr məhv olur, yeniləri yaranır. Selikli qişa təzələndiyi üçün həzm prosesi də yaxşılaşır. Oruc dalaq, ürək, qan-damar sisteminin yeniləşməsinə, ifrazat sisteminə də müsbət təsir göstərir. İfrazatla bağlı əsas orqan olan böyrəklər çox qida qəbul edərkən yüklənir və "yorulur". Oruc tutmaq nəticəsində böyrəklər dincəlir və normal fəaliyyətini bərpa edir. Məşhur rus alimi Aleksey Soforin "Müalicənin yeni üsulu - oruc" kitabında yazır: "Orucla müalicə elə ecazkardır ki, onun vasitəsilə praktiki və cərrahi müalicənin proqram və metodları köklü surətdə dəyişiləcəkdir. Çünki oruc tibb elminin qarşısında yeni yollar açır".

Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, bunun vasitəsilə siz pis əməllərdən çəkinəsiniz!(Əl- Bəqərə surəsi). Allahın bizə vacib bildiyi bu əməli yerinə yetirək. Yetirək ki, Allahın sonsuz rəhmətindən bizlərə də pay düşsün.

**Etibar Dərbəndəliyev**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***






















# KİTABLARDAN PIÇILTILAR

***NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ ELMİ KİTABXANASINININ YUBİLEYİ MÜNASİBƏTİ İLƏ***

Qarşımda gözəl bir bağça var. Rəssam sanki bahar fırçasını göy qurşağına batıraraq bu bağçaya rəng verib. Yaşıl yarpaqlı sarı güllər üzərinə qonan bülbüllərin sanki rəsmini torpağa çəkib bu bağça. Bir izdiham var İlahi! Bu nə səs-küydür belə. Rəngini göylərdən almış başı buludlara dəyən bir məbəd var bu bağçada. Elm xəzinəsinin mənəvi məbədi olan Kitabxana. Sənələri və dahiləri bir məkanda və zamansız öz rəflərində bir-birinə mehman edən kitabxana. İlahi! bu kitab rəfləri arasında nələr gizlənib, nələr. Görəsən bizi də kitab kimi ağ cildə büküb sonuncu mənzilə yola salacaqlar? Deməli, onda ölən yox olmur, yoxluq necə var olar? Budur qulağıma səsi gəlir Sokratın, Zərdüştün, Nizaminin, Nəsiminin, Mövlana və Sədinin, haray salıb Arazın o tayında Şəhriyar, Nargində güllələnən Müşfiq, Sibirdə "Mənim Tanrım gözəllikdir, sevgidir" deyən Cavid...




Oxunur Tövrat, Zəbur, İncil və Quran. İlk əmri oxumaqla başlayır bu kitabların. Rəngbərəng fonda oxucuların üzünə taybatay açıq, "xoş gəlmişsiniz" deyən qapıları var bu kitabxananın. Aləmdəki ən sakit və ən hüzurlu məbəddir kitabxana. Bizdən əvvəl və sonra var olan, dil dodaqla dərilən ləzzətin duyulmağıdır kitabxana. Kimisi oxuduğu qəhrəmanla baş-başa qalır, kimisi tarixin bir küncündə qısılıb qalır, kimisi isə dünyamızı gözəlləşdirən kitablarla ömrünə su səpərək başqasının yolunda gül əkir bu məbəddən apardığı kitablarla. Öz maviliyini göy qurşağından ödünc almış bu kitabxanada bir canlanma, xoş avaz var. Oxucu masaları yavaş-yavaş öz sakinlərini qucaqlayıb bağrına basır. Fərq qoymur irqlərə, cinslərə, millətlərə, dövlətlərə. Burada hər kəs ayrı bir sevgi ilə Cənnətin kölgəsini yaradır, eybləri göstərən güzgülər qırılmır, ya göyə çəkilir, ya göy çəkilir aradan... Oxucunun könlü lövhədir. Bu lövhəyə həkk olunan nümunələr həyatdakı ən mötəbər töhfədir.

Kitabların pıçıltısı eşidilir bütün rəflərdən.. bizi oxu, bizi oxu deyə. Tozlu rəflər arasında kamilliyi və müdrikliyi ilə aləmə incilər saçaraq "Ölçülüb biçilərsə incə fikir, incə söz, Nə qədər gözəlləşər, olar ürəyincə söz" deyən Nizami bizə "Sirlər xəzinəsi"ni oxuyub Allahın ədəbi ilə ədəblənməyimizi tövsiyyə edir. Səs gəlir...nisgilli və yorğun! ayaq saxla, cavan! Ağ saçlı, məhzun üzlü, qəmli və yarım qalan tabloda Şəhriyarı görürük. "Heydərbabaya salam" la əl sallayır bizə. Çırpınan yellə fəryad qoparan, yarım qalan Şəhri-yarım! Kaş görəydin hicran odunu köksümüzə kim saldı. Vətən eşqilə can verən şair! Nə vardı bədən olsan, verərdik qarşında can. Göz yaşlarım elə hey axır Araz kimi! Öz yurdunu bu qədər içtən sevən, sevgisini ulu bir dağa sığdıran vətənə, elə, obaya, adət-ənənələrə bu qədər bağlı olan yarım qalmış Şəhriyarla vidalaşaraq ona qonşu olan "Qoca və dəniz"ə üz tuturam. Mübarizəsindən bir an olsun belə əl çəkməyən Qoca "İnsan məhv ola bilər, ancaq məğlub olmaz" fikrini də səndən öyrənərək addımlamaqda davam edirik. "Ah mən gündən günə bu gözəlləşən, işıqlı dünyadan necə əl çəkim" İlahi bu ki, istibdadda olan Müşfiqdir. Ömrünün 29-cu qışında Dilbərinin gözündən gilə-gilə düşən Müşfiqim. Bu gözlərin görünən tərəfindəki Dilbər məhəbbətini soyundurub yerinə zifri rəngdə tül asıblar.

Yüz dəfə yansaq eşq oduna, qorxu bilmərik,
Çünki diyarımız bizim odlar diyarıdır.

deyən Vahid qonşu rəfdən arxanızca xeyir-dua verərək piyalədə eşq meyini başına çəkir, Müşfiqim. Zeyd bir küncdə inzivaya çəkilərək Leylinin Məcnununa xısın-xısın ağlamağa davam edir. Bir neçə oxucu Cek Londonun "Həyat eşqi"ni soraqlaşa-soraqlaşa rəflərin arasında gəzişir. Yaşamaq uğrunda mübarizədən bəhs edən bu əsəri axtarır. Olumla ölüm arasındakı bu əsəri ona məsləhət görüblər oxusun. Kimsə ona deyib ki, əsərdə ümid var və o başqadır, o gördüyünə inanmır, idrakla hesablaşmır. Bir ümid qapısı görüb kitabxananı və öz arzularına çatmaq istəyir...Tikanlıqda şərqi deyən Meggi yer üzünün ən gözəl nəğməsini oxumaq üçün həyat satıb ölüm alır...qarşı rəfdən Remark səslənir! Mənim anam, bacım, kəpənək dolu qutum və qırmızı ağacdan olan pianom buradadır, amma mən hələ burda deyiləm. Aramızda bir pərdə, keçilməli olan bir addım var. Mən hələ də bizim üçün ölümə səbəb olan xərçəng, vərəm, qrip, dizinteriyadan da ölümcül olan müharibənin qanlı səngərlərində çabalamaqdayam..Çexov qarışır sözə: Mən inanıram ki, heç bir şey iz buraxmadan keçmir və ən kiçik hərəkətimiz, hər addımımız gələcək həyatımız üçün əhəmiyyət daşıyır. İngilis casusu etiraf edir Çexovun sözünü..Əgər birisi sizə bələd olmadığınız qaranlıq bir yol göstərsə, işığı tapmadan yola düşməyin.

Ruhumuzun səssizliyini eşidib pıçıltılarımızı dualarımız ilə Allaha çatdırmaq varkən niyə kitab adam olmayaq? Bu mavi məbəddə faydalı kitablara əyilərək ucalmaq varkən niyə ucalaraq məğrurlaşaq? Gəlin dəstə-dəstə gedək Dədəmiz Qorquddan xeyir-dua alaq, Sədinin Gülüstanında Ruminin məsnəvisindən ruhlanaq, Nizaminin sirlərində öyüd, Nəsiminin hüruflarında söz, Aşıq Ələsgərə qoşulub xalq ədəbiyyatında dastan, Ordubadinin Dumanında Təbriz, Şəhriyarın Araz həsrətli gözlərində qayıq olaq, Cavidin İblisinə Mələk, Müşfiqin xəyalındakı Xəzər olaq. Biz oxuyaq, onlar pıçıldasın..bizi oxu..bizi oxu deyə!!!

**Fariz Əhmədov**
***Elmi kitabxananın direktoru***













Baş redaktor:
ŞƏHLA ŞİRƏLİYEVA
shshahla36@gmail.com

Ünvan: AZ 7012,
Naxçıvan şəhəri,
Universitet şəhərciyi
Telefonlar:
544-08-61 (13-60)
yenifikir.ndu@gmail.com

Qeydiyyat №330
Sifariş №
Tiraj 500

Redaktor:
Samir Tarverdiyev
"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.